RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 146 (8739) CÜMƏ AXŞAMI, 15 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Vətən uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət qayğısı ilə əhatə olunublar

İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevə 810 mənzilli yaşayış kompleksi barədə məlumat verdi. Burada 15 doqquzmərtəbəli bina inşa olunub. Bu dəfə 300 şəhid ailəsi və müharibə əlili mənzillə təmin olunur.

Ardı 2-ci səh.

# Ölkəmizdə etibarlı sosial müdafiə sistemi yaradılıb

İyulun 14-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Abşeron DOST Mərkəzinin açılışı olub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Əhalinin rifah halının daha da yaxşılaşdırılması, bu istiqamətdə mühüm layihələrin həyata keçirilməsi, ölkəmizdə sosial müdafiə sisteminin etibarlılığının ən yüksək səviyyəyə çatdırılması Prezident İlham Əliyevin çoxşaxəli fəaliyyətinin əsas hədəflərindən biridir.

Ardı 4-cü səh.

# Tarixboyu Cənubi Qafqazda həm Bakı, həm də Tbilisi həmişə öz gözəlliyi ilə fərqlənib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 14-də Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladzeni qəbul edib.

AZƏRTAC xəbər verir ki, Tbilisi şəhərinin meri Kaxa Kaladzeni salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi ürəkdən salamlayıram. Azərbaycanda dəfələrlə olmusunuz, bu gün Tbilisi şəhərinin meri kimi gəlmisiniz. Mənə verilən məlumata görə, dünən Tbilisi və Bakı şəhərlərinin tarixində əlamətdar hadisə baş verib, qardaşlaşma haqqında saziş imzalanıb.

Ardı 4-cü səh.



## Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 5.1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq ekspertizası şöbəsinin müdiri

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri.

2. "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 fevral tarixli 3694 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 2, maddə 297) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## Koronavirusun «Delta» ştammı ölkəmizdə də aşkarlanıb

### Dünyanı bürüyən COVID-19-un bütün növlərindən qorunmağın yeganə yolu vaksinasiyadır

Bir ildən artıq müddətdir davam edən SARS-CoV-2 pandemiyası bütün dünyada ciddi səhiyyə problemi olmaqla, sosial və iqtisadi cəhətdən də gərginlik yaratmaqdadır. Bununla belə, SARS-CoV-2 infeksiyasına qarşı aparılan profilaktik tədbirlər, peyvəndlənmənin təşkili və səmərəliliyinin öyrənilməsi baxımından ölkəmiz dünyada ön sıralardadır.



Bu barədə Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin birgə məlumatında bildirilir.

Qeyd olunur ki, koronavirusun mutasiyaları nəticəsində son zamanlar meydana çıxan yeni variantlar bütün dünyada ciddi narahatlıq doğurur. Ölkəmizdə epidemioloji vəziyyətin nəzarətdə saxlanılması üçün görülən tədbirlər çərçivəsində Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Genetik Diaqnoz Mərkəzində SARS-COV-2 virusunun genetik variantlarına dair vaxtaşırı analizlər aparılır.

Aparılan araşdırmaların növbəti mərhələsində son vaxtlar ölkəmizə xaricdən gələnlərdən alınmış nümunələrdən 31-də B.1.617 (Delta) variantı, 9-da B.1.1.7 (20 Alpha V1, Britaniya) variantı aşkar olunub.

Ardı 9-cu səh.

*XXXII Tokio Yay Olimpiya Oyunları*

Tokioya fərəhlə, Bakıya zəfərlə

## Azərbaycanı "Tokio-2020" Yay Olimpiya Oyunlarında 44 idmançı təmsil edəcək

Tokio Olimpiadasına 44 idmançımız vəsiqə qazanıb. Bu barədə Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Qabil Mehdiyev məlumat verib. Onun dediyinə görə, yarışa sonuncu lisenziyanı üzgüçü Məryəm Şeyxəlizadə Xanqan qazanıb. Artıq Beynəlxalq Olimpiya Komitəsi idmançının lisenziyasını təsdiqləyib.

Atlet Aleksis Kopello, üzgüçü Ramil Vəlizadə və ağırlıqqaldıran Əliş Nəzərov isə oyunlardan kənarda qalıblar. Azərbaycan Atletika Federasiyasının (AAF) baş katibi Məhərrəm Sultanzadə A.Kopellonun lisenziyasının beynəlxalq federasiya tərəfindən təsdiqləndiyi halda onun zədə səbəbindən olimpiadaya getməkdən imtina etdiyini bildirib. Üzgüçülük Federasiyasının baş katibi Fərid Bənənyarlı isə deyib ki, R.Vəlizadə reytinq xallarına görə lisenziya əldə edə bilməyib.

Əliş Nəzərova gəlincə, əslində, daha əvvəl idmançının 6 beynəlxalq yarışda göstərdiyi yüksək nəticələrə əsasən lisenziya qazandığı açıqlanmışdı. Lakin yekun siyahıda onun da adı yoxdur. Azərbaycan Ağır Atletika Federasiyasının (AAAF) mətbuat katibi Kənan Məstəliyev deyib ki, onlara son anadək Ə.Nəzərovun Tokio Olimpiadasına lisenziya əldə etməsi ilə bağlı hər hansı məlumat daxil olmayıb: "Düzdür, şansı var idi. Ola bilərdi ki, özündən yuxarıda qərarlaşan idmançılardan kimlərinsə dopinq-testi müsbət nəticə versin. Amma rəsmi məktub gəlmədiyindən açıqlama vermirdik. Artıq yekun siyahını açıqlayıblar. Göründüyü kimi, orada idmançımızın adı yoxdur".

Ardı 11-ci səh.

# Vətən uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət qayğısı ilə əhatə olunublar








*Əvvəli 1-ci səh.*

Hazırda dünyada pandemiyanın davam etməsinə, bir çox ölkələrdə iqtisadi-maliyyə çətinliklərinin olmasına baxmayaraq, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasəti sayəsində heç bir sosial layihə təxirə salınmayıb. Əksinə, ölkəmizdə sosialyönümlü layihələrin sayı və coğrafiyası genişləndirilib, əhalinin həssas təbəqəsinin sosial məsələlərinin həlli istiqamətində genişmiqyaslı işlər görülür. İcra olunan sosial xarakterli layihələr arasında şəhid ailələri və müharibə əlillərinin sosial şəraitinin daha da yaxşılaşdırılmasına xüsusi diqqət göstərilir. Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması bunu bir daha təsdiqləyir.

Kompleksin ərazisində 140 yerlik uşaq bağçası da inşa olunub. Burada balacaların təlim-tərbiyəsi ilə məşğul olmaq üçün geniş imkanlar var. Bağçanın qrup otaqları, musiqi və idman zalları uşaqların zövqünə uyğun yaradılıb. Burada uşaqların rahatlığını, istirahətini və ilkin biliklərə yiyələnməsini təmin etmək, həmçinin onların bacarıq və istedadlarını aşkarlamaq üçün hərtərəfli şərait var.

Müharibə əlillərinin sosial şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində çox mühüm işlər görülüb. Bu işlər sırasında onların avtomobillə təmin olunmasına xüsusi diqqət yetirilir. İndiyədək 7200 müharibə əlili avtomobillə təmin olunub. Bu gün isə daha 50 müharibə əlili və onlara bərabər tutulan şəxslər avtomobillə təmin olunurlar. 2019-cu ildə əlilliyi olan 600, 2020-ci ildə isə 400 şəxsə avtomobil verilib. 2021-ci ildə isə, ümumilikdə, 150 avtomobilin verilməsi nəzərdə tutulub.

Dövlət başçısı avtomobillərdən birini idarə etdi.

Prezident İlham Əliyevə şəhid ailələri və müharibə əlillərinin sosial təminatı, postmüharibə dövründə sosial dəstək, məşğulluq, mənzil, fərdi ev və avtomobil təminatı istiqamətində görülən işlər barədə məlumat verildi.

Bildirildi ki, şəhid ailələrinin üzvləri və müharibə veteranlarının aktiv məşğulluq tədbirləri çərçivəsində son 6 ayda 47 min 400 nəfər işlə təmin olunub, 7 min nəfər özünüməşğulluq proqramına, 56 min nəfər isə ictimai işlərə cəlb olunub. 2018-2020-ci illərdə bu qəbildən olan vətəndaşların orta aylıq əməkhaqqı 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artıb. Postmüharibə dövründə 24 min şəxsə 33 min xidmət göstərilib. Şəhid ailələri və xəsarət alan hərbçilərlə bağlı Prezident İlham Əliyevin bu ilin iyun ayında imzaladığı fərmanla yaradılan Vahid Əlaqələndirmə Mərkəzində 7 qurum üzrə 26 xidmət göstəriləcək. Yaxın iki ay ərzində bu cür mərkəzlər DOST mərkəzlərində fəaliyyətə başlayacaq.

Kompleksin ərazisindəki 333 saylı tam orta məktəb 624 yerlikdir. Məktəbin sinif otaqları tədrisin yüksək səviyyədə təşkilini təmin edən bütün zəruri dərs vəsaiti və əyani ləvazimatlarla təchiz edilib. Burada informatika, kimya, biologiya, fizika otaqları, akt və idman zalları yaradılıb. Məktəbdə yaradılan şərait Azərbaycan dövlətinin təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, o cümlədən yeni məktəb binalarının inşasına, mövcud olanların əsaslı şəkildə yenidən qurulmasına, təlim-tədris prosesinin ən yüksək səviyyədə təşkili məsələsinə göstərilən diqqəti əyani şəkildə nümayiş etdirir.

Sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı

- Salam, xahiş edirəm, görüşümüzün əvvəlində Vətən uğrunda qəhrəmancasına həlak olmuş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Bu gün şəhid ailələri və müharibə əlilləri üçün yeni salınmış yaşayış kompleksi təqdim edilir. Bu kompleks 810 mənzildən ibarətdir, böyük yaşayış kompleksidir. Mən indi burada yaradılmış şəraitlə tanış oldum, görürəm ki, şərait çox müsbətdir, çox yaxşıdır. Evlər işıqlı, genişdir, 620 nəfərlik məktəb, uşaq bağçası artıq fəaliyyətə hazırdır. Yəni burada rahat yaşamaq üçün bütün imkanlar var. Burada şəhid ailələri, Qarabağ qaziləri yaşayacaqlar.

Bu kateqoriyadan olan insanlara dövlət tərəfindən daim böyük diqqət göstərilir, sözdə yox, əməldə. Bunu təsdiqləyən rəqəmlər özlüyündə bunun göstəricisidir. Çünki son illər ərzində bu sahədə çox böyük işlər görülmüşdür. Bu kompleks də nəzərə alınmaqla, 10 min şəhid ailəsi və müharibə əlili dövlət tərəfindən mənzillərlə, fərdi evlərlə təmin olunub və bu proses davam edir. Keçən il, 2020-ci ildə biz bu istiqamətdə ən böyük göstəriciyə nail olduq - 1572 şəhid ailəsi və Qarabağ qazisi evlərlə, mənzillərlə təmin olunmuşdur. Elə keçən il mən demişdim ki, 2021-ci ildə biz öz vətəndaşlarımızı daha böyük sayda evlərlə, mənzillərlə təmin etməliyik və bu gün bunun nəticələrini görürük. Bu il 3 minədək şəhid ailəsi, müharibə əlili evlərlə, mənzillərlə təmin ediləcək və bu yaşayış kompleksini də nəzərə almaq şərti ilə artıq bu kateqoriyadan olan 1300-dən çox ailə mənzillərlə təmin olunub. Bununla bərabər, biz uzun illərdir Qarabağ qazilərini fərdi avtomobillərlə də təmin edirik. Bu gün də bir neçə avtomobil təqdim ediləcəkdir və bütövlükdə 7200 avtomobil verilib.




Mən bu rəqəmləri səsləndirməklə bir daha göstərmək istəyirəm ki, Azərbaycanda bu sahədə görülmüş işlər nümunəvi xarakter daşıyır. Mən ölkəmizi hansısa bir başqa ölkə ilə müqayisə etmək istəmirəm. Ancaq həyat və gördüyümüz işlər onu göstərir ki, bu sahədə Azərbaycanda aparılan siyasət ən humanist siyasətdir, ən ədalətli siyasətdir və vicdanlı siyasətdir. Çünki Vətən uğrunda öz canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır və biz bunu bu gün əyani şəkildə görürük. Öz sağlamlığını itirmiş, yaralanmış qazilər bütün dövlət orqanları tərəfindən daim qayğı ilə əhatə olunmalıdır və biz bunu təmin edirik. Onu da bildirməliyəm ki, bizdə bu sahədə tətbiq olunan prinsiplər öz unikallığı ilə seçilir. Çünki bir çox ölkələrdə müharibələr, münaqişələr olub, ancaq mən elə bir ölkə tanımıram ki, müharibələrdə həyatını itirmiş insanların yaxınlarına bu dərəcədə diqqət göstərilsin. Ermənistan da itkilər verib və İkinci Qarabağ müharibəsində bizdən haradasa 2-3 dəfə çox itki verib. Amma baxın görün, orada müharibədə ölənlərin ailəsinin birinə bir mənzil verilir? Yox. Avtomobil verilir? Yox. Bir daxma da verilmir. Yəni bu onu göstərir ki, bizim bu sahədəki siyasət, sözün əsl mənasında, milli siyasətdir. Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Ən həssas kateqoriyadan olan vətəndaşlar, ilk növbədə, dövlət tərəfindən qayğı ilə əhatə olunmalıdır.

Biz bu gün müharibə dövründə evlərini itirmiş, namərd erməni atəşi nəticəsində yaxınlarını itirmiş mülki şəxslərin də problemlərini həll edirik. İndi hər kəs, bütün dünya bilir ki, müharibə dövründə Ermənistan döyüş meydanında bizə qarşı müqavimət göstərə bilmədiyi halda mülki əhalini atəşə tutub, hərbi cinayətlər törədib, qadağan edilmiş silahlardan, o cümlədən ağ fosforlu bombalardan istifadə edib. Bu, artıq sübut olunub. Uzaqmənzilli ballistik raketlərdən istifadə edib və bunun nəticəsində 100-dən çox mülki şəxs həlak olub və minlərlə fərdi ev və fərdi sahibkarlıq obyekti dağıdılıb. Bu gün dağıntılara məruz qalmış bütün şəhər və rayonlarımızda quruculuq işləri gedir, yenə də dövlət xətti ilə yeni evlər tikilir, fərdi evlər tikilir və o evlər dağılmış əvvəlki evlərdən qat-qat keyfiyyətlidir.

Bu bir daha onu göstərir ki, biz bu istiqamətdə ən düzgün siyasət aparırıq və bu siyasət Azərbaycan xalqının maraqlarına tam cavab verir. İkinci Qarabağ müharibəsində əlil olmuş şəxslərə də dövlət daim qayğı, diqqət göstərir. Qazilərimizin məşğulluq məsələləri həll olunur və mən çox şadam ki, bizim çağırışımıza özəl sektor müsbət reaksiya verib, bu da təbiidir. Çünki özəl sektorun inkişafı, sahibkarlıqla məşğul olanların fəaliyyəti üçün dövlət çox böyük işlər görüb. İndi də özəl sektor, sahibkarlar öz sosial məsuliyyətini göstərməlidirlər və göstərirlər. "Məşğulluq marafonu"na 200-dən çox sahibkar qoşulub və 160 qazi artıq işlə təmin olunub. Bu da yenilikdir. Bu kateqoriyaya aid olan insanlar üçün məşğulluq marafonunun keçirilməsi, əlbəttə ki, həm dövlət siyasətini, eyni zamanda cəmiyyətimizin yetkinliyini göstərir. Sahibkarlar da bu məsələyə, bu təşəbbüsə böyük həvəslə qoşulublar və əminəm ki, bu təşəbbüsün çərçivələri getdikcə daha da genişlənəcək.

Bildiyiniz kimi, son illər ərzində ölkəmizdə genişmiqyaslı özünüməşğulluq proqramı icra edilir. Biz hər il özünüməşğulluqla məşğul olmaq istəyənlər üçün vasitələr təqdim edirik və onların sayı artır. Bu il nəzərdə tutulub ki, 16 min insan özünüməşğulluq proqramına cəlb olunacaq, dövlət tərəfindən onlara vasitələr veriləcək və beləliklə, onlar öz gələcək maddi imkanlarını özləri təmin edəcəklər. Özünüməşğulluq proqramına cəlb olunan 16 min nəfər arasında artıq 5 mindən çox şəhid ailələrinin üzvləri və müharibə əlilləri vardır. Yəni bu da daim diqqət mərkəzində olan məsələdir.

Biz müharibədə əlini, qolunu, ayağını itirmiş hərbçilərimiz üçün ən müasir protezlər sifariş etmişik və bu protezlər artıq quraşdırılır. İkinci Qarabağ müharibəsinin 100-dək qazisi artıq ən yüksəkkeyfiyyətli, dünyanın aparıcı firmalarının istehsalı olan protezlərlə təmin olunub və bu protezlər onları normal həyata qaytarır.

İndi bu protezlərlə insan normal yaşaya bilər, gəzə bilər, qaça bilər, futbol oynaya bilər. Bax, bunu biz edirik. Bütün bu genişmiqyaslı işlər, təşəbbüslərlə bərabər, 8400 nəfərə, müharibədə iştirak edən insanlara sosial ödənişlər verilib.

Biz artıq bir neçə reabilitasiya mərkəzi yaratmışıq və yaralanmış hərbçilərimiz orada öz sağlamlıqlarını bərpa edirlər. Bu, çox genişmiqyaslı, böyük vəsait tələb edən proqramlardır. Ancaq biz bunu edirik və bundan sonra da edəcəyik. Bütün şəhid ailələri, Qarabağ qaziləri bilməlidirlər ki, biz daim onların yanındayıq, sözdə yox, əməldə. Çünki hər şey əməllə ölçülür. Yaxşı sözlər demək çox asandır, biz bunu eşitmişik və İkinci Qarabağ müharibəsi dövründə bizim bütün sözlərimiz həqiqəti əks etdirirdi. Ermənistan tərəfi isə öz vətəndaşlarını aldadırdı, vicdansızcasına aldadırdı, yalan danışırdı və bunun acısını indi çəkir. Bizim isə sözümüz tam həqiqətdir və verilmiş vədlər də tam yerinə yetirilir. Bu günə qədər verilmiş bütün vədlər, o cümlədən ərazi bütövlüyümüzün bərpası ilə bağlı verilmiş vədlər yerinə yetirildi.

Mən şəhid ailələri ilə son illər, yəni bütün bu 18 il ərzində çoxsaylı görüşlər keçirmişəm. Daim çalışmışam ki, onlara həm mənəvi dəstək verim, həm də təbii ki, onların məişət problemlərini həll edim. Eyni zamanda bilirdim ki, onlar üçün bütün bu məişət problemlərindən daha vacib məsələ onların övladlarının qisasının alınmasıdır. Mən bunu çox yaxşı başa düşürdüm və biz hamımız onların qisasını almaq istəyirdik və almalı idik. Deyirdim ki, onların qanı yerdə qalmayacaq və bu gün gəldi. Biz bütün şəhidlərimizin qanını aldıq. Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qisasını döyüş meydanında aldıq və bununla fəxr edə bilərik. Öz yaxınlarını itirmiş insanlar, hesab edirəm, bununla təsəlli tapa bilərlər. Çünki onların qəhrəmanlığı, onların şücaəti və fədakarlığı torpaqlarımızın azad olunmasına xidmət etdi. Məhz onların qanı bahasına biz torpaqları almışıq, geri qaytarmışıq. Hər birimiz deyirdik, ürəyimizdə deyirdik və sözdə də deyirdik ki, nəyin bahasına olursa-olsun, biz torpaqlarımızı geri almalıyıq. Əlbəttə, hər bir insanın həyatdan getməsi böyük faciədir - həm onun ailəsi üçün, yaxınları üçün, qohumları üçün, həm də cəmiyyət üçün. Ancaq bizim şəhidlərimiz haqq yolunda həlak olublar, Vətən uğrunda həlak olublar. Onların qəhrəmanlığı bu gün bütün dünyada artıq gerçək kimi qəbul olunur. Onların qəhrəmanlığı nəticəsində bu gün bizim bayrağımız azad edilmiş torpaqlarda ucaldılır. Onların qəhrəmanlığı nəticəsində xalqımız, dövlətimiz müzəffər dövlət, müzəffər xalq kimi yaşayır və bundan sonra əbədi yaşayacaq. Bu, şəhid ailələri üçün təsəlli ola bilər.

İkinci Qarabağ müharibəsində bizim planlarımız tam yerinə yetirildi və onu da deməliyəm ki, mən bir neçə dəfə bu məsələyə toxunmuşam, bir də demək istəyirəm. Çünki müharibə dövründə apardığımız əməliyyatların hamısı haqqında danışmaq hələ tezdir. Ancaq ən vacib göstərişlərimdən biri də o idi ki, əməliyyatlar planlaşdırılarkən və həyata keçirilərkən biz qarşımıza qoyduğumuz hədəfə minimum itkilərlə çataq. Hesab edirəm ki, buna nail olmuşuq.

Bəli, biz üç minə yaxın şəhid vermişik. Onların hər birinin həyatı çox qiymətlidir. Ancaq onu da bilməliyik ki, apardığımız müharibədə itkilərimiz daha da çox ola bilərdi. Çünki birincisi, əkshücum əməliyyatı keçirən tərəf, adətən, bir qayda olaraq, daha çox itki verir - müdafiə olunan tərəfdən ən yaxşı halda üç-dörd dəfə çox. Bunu hərbçilər daha yaxşı bilirlər.

*Ardı 3-cü səh.*

# Vətən uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın ailə üzvləri dövlət qayğısı ilə əhatə olunublar

*Əvvəli 2-ci səh.*





Digər tərəfdən, azad edilmiş torpaqların relyefi bizim üçün çox əlverişsiz idi. Qarşı tərəf üçün əlverişli idi. Onlar bütün strateji yüksəkliklərə sahib idilər. Əlbəttə ki, 30 il ərzində onların qurduqları istehkamlar, 6 müdafiə xətti və mühəndislik işləri onlara böyük üstünlük verirdi. Onlar hesab edirdilər ki, bu müdafiə xəttini, bu istehkamları, bu dağları biz heç vaxt keçə bilmərik. Amma onlar yanıldılar, böyük yanlışlığa, səhvə yol verdilər. Onlar bilmirdilər ki, Azərbaycan xalqı bu 30 il ərzində bir amalla yaşayır: nəyin bahasına olursa-olsun, torpaqlarımızı işğalçılardan azad edək. Biz bu amalla yaşamışıq. Bizi qələbəyə aparan təkcə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, hərbi texnikamız yox, bizi qələbəyə aparan Vətən sevgisi idi. Ən başlıca faktor, ən başlıca amil Vətən sevgisi idi.

Biz düşməni torpaqlarımızdan qovduq, ərazi bütövlüyümüzü bərpa etdik. Ona görə 3 minə yaxın şəhidimizin həyatdan getməsi, əlbəttə, böyük faciədir. Ancaq Ermənistan bu günə qədər öz itkiləri haqqında məlumat vermir. Bizdə olan və bilirəm ki, müstəqil ekspertlərdə olan məlumatlara əsasən, onların itkiləri ən azı 7-8 mindir. Bunu həm əməliyyatların gedişatı göstərir, eyni zamanda bizim videotəqdimatlarımız göstərir, ermənilərin məhv edilmiş, qənimət kimi götürülmüş hərbi texnikası göstərir. Biz 336 düşmən tankını ya məhv etmişik, ya da qənimət kimi götürmüşük. İndi saysınlar, hesablasınlar, bir tankda neçə nəfər oturur. Biz yüzlərlə zirehli texnikanı, yüzlərlə hava hücumuna qarşı müdafiə sistemlərini məhv etmişik. Böyük sayda artilleriya qurğularını məhv etmişik. Hər bir artilleriya qurğusu yanında ən azı 3-4 nəfər olur. Əgər təkcə bunları hesablasaq, real mənzərə üzə çıxır. Ona görə də hesab edək ki, onların itkisi 7-8 mindən də çoxdur. Bu, nəyi göstərir? Bizim hərbçilərimizin qəhrəmanlığını, peşəkarlığını göstərir. Planlaşdırılan əməliyyatların düzgünlüyünü göstərir. Bir daha demək istəyirəm, hər bir əməliyyatı planlaşdırarkən deyirdim ki, itkilər minimum olsun.

Bəzən buna görə də biz bəzi əməliyyatları təxirə salırdıq, bəzi əməliyyatları bir qədər sonra keçirirdik. Çünki görürdük, itkilər çox ola bilər. Əlbəttə, 10 noyabrda Ermənistanın imzaladığı kapitulyasiya aktı bizə imkan verdi ki, minlərlə gəncin həyatını qoruyaq. Çünki əgər Ermənistan kapitulyasiya aktını imzalamasaydı və müharibə davam etsəydi, təbii ki, biz dayanmayacaqdıq. Çünki mən müharibə dövründə dəfələrlə demişəm ki, biz dayanmağa hazırıq. Müharibənin ilk günlərində demişəm, qoy, Ermənistan rəhbəri bizə tarix versin, onlar bizim torpaqlarımızdan nə vaxt çıxırlar, biz müharibəni dayandırmağa hazırıq. Biz müharibə istəmirik. Ancaq onlar bizə o vaxt tarix verdilər ki, artıq biz Şuşanı geri götürdük və 300-dən çox yaşayış məntəqəsini azad etdik. Amma əgər noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktı imzalanmasaydı, biz dayanmayacaqdıq. Bizim növbəti əməliyyat istiqamətlərimiz bəlli idi. Ancaq itkilər çox olacaqdı: həm Ağdamda, həm də Kəlbəcər və Laçında. Çünki onlar Ağdamı elə bir istehkama çevirmişdilər ki, şərq tərəfdən ora girmək çox böyük təhlükə idi. Əlbəttə, Şuşa götürüləndən sonra, Hadrut, Füzuli bizim əlimizdə olandan sonra təbii ki, Ağdamda erməni hərbi qruplaşması mühasirəyə düşəcək və məhv olacaqdı. Amma biz də itkilər verəcəkdik. Kəlbəcər və Laçın rayonlarının təbii relyefi, iqlimi, hava şəraiti bizim işimizi çox çətinləşdirə bilərdi, xüsusilə nəzərə alsaq ki, qış gəlirdi. Qış orada çox sərt keçir. Dağlarda qar heç ərimir. Deyə bilərəm ki, biz o istiqamətdə Azərbaycan-Ermənistan sərhədinə ancaq may ayında çıxa bilmişik. Çünki yol yoxdur, necə deyərlər, heç cığır belə yoxdur. O bölgələrdə sovet dövründə yaşayış məntəqələri olmayıb. Biz oraya ancaq qar əriyəndən sonra çıxa bilmişik. Ona görə bizim müharibə dövründə apardığımız işlər tam dəqiqliyi ilə aparılmışdır. Hədəfə hesablanmış addımlar idi - vaxtında hər şeyi etdik, vaxtında dayandıq. Ərazi bütövlüyümüzü bərpa etdik və minimum itkilər verdik.

Təsadüfi deyil ki, bu gün dünyanın aparıcı ölkələrinin hərbi məktəblərində bizim müharibəmiz, İkinci Qarabağ müharibəsi öyrənilir. Biz bunu həm mətbuatda izləyirik, eyni zamanda bizə bir çox yerlərdən müraciətlər daxil olur, bizim təcrübəmizi öyrənmək istəyən tərəfdaşlar müraciət edirlər.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu şanlı Qələbə Azərbaycan xalqının tarixində əbədi qalacaq. Bəlkə də tarixdə buna oxşar parlaq və tam qələbə heç vaxt olmamışdır. Biz hazırlaşırdıq, biz bütün tədbirləri görürdük, bütün addımları vaxtında atırdıq. Bütün güclərimizi bir amal uğrunda səfərbər etmişdik ki, torpaqlarımızı işğalçılardan azad edək. Həm hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, texniki təchizat, həm də vətənpərvərlik hissi - bütün bu amillər, xalq-iqtidar birliyi, ölkəmizdə mövcud olan sabitlik və xoş ovqat qələbəyə gətirən amillər olmuşdur. Onu da bildirməliyəm ki, müharibə dövründə bir dənə də fərari olmamışdır. Amma Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Onların yarısı ölkədən qaçmışdır, yarısına qarşı da cinayət işi açılmışdır. Amma sonra Ermənistan rəhbərliyi götür-qoy elədi, dedi ki, bu on min nəfəri burada necə həbs edə bilərəm. Ona görə onları əfv etdilər. On mindən çox fərari olmuşdur. O məşhur kadrların hamısı həqiqətdir ki, səngərlərdə Ermənistan ordusunun zabitləri əsgərləri zəncirləyirdilər, avtomobillərdə zəncirləyirdilər ki, qaçmasınlar. Kütləvi qaçış hökm sürürdü. Bax budur bizim nailiyyətimiz. Amma bizdə bir nəfər də olsun, döyüş meydanından qaçmadı, əksinə, hospitallarda yaralı vəziyyətdə olanlar da həkimlərinə deyirdilər ki, bizi tezliklə sağaldın, biz qayıdırıq. Bəli, bir çoxları da qayıdıb və həlak olub.

İndi isə yeni dövr başlayıb - quruculuq dövrü, postmünaqişə dövrü. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi öz həllini tapıb. Bu münaqişə həll olunub. Bunu da həll edən tərəf bizik, Azərbaycan dövlətidir. Biz bunu birtərəfli qaydada həll etmişik. Əgər kimsə mən ordan-burdan eşidirəm, yenə də başlayıb ki, məsələ öz həllini tapmalıdır, bu münaqişə həll olunmayıb. Çox yanlış və təhlükəli yoldadırlar. Əgər həll olunmayıbsa, onda qoy bizə izahat versinlər, necə həll olunmalıdır. Biz hesab edirik ki, bu, həll olunub, artıq müharibə dövrü arxada qalıb. Amma buna baxmayaraq, biz müharibəyə hər an hazırıq və hazır olmalıyıq. İyunun 26-da Silahlı Qüvvələr Günündə mən öz açıqlamalarımda bunu demişəm. Biz ordumuzla bağlı yeni planları həyata keçiririk. Ancaq biz hesab edirik ki, münaqişə həll olunub, biz ərazi bütövlüyümüzü bərpa etmişik. Biz Qələbə qazanmışıq. Bizim bu gün gündəlikdə duran hər hansı başqa bir məsələmiz yoxdur. Biz öz sərhədlərimizə çıxmışıq, Ermənistan-Azərbaycan sərhədini nəzarətə almışıq. Biz artıq quruculuq işlərinə başlamışıq. Əgər kimsə deyirsə ki, münaqişə həll olunmayıb, gəlsin desin, bunun həllini necə görür, nə həll olunmayıb? Əgər dırnaqarası Dağlıq Qarabağın statusundan söhbət gedirsə, mən demişəm, Azərbaycan ərazisində Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur. Ümumiyyətlə, bu söz, ifadə işlədilməməlidir. Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib. Şərqi Zəngəzur iqtisadi zonası yaradılıb. İndi Ermənistanda bu məsələ ilə bağlı isterikaya qapılırlar. Buna ehtiyac yoxdur, Şərqi Zəngəzur bizim tarixi torpağımızdır, Qərbi Zəngəzur bizim tarixi torpağımızdır. Biz tarixi unuda bilmərik, kiminsə siyasi maraqlarının girovuna çevirə bilmərik. Gəlsinlər, açsınlar tarixi sənədləri, xəritələri, baxsınlar, sovet hökuməti Zəngəzuru nə vaxt Azərbaycandan qoparıb Ermənistana verib. Bu, yaxın tarixdir - 101 il bundan əvvəl. Yəni biz deyək ki, bu, olmayıb? Nəyə görə? Biz həqiqəti deyirik. Bizim dədə-baba torpağımızdır: bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Demişəm ki, biz oraya qayıtmalıyıq. Bunu hələ on il bundan əvvəl demişəm. Mənim çıxışlarım hamısı mətbuatda var. Demişəm ki, bizim dədə-baba torpağımızdır, biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur.



İndi bütün kommunikasiyalar açılandan sonra, əlbəttə, biz qayıdacağıq və Azərbaycan əhalisi öz dədə-baba torpaqlarına qayıdacaq. Üçtərəfli 10 noyabr Bəyanatında göstərilir: Bütün qaçqınlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız Göyçə mahalıdır, İrəvandır. Biz qayıdacağıq, əlbəttə.

Bu gün bir məsələyə də toxunmaq istəyirəm. Mən bunu artıq bir neçə dəfə səsləndirmişəm. Hesab edirəm ki, sizin qarşınızda buna da aydınlıq gətirməliyəm. Mən bir neçə dəfə demişəm ki, biz Ermənistanla sülh müqaviləsini imzalamağa hazırıq. Yəni bu işlərin başlanmasına hazırıq. Ancaq Ermənistan tərəfindən buna reaksiya yoxdur, rəsmi reaksiya yoxdur. Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu, çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib. Bu, növbəti böyük səhv ola bilər. Çünki bizim bu təklifimiz yeni real vəziyyətə əsaslanır. Biz hesab edirik ki, məsələ həll olunub, Ermənistan və Azərbaycan arasında sülh müqaviləsi olmalıdır. Bir-birinin ərazi bütövlüyünün tanınması olmalıdır, sərhədlərin tanınması olmalıdır, delimitasiya işlərinə start verilməlidir. Onu da bildirməliyəm ki, delimitasiya işləri ilə bağlı indi beynəlxalq təşkilatlar da müsbət reaksiya verirlər. Əgər Ermənistan bunu etmək istəmirsə, özü bilər, ancaq yaxşı fikirləşsinlər, sonra gec ola bilər. Necə ki, vaxtilə əgər öz xoşları ilə bizim torpaqlarımızdan çıxsaydılar, bu qədər rəzil duruma düşməzdilər. Bizim bu təklifimiz qalib ölkənin təklifidir, güclü tərəfin təklifidir, müzəffər xalqın təklifidir. Əgər buna Ermənistanda mənfi reaksiya varsa, bunu da özləri bilərlər. Amma yenə də deyirəm, yenə də peşman olacaqlar. Biz isə bundan sonra ancaq və ancaq irəli gedəcəyik. Biz bütün quruculuq işlərimizlə bağlı planları sistemli şəkildə həyata keçiririk və artıq quruculuq işlərinə start verilib. Biz, dediyim kimi, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. İnsanlar ora qayıdacaq, öz dədə-baba torpağında rahat yaşayacaqlar.

Mən sizi bir daha bu mərasimdə görməyimdən məmnun olduğumu ifadə edirəm. Bir daha sizi yeni mənzillərlə, fərdi evlərlə təbrik edirəm. Siz öz yaxınlarınızla, övladlarınızla haqlı olaraq fəxr edə bilərsiniz. Bütün Azərbaycan xalqı fəxr edir və bilin ki, onların əziz xatirəsi daim bizim qəlbimizdə yaşayacaqdır.

Sağ olun.

❖❖❖

**Şəhid ailəsinin üzvü Süsən KƏRİMOVA:**

- Mən 44 günlük Vətən müharibəsində Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş zabit Toğrul Kərimovun həyat yoldaşıyam. Mən də bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Siz Müzəffər Ali Baş Komandan olaraq Azərbaycan xalqının 30 illik həsrətinə son qoydunuz. Sizin rəhbərliyinizlə Azərbaycan Ordusu elə böyük bir Qələbəyə, elə böyük bir Zəfərə imza atdı ki, bundan sonra gələcək neçə-neçə nəsillərimiz bu Qələbədən böyük iftixar hissi ilə danışacaqlar. Mən düşünürəm ki, bizim şəhidlərimizin də ruhu şaddır. Çünki qisasları alınıb, uğrunda qan tökdükləri torpaqda indi Azərbaycan Milli Ordusu xidmət edir.

Cənab Prezident, Siz hər dəfə efirdə yeni-yeni qələbə xəbərlərini çatdıranda xalqımızın sevincinin həddi-hüdudu yox idi. Biz də sevinirdik. Bu gün isə qürurluyuq. Şəhid ailələri olaraq bu Qələbəyə öz şəhid payımızı verdiyimiz üçün qürur duyuruq və bu qürurumuz davam edəcək. Cənab Prezident, Azərbaycan xalqına bu böyük qələbəni yaşatdığınıza, şəhid ailələri olaraq bizi qayğı ilə əhatə etdiyinizə və bu gün bu bayramın nəticəsində bizə mənzil hədiyyə etdiyinizə görə Sizə təşəkkür edirəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun.

**Müharibə əlili Ədalət AYDINOV:**

- Cənab Prezident, Müzəffər Ali Baş Komandan. Allahımıza şükürlər olsun ki, bu gün Sizinlə birlikdəyik. Qəlbimizdən keçən minnətdarlığımızı Sizə bildirmək fürsəti əldə etmişəm. Ölkəmizin azadlığı, suverenliyi uğrunda gedən döyüşlərdə yaralanıb qazi olmuşam və bir qazi kimi, Sizə öz minnətdarlığımı bildirirəm. Çünki Siz Qalib Ordunun Qalib Komandanı kimi, şanlı qəhrəmanlıq tarixi yazmısınız. Alınmış torpaqlarımızın heç biri geri qaytarılmamışdı. Məhz Sizin qurub-yaratdığınız güclü ordunun sayəsində, 44 günlük müharibədə "dəmir yumruq" əməliyyatı nəticəsində bu "Zəfəri" bizə yaşatdınız. Bu gün Ulu Öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin ruhu şaddır. Çünki torpaqlarımız azaddır, Şuşamız azaddır. Bu gün şəhidlərimizin ruhu şaddır. Çünki uğrunda canlarını qurban verdikləri torpaqlar artıq azaddır.

Cənab Prezident, Sizin göstərişinizlə, respublikanın bütün yerlərində şəhid ailələrinə və qazilərinə çox böyük diqqət və qayğı var. Bu gün Siz bizə mənzil hədiyyə edirsiniz. Bu, diqqət və qayğınızın isbatıdır. Yaralı əsgər və zabitlərimizin öz sağlamlıqlarına qovuşması üçün Sizin nəzarətinizlə respublikada çox böyük işlər görülür və görülməkdədir. Bir çox reabilitasiya mərkəzləri yaradılıb və bunlardan geniş istifadə olunur. Müasir protezlərlə təmin olunmuşuq və buna görə də Sizə öz minnətdarlığımı bildirirəm.

Əziz Prezidentim, Sizə çox sağ olun deyirəm. Ümidvaram ki, bundan sonra da Sizin rəhbərliyinizlə çiçəklənən Azərbaycanımız daha böyük qələbələrə imza atacaqdır. Allahdan xalqımıza və onun müdrik rəhbərinə cansağlığı və xoşbəxtlik arzulayıram. Allah yar və yardımçınız olsun.

**Prezident İlham ƏLİYEV:**

- Çox sağ olun.

❖❖❖

**Vətən müharibəsi qazisi Qurbanəli İSLAMOV:**

- Cənab Prezidentimiz, Müzəffər Ali Baş Komandanımız, mən möhtəşəm Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin qazisiyəm. İlk növbədə, bildirmək istəyirəm ki, mən Ulu Öndərimiz Heydər Əliyevin yaratdığı, Azərbaycanda milli zabitlər ordusunun formalaşmasının təməli hesab olunan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yetirməsiyəm. Sizin komandanlığınız altında uğurlu hərbi əməliyyatlarda iştirak edərək babalarımızdan bizə miras qalmış doğma torpaqlarımızın yağı düşmənin işğalından azad edilməsinə, bu tarixi qələbəmizə töhfə verdiyim üçün sonsuz iftixar hissi keçirirəm. Sizin də dəfələrlə qeyd etdiyiniz kimi, bizim tarixi qələbəmiz qürur mənbəyimizdir. Azərbaycan tarixində belə parlaq qələbə olmayıb. Azərbaycan xalqı bundan sonra əsrlərboyu bu tarixi qələbəni öz qəlbində yaşadacaq, daim qürur hissi keçirəcək.

Cənab Ali Baş Komandanımız, xalqımızın bu müqəddəs, böyük arzusunu reallığa çevirən dövlət başçısı kimi, Sizin şəhid ailələrinə, qazilərə göstərdiyiniz yüksək diqqət və qayğının da şahidi oluruq. Bugünkü tədbir də bunu təsdiq edir. Mən müharibə əlili kimi, Sizin hədiyyəniz olaraq Ramana qəsəbəsində yeni mənzillə təmin olunmuşam. Həmçinin Sizin sərəncamlarınızla 5 medalla təltif edilmişəm, müasir tipli protezlə təmin olunmuşam. Bu gün isə mənə minik avtomobili verilib.

Cənab Ali Baş Komandan, Sizin sərəncamınıza əsasən icra hakimiyyətlərində Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbələri yaradılıb. Mən də Suraxanı Rayon İcra Hakimiyyətində həmin şöbədə işlə təmin olunmuşam. Şəhid ailələrinə, biz qazilərə göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə təşəkkürümüzü bildiririk. Azərbaycan Respublikasının daim müstəqil olması üçün Sizin əmrinizə hazırıq. Sağ olun əziz Prezident. Allah Sizi qorusun.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun. Təşəkkür edirəm.

❖❖❖

Sonra xatirə şəkli çəkdirildi.

Daha sonra dövlət başçısı qazilərlə söhbət etdi.

**Prezident İlham ƏLİYEV:**

- Səndə də protezdir?

**Qazi:**

- Bəli:

**Prezident İlham ƏLİYEV:**

- Harada yaralanmısan?

**Qazi:**

- Talış kəndi uğrunda gedən döyüşlərdə. Mühəndis istehkam bölüyündə xidmət edirdim.

**Prezident İlham ƏLİYEV:**

- İndi özünü necə hiss edirsən? Normal həyata qayıtdın?

**Qazi:**

- Bəli, normal həyata qayıtmışam.

**Digər qazi:**

- Füzuli uğrunda döyüşlərdə, Qaraxanbəylidə, Aran deyilən istiqamətdə yaralanmışam. Özüm də zabit olmuşam.

**Prezident İlham ƏLİYEV:**

- Füzulidə çox şiddətli döyüşlər gedirdi.

**Qazi:**

- Bəli. Sentyabrın 27-si günü.

**Prezident İlham ƏLİYEV:**

- Sağ ol.

**Qazilər:**

- Sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:**

- Sən harada vuruşmusan?

**Qazi:**

- Suqovuşanın azad olunmasında, Xüsusi Təyinatlı Qüvvələrin tərkibində.

**Prezident İlham ƏLİYEV:**

- Suqovuşanda.

**Qazi:**

- Mən sizə minnətdaram, cənab Prezident. Allah Sizə cansağlığı versin, Ulu Öndərimizin vəsiyyətinə əməl etdiniz.

**Prezident İlham ƏLİYEV:**

- Bəli, elədir.

**Qazi:**

- Mən həmişə demişəm, Şuşada biz ermənilərin əlini qaldırdığını görəndə, bilirdim ki, biz orada əsl Azərbaycan oğlunun əlini qaldıracağıq. Allah Sizi var eləsin.

**Prezident İlham ƏLİYEV:**

- Elə də oldu. Bizim igidlərimiz Şuşanı əliyalın götürdülər. Ermənilər görəndə ki, biz artıq Şuşaya yaxınlaşmışıq, panikaya düşdülər. Biz bilirdik ki, onlar nə fikirdədirlər. İnana bilmirdilər. Bir-birinə xəbər ötürürdülər, bir-birinin xəbərlərini yalanlayırdılar ki, ola bilməz. Necə keçdilər? İndi "Zəfər" yolunu biz çəkmişik. Demək olar ki, indi bir-iki aya asfalt da döşənəcək.

**Qazi:**

- İnşallah.

**Prezident İlham ƏLİYEV:**

- Mən adını da "Zəfər" yolu qoydum. Çünki əvvəllər ona xidməti yol demək istəyirdilər, çünki əsas böyük yol trasdan keçəcəkdi. Dedim, bu, "Zəfər" yoludur, çünki biz bu yoldan keçərək Şuşanı azad etdik. İndi oraya gedən, o yolla gedən hər kəs məəttəl qalır ki, necə oradan keçmək olar? Keçmək, özü də silahla, pulemyotla, bütün geyimlə keçmək. Özü də bir gün yox, iki gün yox, neçə gündür biz bilirik. Sonra o sıldırım qayalara dırmaşmaq... Orada ermənilərin tankları da, topları da var idi. Cəmi iki günə, iki gün yarıma Şuşanı əliyalın azad etdik. Budur Vətən sevgisi, qəhrəmanlıq budur. Fəxr edirik sizinlə.

**Qazi:**

- Biz Sizinlə fəxr edirik, o ruhu bizə bağışladığınıza görə.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun.

## R.S.Yaqubovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında səhiyyə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Rüfət Səttar oğlu Yaqubov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## K.F.Heydərovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında fövqəladə hallar orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Kəmaləddin Fəttah oğlu Heydərov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 iyul 2021-ci il*

## Vətən müharibəsi qəhrəmanlarına gəlir vergisi üzrə əlavə güzəştlər verilib

Prezident İlham Əliyevin 2021-ci il 12 iyul tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq olunub.

Dövlət Vergi Xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin qanunla Vergi Məcəlləsinin 102-ci maddəsinə edilmiş dəyişikliyə əsasən, bundan sonra Azərbaycan Respublikasının Vətən müharibəsi qəhrəmanlarının aylıq muzdlu fəaliyyətdən əldə etdikləri gəlirlərinə münasibətdə gəlir vergisi üzrə güzəşt müəyyən edilib.

Belə ki, qanun qüvvəyə mindikdən sonrakı dövrdə Azərbaycan Respublikasının Vətən müharibəsi qəhrəmanlarının aylıq muzdlu fəaliyyətdən əldə etdikləri gəlirlərə münasibətdə Vergi Məcəlləsinin 102.1.6-cı maddəsində nəzərdə tutulmuş vergi güzəşti ilə yanaşı, əlavə olaraq həmin şəxslərin hər hansı muzdlu işdən vergi tutulmalı olan aylıq gəliri 400 manat məbləğində azaldılacaq.

Hazırda Vətən müharibəsi qəhrəmanlarının bir qismi əmək fəaliyyətlərini davam etdirirlər. Bu baxımdan son dəyişiklik dövlət və neft sektorunda çalışan belə şəxslərin muzdlu işdən gəlirləri üzrə vergi yükünün azalmasına gətirib çıxaracaq.

Bununla yanaşı, neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektorunda çalışan və aylıq əməkhaqqı 8000 manatadək olan şəxslərin isə muzdlu işdən aylıq gəlirləri 2019-cu il yanvarın 1-dən 7 il müddətinə gəlir vergisindən, ümumiyyətlə, azaddırlar. Qanunvericilikdə təsbit edilmiş və Vətən müharibəsi qəhrəmanlarına müddətsiz olaraq verilən bu güzəşt Vergi Məcəlləsində muzdlu fəaliyyətdən əldə edilən gəlirlərə münasibətdə tətbiq olunan ən böyük vergi güzəştlərindən biridir.

Bu gün ölkəmizdə aparılan sosial siyasətin başlıca istiqamətlərindən biri şəhid ailələri və qazilərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı həyata keçirilən tədbirlərdir. Vergi qanunvericiliyində edilmiş son dəyişiklik torpaqlarımızın işğaldan azad olunması uğrunda igidlik göstərən və tarixi missiyanın öhdəsindən uğurla gələn mübariz qəhrəmanlarımıza dəstək prosesinin bir hissəsidir.

# Ölkəmizdə etibarlı sosial müdafiə sistemi yaradılıb









Əvvəli 1-ci səh.

Fəaliyyətində sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsiplərinin qorunmasını rəhbər tutan DOST mərkəzləri qısa zamanda vətəndaşlarımızın etibarını qazanıb. Bu gün bu mərkəzlərin sırasına - Abşeron DOST Mərkəzi də əlavə olunur. Bu, sayca beşinci mərkəzdir.

Sosial xidmətlərin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması Azərbaycanın yeni brendinin spesifik cəhətləri sırasındadır. Yeni Abşeron DOST Mərkəzi də özündə bu xüsusiyyətləri tam əks etdirir. Ümumilikdə, 445 mindən çox şəxsin DOST mərkəzlərinə müraciəti nəticə etibarilə 97,4 faizlik göstərici ilə vətəndaş məmnunluğuna səbəb olub.

Beləliklə, birinci xanım Mehriban Əliyevanın təşəbbüsü ilə irəli sürülən və Prezident İlham Əliyevin 2018-ci il 9 avqust tarixli Fərmanı ilə yaradılan DOST konsepsiyası çərçivəsində istifadəyə verilən növbəti mərkəzdə vətəndaşlarımız məşğulluq, pensiya, sosial müavinət və təqaüdlər, sosial xidmətlər, əlillik, tibbi-sosial ekspertiza və reabilitasiya, sosial sığorta, əmək münasibətləri, həmçinin sosial-hüquqi, sosial-məişət xidmətləri, sosial-pedaqoji xidmət olmaqla, ümumilikdə 152 adda xidmətdən rahatlıqla yararlana bilərlər.

Qeyd edək ki, maraqlı memarlıq layihəsi olan yeni DOST mərkəzində gün ərzində təxminən 400 vətəndaşın qəbul edilməsi üçün hər cür şərait yaradılıb. Bu prosesi 120 nəfərə yaxın işçi heyəti və 50 könüllü həyata keçirəcək.

DOST mərkəzlərinin daha bir əhəmiyyəti həssas təbəqədən olan vətəndaşlara dövlət qayğısını özündə əks etdirməsi ilə bağlıdır. Yaxın iki ay ərzində DOST mərkəzində Prezident İlham Əliyevin bu ilin iyununda imzaladığı fərmanla yaradılan Vahid Əlaqələndirmə Mərkəzi fəaliyyətə başlayacaq. Burada şəhid ailələrinə və qazilərə yeddi qurum üzrə 26 xidmət göstəriləcək, onların əlavə xərclərə və vaxt itkisinə yol vermədən bu xidmətlərə əlçatanlığı təmin ediləcək.

# Tarixboyu Cənubi Qafqazda həm Bakı, həm də Tbilisi həmişə öz gözəlliyi ilə fərqlənib

Əvvəli 1-ci səh.

Mən bunu alqışlayıram, çox düzgün addımdır və düşünürəm ki, təbii addımdır. Çünki ölkələrimiz də qardaş ölkələrdir, xalqlarımız da qardaş xalqlardır və təbii ki, paytaxtlar da qardaş paytaxtlar olmalıdır. Eyni zamanda həm Bakı, həm də Tbilisi tarixi şəhərlərdir və hər iki şəhərdə bir çox tarixi memarlıq abidələri mövcuddur. Hər iki şəhərdə köhnə kvartal var - İçərişəhər və köhnə Tbilisi. Siz də yaxşı bilirsiniz, heç də bütün ölkələrdə belə şəhərlər yoxdur ki, köhnə kvartallar olsun və o kvartalların siması qorunsun. Tarixboyu Cənubi Qafqazda həm Bakı, həm də Tbilisi həmişə öz gözəlliyi ilə fərqlənirdi və həm siyasi, həm iqtisadi, həm də mədəni mərkəz rolunu oynayırdılar. Əlbəttə ki, dünən imzalanmış sazişdən sonra iki şəhər arasındakı təmaslar daha da sıx olacaq və olmalıdır. Yəqin ki, birgə fəaliyyət planı da hazırlanacaq. Mən istəyirəm ki, çoxlu qarşılıqlı səfərlər olsun, ictimaiyyət nümayəndələri, media nümayəndələri, tanınmış şəxslər müntəzəm olaraq qarşılıqlı səfərlər etsinlər. Həm Tbilisi, həm də Bakı dünyanın heç bir başqa şəhərinə oxşamır.

Mən bilirəm ki, siz Tbilisinin meri kimi çox böyük səylər göstərirsiniz və şəhərin tarixi simasını qorumaq istiqamətində çox böyük addımlar atmısınız. Tbilisi şəhərinin tarixi hissəsi hesab edirəm ki, dünya üçün çox əhəmiyyətlidir. Çünki bu, unikal memarlıq əsəridir. Əlbəttə, hər bir böyük şəhər kimi, Tbilisi də inkişaf etməlidir və bilirəm ki, sizin rəhbərliyiniz altında bu inkişaf da çox düşünülmüş şəkildə aparılır. Biz sizin fəaliyyətinizi çox yüksək qiymətləndiririk. Siz Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafında da böyük səylər göstərirsiniz, Azərbaycanın dostusunuz. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Tbilisi şəhərinin meri **Kaxa KALADZE** dedi:

- Cənab Prezident, ilk növbədə, məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bakı şəhərinə gəlmək mənim üçün həmişə xoşdur. Bakı, buranın mədəniyyəti, ənənələri, insanları məni həmişə valeh edib. Şəhər gündən-günə gözəlləşir, abadlaşır, biz bunu alqışlayırıq. Bugünkü səfər üçün bir daha təşəkkür edirəm.

Gürcüstanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyiniz üçün Sizə təşəkkür edirəm. Gürcüstan da öz tərəfindən hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. Dünən qardaşlıq haqqında mühüm sənəd imzalandı. Lakin biz hər zaman qardaş olmuşuq, hər zaman bir-birimizə dost və dayaq olmuşuq. Şəxsən mənim üçün Azərbaycan çox yaxın ölkədir, burada çoxlu dostlarım var. Mən energetika naziri olanda da buraya gəlirdim, çoxlu dostlarım var və çox şadam ki, yenə burada, Bakıdayam.

# Müdafiə naziri Türkiyənin ölkəmizdə yeni təyin olunmuş səfiri ilə görüşüb

İyulun 14-də Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Cahit Bağçı ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə Türkiyə arasında müttəfiqliyin möhkəmləndirilməsi və əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb. Ali Baş Komandanın tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində aparılan islahatların davam etdirildiyini qeyd edən müdafiə naziri hər iki ölkənin ordularının müxtəlif qoşun növlərinin, o cümlədən xüsusi təyinatlı qüvvələrin cəlb olunması ilə keçiriləcək birgə hərbi təlimlərin sayının artırılmasının nəzərdə tutulduğunu diqqətə çatdırıb.

Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi təhsil və hərbi tibb sahələrində əməkdaşlığın səviyyəsini yüksək qiymətləndirən general-polkovnik Z.Həsənov hərbi kadrların hazırlanması və azad edilmiş ərazilərin minalardan və partlamamış döyüş sursatlarından təmizlənməsi işlərində Türkiyənin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnunluğunu ifadə edən C.Bağçı Azərbaycan-Türkiyə əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Tovuz döyüşlərinin ildönümü ilə əlaqədar Azərbaycan xalqına başsağlığı verən C.Bağçı Vətən müharibəsində qazanılan qələbə münasibətilə xalqımızı təbrik edib, şəhid olan hərbi qulluqçulara və mülki şəxslərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyib. Türkiyəli səfir ölkəsinin hər zaman Azərbaycanın yanında olduğunu qeyd edərək ordumuza bundan sonra da hərtərəfli dəstəyin göstəriləcəyini bildirib. Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu, bu əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyi və ölkələrimiz üçün səmərəli olduğu vurğulanıb, qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

# Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib

Müdafiə Nazirliyi Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların yenilənmiş siyahısını dərc edib.

AZƏRTAC nazirliyin saytına istinadla xəbər verir ki, siyahıda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçularından iyulun 14-dək dəfn edilən 2907 nəfərin, eləcə də itkin düşmüş hesab olunan 7 nəfərin fotoşəkilləri, adları, soyadları, hərbi rütbələri və doğum tarixləri haqqında məlumat təqdim olunur. Qeyd edək ki, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

Şəhidlərimizin ruhu qarşısında baş əyirik!

*Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların siyahısı*

https://mod.gov.az//images/pdf/da-4654f57eea37fbbaf146cb295976d6.pdf

# Baş nazir Əli Əsədov Tbilisi şəhərinin meri ilə görüşüb



*İyulun 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladze ilə görüşüb.*

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Baş nazir Ə.Əsədov bu səfərin Azərbaycan-Gürcüstan, Bakı-Tbilisi əlaqələrinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Söhbət zamanı iqtisadi və humanitar əlaqələrə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanın üçüncü Könüllü Milli Hesabatının təqdimatı olub



Birləşmiş Millətlər Təşkilatının (BMT) İqtisadi və Sosial Şurasının himayəsi ilə Yüksək Səviyyəli Siyasi Forum keçirilib. İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, forum çərçivəsində Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) icrası istiqamətində görülmüş işlər barədə Azərbaycanın üçüncü Könüllü Milli Hesabatının təqdimatı olub. Təqdimatı Azərbaycan hökuməti adından Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov edib.

Qeyd edək ki, Azərbaycan bu il dünyada 10 ölkədən biri olmaqla, regionda və MDB məkanında ilk dəfə Üçüncü Könüllü Milli Hesabat təqdim edir. BMT-nin müəyyən etdiyi tematik mövzuya uyğun olaraq hazırlanmış hesabatda siyasət və maarifləndirmə işləri, 2030-cu il gündəliyinin icrasına pandemiyanın təsirləri və bu təsirlərin minimallaşdırılması tədbirləri, DİM-lər üzrə əldə olunan tərəqqi və sair əksini tapıb.

Hesabatın təqdimatı zamanı Baş nazirin müavini Əli Əhmədov ötən dövr ərzində ölkəmizdə DİM-lərin icrası sahəsində görülmüş işlər, səhiyyə sisteminin gücləndirilməsi, iqtisadi fəallığın bərpası, qeyri-neft sektorunun dinamik artımının təmin edilməsi, milli innovasiya sisteminin inkişafı istiqamətində atılmış addımlar barədə məlumat verib. Qeyd edilib ki, dayanıqlı inkişaf üzrə məlumatların toplanması və təhlili davamlı olaraq təkmilləşdiriləcək, DİM Maliyyələşdirmə Mexanizminin yaradılması kimi məsələlər diqqətdə saxlanılacaq.

Tədbirdə Dayanıqlı İnkişaf Platformasının həyata keçirilməsində sülhün və sabitliyin rolu vurğulanıb. 2020-ci ilin noyabrında Ermənistanla Azərbaycan arasında münaqişənin sona çatmasının regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşmasına, iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmağa, Azərbaycanın və bütövlükdə, regionun inkişafına böyük təkan verəcəyi diqqətə çatdırılıb. Eyni zamanda növbəti mərhələdə Azərbaycanın inkişaf strategiyasının əsas istiqamətini ölkəmizin işğaldan azad olunmuş və dağıntıya məruz qalmış bölgələrinin yenidən qurulmasının, məcburi köçkünlərin öz yaşayış yerlərinə qayıdışının təşkil edəcəyi bildirilib.

# Azərbaycan Qoşulmama Hərəkatına əlavə daha bir il sədrlik edəcək

İyulun 13-14-də Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin "Qoşulmama Hərəkatı qlobal çağırışlara qarşı mübarizədə çoxtərəfli səylərin mərkəzində" mövzusunda onlayn formatda aralıq konfransı keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, konfransın keçirilməsində əsas məqsəd Hərəkatın Bakı Zirvə görüşündən ötən müddət ərzində hərəkat üzvlərinin birgə səyləri ilə qlobal çağırışlara qarşı mübarizədə əldə olunmuş irəliləyişləri və bu istiqamətdə atılacaq növbəti addımları müzakirə etməkdən ibarət olub. 33 ölkənin xarici işlər naziri səviyyəsində təmsil olunduğu konfransda Qoşulmama Hərəkatına üzv və müşahidəçi ölkələrin yüksəkvəzifəli nümayəndələri iştirak ediblər.

Konfransın əvvəlində Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin tədbir iştirakçılarına videomüraciəti səsləndirilib. Videomüraciətdə dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində həyata keçirilmiş uğurlu təşəbbüslər barədə məlumat verərək, Azərbaycan Respublikasının hərəkata sədrliyi çərçivəsində hərəkatın beynəlxalq nüfuzunun və təsirinin gücləndirilməsi istiqamətində səylərin davam etdiriləcəyini bildirib. Dövlətimizin başçısı Azərbaycan ərazilərinin Ermənistan işğalından azad edilməsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi və onun nəticələri barədə Qoşulmama Hərəkatına üzv dövlətlərə məlumat verərək Azərbaycanın əldə etdiyi qələbənin beynəlxalq hüquq, ədalət və Qoşulmama Hərəkatının fundamental dəyərlərinin zəfəri olduğunu vurğulayıb. Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğal dövründə Azərbaycan ərazilərində törədilmiş vəhşiliklər barədə məlumat verən dövlətimizin başçısı işğal illərində, eləcə də Vətən müharibəsi dövründə ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına nümayiş etdirdikləri davamlı dəstəyə görə təşkilatın üzv dövlətlərinə minnətdarlıq ifadə edib.

Dövlət başçısının çıxışından sonra Azərbaycan Respublikasının QH-yə indiyə qədər sədrlik etdiyi 21 ay ərzində görülmüş işlərə dair Azərbaycan sədrliyinin hesabatı səsləndirildi.

Sonra isə nazirlər konfransının Siyasi Bəyannaməsi müzakirəyə çıxarılaraq qəbul edilib. Bəyannamədə Qoşulmama Hərəkatının gündəliyində duran aktual məsələlərlə bağlı hərəkata üzv dövlətlərin mövqeyinin ifadə edilməsi ilə yanaşı, ölkəmiz üçün xüsusi əhəmiyyət daşıyan bir sıra bəndlər yer alır. Belə ki, təşkilatın üzv dövlətləri sözügedən Siyasi Bəyannamə vasitəsilə Azərbaycan Prezidenti İlham Əliyevin COVID-19 pandemiyasına qarşı mübarizə üzrə BMT Baş Assambleyasının Xüsusi Sessiyasının çağırılması təşəbbüsünü yüksək qiymətləndirdiklərini bildirir və qlobal miqyasda belə bir mürəkkəb dövrdə Qoşulmama Hərəkatına uğurlu sədrliyinə, eləcə də hərəkata nəzərdə tutulandan 1 il artıq - 2023-cü ilin sonuna qədər sədrlik etməyə hazır olduğuna görə Azərbaycana minnətdarlıq ifadə edirlər.

Bundan əlavə, Bəyannamədə təşkilatın sədri qismində Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə həyata keçirilmiş bir sıra uğurlu təşəbbüslər, o cümlədən 2020-ci il mayın 4-də keçirilmiş Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü formatında iclası, dekabrın 3-4-də keçirilən BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizə üzrə xüsusi sessiyası, eləcə də BMT-nin İnsan Hüquqları Şurası tərəfindən pandemiyaya qarşı peyvəndlərin ədalətli və bərabər bölüşdürülməsinə dair 2021-ci il 22 mart tarixli qətnamə alqışlanır.

Təşkilatın tarixində ilk dəfə olaraq Azərbaycan sədrliyinin təşəbbüsü ilə təşkil olunmuş Qoşulmama Hərəkatı Modeli Beynəlxalq Simulyasiya Təlimi də Bəyannamədə yüksək qiymətləndirilir. Sənəddə həmçinin Azərbaycan tərəfinin təklifinə uyğun olaraq, təşkilata üzv dövlətlərdə postmünaqişə dövrü bərpa, yenidənqurma və reinteqrasiya fəaliyyətinin əhəmiyyəti qeyd edilərək, bu xüsusda mina və digər partlamamış hərbi sursatlarla çirklənməyə ən çox məruz qalmış üzv dövlətlərdə səmərəli minatəmizləmə fəaliyyətinin və bu prosesə beynəlxalq dəstəyin vacibliyi vurğulanır. Qəbul edilən Siyasi Bəyannamə ilə həmçinin Rusiya Federasiyasının müraciətinə uyğun olaraq bu ölkəyə Qoşulmama Hərəkatı yanında müşahidəçi statusu verilir və təşkilatın növbəti Zirvə görüşünün 2023-cü ilin sonunda Uqandada keçiriləcəyinə dair bu ölkənin hökumətinin təklifi alqışlanır.

Onu da qeyd edək ki, Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycan hərəkatın növbəti sədri olacaq Uqandanın sədrliyi 1 il gec təhvil ala biləcəyini ifadə etməsindən sonra üzv dövlətlərin təşkilata əlavə 1 il sədrlik etmək müraciətini müsbət cavablandırıb.

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1132, 1333, 1336, № 12 (I kitab), maddə 1432, 1440; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli, 2 aprel tarixli 287-VIQD nömrəli qanunları) 440-cı maddəsi aşağıdakı redaksiyada verilsin:

**"Maddə 440. Mərkəzləşdirilmiş kredit reyestrinə və kredit bürosuna məlumatların təqdim edilməsi qaydalarının pozulması**

440.1. Bank və ya bank olmayan kredit təşkilatı (kredit ittifaqı istisna olmaqla) tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş məlumatların həmin qanunlarda müəyyən olunmuş qaydada təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə -

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər on min manatdan on iki min manatadək məbləğdə cərimə edilir.

440.2. Kredit ittifaqı tərəfindən mərkəzləşdirilmiş kredit reyestrinə və (və ya) kredit bürosuna "Kredit ittifaqları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş məlumatların həmin qanunlarda müəyyən olunmuş qaydada təqdim edilməməsinə, yaxud tam, düzgün və ya vaxtında təqdim edilməməsinə görə -

vəzifəli şəxslər yüz əlli manatdan iki yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min iki yüz manatadək məbləğdə cərimə edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2021-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 8 iyun tarixli 344-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 15 fevral tarixli 795 nömrəli, "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" 2017-ci il 23 fevral tarixli 1256 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 8 iyun tarixli 344-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 may tarixli 1337 nömrəli, 12 iyun tarixli 1350 nömrəli və 1360 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.43-cü bənddən "440," rəqəmləri çıxarılsın;

1.2. 5.47-ci bənddə "və 434-cü" sözləri ", 434 və 440-cı" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1351 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 14.2-ci bənddən "440," rəqəmləri çıxarılsın;

2.2. 15.0-cı bəndə "və 457-ci" sözlərindən əvvəl ", 440" rəqəmləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 8 iyun tarixli 344-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1669; 2019, № 1, maddə 35, № 3, maddə 381, № 12, maddə 1892; 2020, № 1, maddə 1, № 5, maddə 521, № 7, maddə 831, № 9, maddə 1136; 2021, № 2, maddə 113) 16.2-ci maddəsindən "və uçota aldığı gündən 1 (bir) ay ərzində bu barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verirlər" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 354-VIQD nömrəli Qanununun tətbiqi və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 354-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1196-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 24 avqust tarixli 233 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 8, maddə 1683; 2019, № 7, maddə 1217; 2020, № 5, maddə 561, № 9, maddə 1142) 2.1-ci və 2.5-ci bəndlərindən "16.2-ci," sözləri çıxarılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 22 iyun tarixli 354-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 992; 2017, № 1, maddə 12) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü maddədə "verilən" sözü "təqdim edilən" sözləri ilə əvəz edilsin.

2. 5.2-ci maddənin ikinci cümləsində "forması və verilmə" sözləri "məzmunu və təqdim edilmə" sözləri ilə və üçüncü cümləsində "verilməsi" sözü "təqdim edilməsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyun 2021-ci il*

# "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 7, maddə 485; 2001, № 12, maddə 736; 2010, № 10, maddə 839; 2016, № 3, maddə 408; 2019, № 1, maddə 32, № 6, maddə 993, № 8, maddə 1366) aşağıdakı məzmunda 15-1-ci maddə əlavə edilsin:

**"Maddə 15-1. Mərkəzləşdirilmiş kredit reyestri və kredit büroları ilə kredit ittifaqları arasında məlumat mübadiləsi**

15-1.1. Kredit ittifaqı hər bir borcalan haqqında məlumatı ən azı bir kredit bürosuna və Azərbaycan Respublikasının Mərkəzi Bankının müəyyən etdiyi qaydada Mərkəzi Bankda yaradılan mərkəzləşdirilmiş kredit reyestrinə təqdim etməlidir.

15-1.2. Kredit ittifaqı tərəfindən borcalan barədə məlumatın kredit bürosuna təqdim edilməsi və kredit bürosundan alınması qaydası "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 iyun 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli, "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" 2007-ci il 31 iyul tarixli 609 nömrəli, "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1581-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2019-cu il 11 iyun tarixli 732 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 341-IIIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" 2007-ci il 14 dekabr tarixli 680 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 26 oktyabr tarixli 3 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 611; 2003, № 10, maddə 546; 2007, № 2, maddə 87, № 6, maddə 601; 2012, № 7, maddə 681; 2016, № 1, maddə 51; 2019, № 1, maddə 67; 2020, № 7, maddə 869) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2.1-ci bəndə "Qanununun" sözündən sonra "5-ci maddəsinin birinci hissəsində, 6-cı maddəsinin üçüncü hissəsində," sözləri əlavə edilsin;

1.2. 2.2-ci və 2.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.2. həmin Qanunun 5-ci maddəsinin birinci hissəsində "orqan (qurum)" dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur.";

"2.4. həmin Qanunun 6-cı maddəsinin 3-cü hissəsində "orqan (qurum)" dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;";

1.3. 2.10-cu bənddən ", Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi" sözləri çıxarılsın.

2. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 iyul tarixli 609 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 716) 2-ci hissəsi ləğv edilsin.

3. "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", "Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1581-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 iyun tarixli 732 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019,№ 6, maddə 1024) 3.3-cü və 3.4-cü bəndləri ləğv edilsin.

4. "İstehsalat və məişət tullantıları haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 2007-ci il 22 may tarixli 341-IIIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 14 dekabr tarixli 680 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1230) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

"Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin edən bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 351 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 190; 2001, № 10, maddə 640; 2003, № 9, maddə 512; 2008, № 9, maddə 798; 2009, № 5, maddə 319, № 7, maddə 579; 2014, № 5, maddə 477; 2016, № 8, maddə 1384) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Sərəncamla təsdiq edilmiş "Torpaq sahiblərinin onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün yeraltı içməli sulardan istifadə Qaydaları"nın 1.2-ci bəndindən "xüsusi razılıq (lisenziya) və ya" sözləri çıxarılsın.

2. Həmin Sərəncamla təsdiq edilmiş "İstifadəyə verilən yer təki sahələrinin və onlarla əlaqədar işlərin dövlət qeydiyyatı və dövlət uçotunun aparılması Qaydaları" üzrə:

2.1. 2.1-ci bəndin beşinci abzasından "xüsusi razılığın (lisenziyanın) və ya" sözləri çıxarılsın;

2.2. 3.5-ci bəndin birinci abzasından "xüsusi razılıq (lisenziya)" sözləri çıxarılsın;

2.3. 3.8-ci bəndin üçüncü cümləsində "Xüsusi razılığın (lisenziyanın) və ya icazənin qeydiyyat nömrəsi xüsusi razılığın (lisenziyanın)" sözləri "İcazənin qeydiyyat nömrəsi onun" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# Azərbaycan Respublikası Prezidentinin "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" 1999-cu il 13 fevral tarixli 102 nömrəli, "Yerin təkindən, dəniz dibi sahələrindən və akvatoriyasından istifadəyə görə ödənişlərin alınması Qaydalarının təsdiq edilməsi haqqında" 2003-cü il 23 oktyabr tarixli 974 nömrəli, "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və işçilərinin say həddinin təsdiq edilməsi barədə" 2006-cı il 19 aprel tarixli 394 nömrəli və "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2007-ci il 28 dekabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Yerin təki haqqında", "İstehsalat və məişət tullantıları haqqında", "Qaz təchizatı haqqında", "Energetika haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Yerin təki haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 13 fevral tarixli 102 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 85; 2003, № 10, maddələr 546, 582; 2007, № 8, maddə 769; 2008, № 3, maddə 174, № 8, maddə 719, № 9, maddə 798; 2014, № 2, maddə 112; 2020, № 4, maddə 416) 2-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 974 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 579; 2008, № 8, maddə 719, № 9, maddə 798) ilə təsdiq edilmiş "Yerin təkindən, dəniz dibi sahələrindən və akvatoriyasından istifadəyə görə ödənişlərin alınması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci hissənin ikinci cümləsi çıxarılsın;

2.2. 13-cü hissədən "olmaqla, ayrıca xüsusi razılıqla (lisenziya) və ya icazə ilə" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326; 2008, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009, № 9, maddə 687, № 12, maddə 983; 2010, № 2, maddələr 83, 85; 2011, № 2, maddələr 85, 93; 2012, № 10, maddə 955; 2014, № 5, maddə 469, № 10, maddə 1181, № 12, maddə 1575; 2016, № 11, maddə 1796; 2017, № 1, maddə 62, № 3, maddə 357, № 9, maddə 1648, № 11, maddə 2017, № 12 (I kitab), maddə 2300; 2018, № 4, maddə 676, № 7 (I kitab), maddə 1452; 2019, № 5, maddə 816) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"nin 8.26-cı bəndindən "və müvafiq icra hakimiyyəti orqanları ilə razılaşdırılmaqla" sözləri və "xüsusi" sözü çıxarılsın.

4. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 dekabr tarixli 695 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1245; 2008, № 10, maddə 898; 2009, № 4, maddə 219, № 12, maddə 983; 2011, № 2, maddə 85; 2016, № 3, maddə 458; 2017, № 3, maddə 360; 2018, № 11, maddə 2278) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 8.33-cü bənddən "aidiyyəti dövlət orqanları ilə razılaşdırılmaqla" sözləri çıxarılsın;

4.2. 9.14-cü bənddən "məhdudlaşdırmaq," sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Antiinhisar fəaliyyəti haqqında”, “Enerji resurslarından istifadə haqqında”, “Yerin təki haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 20-ci bəndini rəhbər tutaraq, “Yerin təki haqqında”, “İstehsalat və məişət tullantıları haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 22 oktyabr tarixli 1683-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Torpaq Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 478; 2001, № 12, maddə 736; 2002, № 5, maddələr 237, 241; 2003, № 1, maddə 11, № 6, maddə 256, № 8, maddə 423; 2004, № 2, maddə 59, № 6, maddə 415, № 10, maddə 761; 2006, № 2, maddə 67, № 6, maddə 478, № 8, maddə 657, № 11, maddə 932; 2007, № 1, maddə 3, № 8, maddə 745; 2008, № 5, maddə 348, № 6, maddə 460, № 8, maddə 707, № 12, maddə 1048; 2009, № 2, maddə 36; 2012, № 6, maddə 497; 2013, № 6, maddə 621; 2015, № 3, maddə 244, № 4, maddə 358, № 10, maddə 1094; 2016, № 1, maddələr 24, 27, № 4, maddə 639; 2017, № 1, maddə 24, № 7, maddə 1301, № 12 (I kitab), maddə 2271; 2018, № 5, maddə 890, № 6, maddələr 1184, 1185; 2019, № 1, maddə 34; № 3, maddə 392, № 6, maddə 987; 2020, № 5, maddələr 512, 522, № 7, maddə 832, № 12 (I kitab), maddə 1423) 63-cü maddəsinin 2-ci hissəsində “icazəni müvafiq icra hakimiyyəti orqanı və ya bələdiyyə həmin işlərin aparılması üçün layihə sənədlərində nəzərdə tutulan müddətə verirlər” sözləri “icazə “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq verilir” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 23, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381, 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; 2020, № 3, maddə 222, № 5, maddələr 505, 515, 519, № 6, maddələr 670, 672, 681, № 7, maddələr 838, 841, 846, 854, № 8, maddələr 1008, 1011, № 9, maddə 1138, № 11, maddələr 1332, 1333, 1336, № 12 (I kitab), maddələr 1432, 1440; Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 270-VIQD nömrəli və 2 aprel tarixli 287-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 228-ci maddə üzrə:

2.1.1. adında “Lisenziya və ya icazə olmadan” sözləri “İcazə olmadan və ya icazə şərtlərini pozmaqla” sözləri ilə əvəz edilsin;

2.1.2. dispozisiyasında “Lisenziya və ya icazə olmadan və ya həmin sənəddə nəzərdə tutulmuş şərtləri” sözləri “İcazə olmadan və ya icazə şərtlərini” sözləri ilə əvəz edilsin;

2.2. 243.0.9-cu maddədən “lisenziya və ya” sözləri çıxarılsın.

**Maddə 3.** “Antiinhisar fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 9, maddə 224; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 1, maddə 17; 2001, № 6, maddə 360, № 11, maddələr 676, 683, № 12, maddə 736; 2003, № 1, maddə 5; 2004, № 2, maddə 57, № 4, maddə 202; 2006, № 12, maddə 1005; 2008, № 2, maddə 49, № 5, maddə 348, № 6, maddə 462; 2010, № 11, maddə 939; 2015, № 4, maddə 369; 2016, № 4, maddə 637; 2019, № 1, maddə 25) 12-1-ci maddəsinin birinci hissəsinin üçüncü abzasında “xüsusi razılıq” sözləri “icazə” sözü ilə əvəz edilsin.

**Maddə 4.** “Enerji resurslarından istifadə haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 120; 2001, № 12, maddə 736; 2004, № 4, maddə 202; 2017, № 6, maddə 1016) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Enerji resurslarının istifadəsi ilə əlaqədar “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun əlavəsində nəzərdə tutulmuş fəaliyyət növləri üzrə ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanmalı və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilməlidir.”;

4.2. 6-cı maddənin birinci hissəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu proqramların “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq strateji ekoloji qiymətləndirilməsi aparılır.”.

**Maddə 5.** “Yerin təki haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 224; 1999, № 8, maddə 476; 2001, № 11, maddələr 673, 696, № 12, maddə 736; 2004, № 7, maddə 505; 2007, № 8, maddə 745, № 10, maddə 938; 2008, № 2, maddə 47; 2016, № 1, maddə 22; 2018, № 5, maddə 849; 2019, № 1, maddə 20, № 11, maddə 1689; 2020, № 7, maddə 842) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 19-cu maddənin ikinci hissəsinin birinci və ikinci cümlələrində “yer təki sahəsinin” sözləri “faydalı qazıntıların çıxarılması üzrə müəssisələrin və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların” sözləri ilə əvəz edilsin;

5.2. 22-ci maddənin üçüncü hissəsində “Dağmədən nəzarəti orqanı” sözləri “Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin;

5.3. 24-cü maddənin birinci hissəsində “İcazənin qüvvədə olma müddəti başa çatdıqda, yaxud yerin təkindən istifadə hüququna vaxtından əvvəl xitam verildikdə” sözləri “Yerin təkindən istifadə hüququ dayandırıldıqda və ya ləğv edildikdə” sözləri ilə əvəz edilsin;

5.4. 25-ci maddənin ikinci hissəsində və 46-cı maddənin birinci hissəsinin on üçüncü abzasında “icazə verən orqana” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)” sözləri ilə əvəz edilsin;

5.5. 47-ci maddədə “qanunvericiliklə müəyyən edilmiş qaydada müvafiq icra hakimiyyəti orqanları və məhkəmələr tərəfindən” sözləri “inzibati qaydada və məhkəmə qaydasında” sözləri ilə əvəz edilsin.

**Maddə 6.** “Qaz təchizatı haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 563; 2004, № 7, maddə 505; 2007, № 5, maddə 442; 2009, № 10, maddə 768; 2010, № 5, maddə 374; 2011, № 4, maddə 262, № 12, maddə 1091; 2015, № 11, maddə 1251; 2016, № 12, maddə 1991; 2017, № 6, maddə 1018; 2018, № 3, maddə 380, № 4, maddə 634; 2019, № 11, maddə 1689; Azərbaycan Respublikasının 2021-ci il 2 aprel tarixli 288-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 8-ci maddə üzrə:

6.1.1. 4-cü hissənin ikinci cümləsi çıxarılsın;

6.1.2. 5-ci hissənin ikinci cümləsində “attestatını dayandıra bilər” sözləri “attestatının dayandırılması barədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) qarşısında məsələ qaldırır” sözləri ilə əvəz edilsin;

6.2. 19-cu maddənin 2-ci hissəsinin ikinci cümləsində “müvafiq qaz qurğusuna xüsusi” sözləri “sənaye qaz qurğusunun istismarına” sözləri ilə əvəz edilsin.

**Maddə 7.** “Energetika haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 2, maddə 53; 2006, № 8, maddə 657; 2018, № 3, maddə 378; 2019, № 11, maddə 1689) 9-cu maddəsinin 3-cü hissəsinin birinci abzasından “aşağıdakı sənədlərlə yanaşı,” sözləri çıxarılsın.

**Maddə 8.** “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 632, № 12, maddələr 2017, 2036; 2017, № 4, maddə 520, № 5, maddə 743; 2018, № 6, maddə 1187; 2019, № 1, maddə 28, № 5, maddə 797, № 6, maddə 986, № 8, maddə 1360, № 11, maddə 1692, № 12, maddə 1903; 2020, № 6, maddə 662) 1 nömrəli əlavə - “Lisenziya tələb olunan fəaliyyət növlərinin (dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla) siyahısı”nın 11-ci maddəsi ləğv edilsin.

**Maddə 9.** “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 633; 2019, № 1, maddə 30, № 6, maddə 990, № 11, maddə 1689) 3.6-cı, 3.7-ci və 3.8-ci maddələrində “3.4-cü” sözləri “3.5-ci” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 may 2021-ci il*

# “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Antiinhisar fəaliyyəti haqqında”, “Enerji resurslarından istifadə haqqında”, “Yerin təki haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 337-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 27 aprel tarixli 701 nömrəli, “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli, “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” 2000-ci il 6 mart tarixli 291 nömrəli, “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziya və icazələrin siyahısının təsdiq edilməsi haqqında” 2020-ci il 1 iyul tarixli 1079 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Antiinhisar fəaliyyəti haqqında”, “Enerji resurslarından istifadə haqqında”, “Yerin təki haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 337-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. “Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun 22-ci maddəsinin üçüncü hissəsində, 25-ci maddəsinin ikinci hissəsində və 46-cı maddəsinin birinci hissəsinin on üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 22-ci maddəsinin üçüncü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Qanunun 25-ci maddəsinin ikinci hissəsində və 46-cı maddəsinin birinci hissəsinin on üçüncü abzasında “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

1.4. “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.5. həmin Qanunun 8-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur.

2. “Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 27 aprel tarixli 701 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 247; 2003, № 10, maddə 546; 2007, № 6, maddə 601; 2008, № 8, maddə 719, № 9, maddə 798; 2014, № 10, maddə 1212, № 12, maddə 1551; 2018, № 5, maddə 946) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “Yerin təki haqqında” Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinin birinci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin üçüncü hissəsinin birinci və üçüncü cümlələrində və dördüncü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin birinci hissəsində, ikinci hissəsinin ikinci (hər iki halda) cümləsində və yeddinci hissəsinin birinci cümləsində, 15-ci maddəsinin üçüncü hissəsində, 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 19-cu maddəsinin üçüncü hissəsində, 21-ci maddəsinin ikinci hissəsində, 22-ci maddəsinin ikinci, üçüncü və yeddinci hissələrində, 23-cü maddəsinin birinci və ikinci hissələrində, 24-cü maddəsinin beşinci hissəsində, 25-ci maddəsinin ikinci hissəsində, 27-ci maddəsinin ikinci hissəsində, 30-cu maddəsinin dördüncü hissəsində, 32-ci maddəsinin beşinci və yeddinci hissələrində, 33-cü maddəsinin dördüncü hissəsində, 34-cü maddəsinin ikinci hissəsində, 36-cı maddəsinin ikinci, üçüncü və dördüncü (hər iki halda) hissələrində, 37-ci, 38-ci, 45-ci maddələrinin ikinci hissələrində və 46-cı maddəsinin birinci hissəsinin on üçüncü abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 30-cu maddəsinin dördüncü hissəsində və 36-cı maddəsinin dördüncü hissəsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.3. həmin Qanunun 13-cü maddəsinin ikinci hissəsinin ikinci (birinci halda) cümləsində “orqan (qurum)” dedikdə qiymətli və əlvan (o cümlədən nəcib) metallara, qiymətli daş yataqlarına və təzahürlərinə münasibətdə Azərbaycan Respublikasının Prezidenti, digər hallara münasibətdə isə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 16-cı və 17-ci maddələrinin birinci hissələrində, 32-ci maddəsinin beşinci hissəsində və 34-cü maddəsinin ikinci hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.5. həmin Qanunun 13-cü maddəsinin yeddinci hissəsinin birinci cümləsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.6. həmin Qanunun 32-ci maddəsinin yeddinci hissəsində “orqan (qurum)” dedikdə yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın alınması qaydasının təsdiqinə münasibətdə Azərbaycan Respublikasının Nazirlər Kabineti, yerin təki haqqında geoloji informasiyadan istifadəyə görə haqqın məbləğinin müəyyən edilməsinə münasibətdə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası nəzərdə tutulur;

2.7. həmin Qanunun 9-cu maddəsinin birinci hissəsinin yeddinci abzasında, 10-cu maddəsinin üçüncü hissəsinin üçüncü cümləsində və dördüncü hissəsinin ikinci cümləsində, 13-cü maddəsinin birinci hissəsində və ikinci hissəsinin ikinci (ikinci halda) cümləsində (qiymətli və əlvan (o cümlədən nəcib) metallara, qiymətli daş yataqlarına və təzahürlərinə münasibətdə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin iştirakı ilə), 15-ci maddəsinin üçüncü hissəsində (neftə və qaza münasibətdə Azərbaycan Respublikası Energetika Nazirliyinin iştirakı ilə), 19-cu maddəsinin üçüncü hissəsində, 21-ci, 25-ci və 27-ci maddələrinin ikinci hissələrində, 33-cü maddəsinin dördüncü hissəsində, 37-ci və 45-ci maddələrinin ikinci hissələrində, 46-cı maddəsinin birinci hissəsinin on üçüncü abzasında “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;

2.8. həmin Qanunun 22-ci maddəsinin ikinci və üçüncü hissələrində, 23-cü və 38-ci maddələrinin ikinci hissələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.9. həmin Qanunun 22-ci maddəsinin yeddinci, 24-cü maddəsinin beşinci və 36-cı maddəsinin üçüncü hissələrində “orqan (qurum)” dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.10. həmin Qanunun 10-cu maddəsinin üçüncü hissəsinin birinci cümləsində və 23-cü maddəsinin birinci hissəsində “orqan (qurum)” dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

2.11. həmin Qanunun 36-cı maddəsinin ikinci hissəsində “orqan (qurum)” dedikdə, əsasnamələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.12. həmin Qanunun 36-cı maddəsinin dördüncü (birinci halda) hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti nəzərdə tutulur.”.

3. “Qaz təchizatı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 28 sentyabr tarixli 773 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 576; 2001, № 10, maddə 640; 2003, № 10, maddə 585; 2004, № 7, maddə 526; 2007, № 6, maddə 601; 2010, № 10, maddə 848; 2011, № 4, maddə 291; 2018, № 3, maddə 410, № 4, maddə 654) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə “11-ci” sözlərindən əvvəl “8-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində (ikinci halda), 7-ci maddəsinin 3-cü və 4-cü hissələrində,” sözləri, “, 21-1-ci” sözlərindən əvvəl “və 4-cü hissəsində” sözləri əlavə edilsin;

3.2. 2.4-cü bənddən “və üçüncü cümlələrində, 7-ci maddəsinin birinci abzasının ikinci” sözləri çıxarılsın;

3.3. 2.8-ci bənddən birinci halda “1-ci hissəsində,” və “4-cü hissəsinin ikinci cümləsində və” sözləri çıxarılsın və həmin bənddə “5-ci hissəsinin birinci və ikinci” sözləri “5-ci hissəsinin birinci və ikinci (birinci halda)” sözləri ilə əvəz edilsin;

3.4. 2.9-cu bəndə “Qanunun” sözündən sonra “8-ci maddəsinin 1-ci hissəsində və” sözləri əlavə edilsin;

3.5. 2.13-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.14 - 2.17-ci bəndlər əlavə edilsin:

“2.14. həmin Qanunun 7-ci maddəsinin 3-cü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi (yeraltı qaz anbarlarına münasibətdə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin iştirakı ilə) nəzərdə tutulur;

2.15. həmin Qanunun 7-ci maddəsinin 4-cü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Energetika Nazirliyi nəzərdə tutulur;

2.16. həmin Qanunun 8-ci maddəsinin 5-ci hissəsinin ikinci cümləsində (ikinci halda) “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

2.17. həmin Qanunun 18-ci maddəsinin 4-cü hissəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.”.

4. “Azərbaycan Respublikasının 1999-cu il 25 iyun tarixli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Torpaq Məcəlləsinin icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 291 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3, maddə 158; 2001, № 10, maddə 640, № 12, maddə 755; 2003, № 10, maddə 546; 2004, № 2, maddə 69; 2006, № 8, maddə 660; 2007, № 11, maddə 1110; 2008, № 3, maddə 174, № 6, maddə 498; 2010, № 7, maddə 610; 2012, № 11, maddə 1081; 2014, № 11, maddə 1419; 2016, № 2 (II kitab), maddə 240) 1-ci hissəsinin doqquzuncu abzasında “və 2-ci bəndlərində” sözləri “bəndində” sözü ilə əvəz edilsin.

5. “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 18 may tarixli 1337 nömrəli, 12 iyun tarixli 1350 nömrəli və 1360 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 5.10-cu bənddə “228, 233, 243.0.2, 243.0.7, 243.0.8 və 243.0.9-cu” sözləri “233 və 243.0.7-ci” sözləri ilə əvəz edilsin;

5.2. 5.11-ci bəndə “həmin Məcəllənin” sözlərindən sonra “228,” rəqəmləri, “236 - 242” rəqəmlərindən sonra “, 243.0.2” rəqəmləri və “243.0.6” rəqəmlərindən sonra “, 243.0.8, 243.0.9” rəqəmləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 12 iyun tarixli 1351 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 4.1-ci və 4.4-cü bəndlərində “228, 233, 243.0.2, 243.0.7 - 243.0.9” rəqəmləri “233, 243.0.7” rəqəmləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 1 iyul tarixli 1079 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 859) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin fəaliyyət istiqamətləri üzrə müvafiq işlərin görülməsi üçün alınması tələb olunmayan lisenziyaların siyahısı”nın 3-cü hissəsi ləğv edilsin.

8. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

8.1. beynəlxalq təcrübə nəzərə alınmaqla, “Yerin təki haqqında” Azərbaycan Respublikasının yeni qanununun layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

8.2. “Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, “Antiinhisar fəaliyyəti haqqında”, “Enerji resurslarından istifadə haqqında”, “Yerin təki haqqında”, “Qaz təchizatı haqqında”, “Energetika haqqında”, “Lisenziyalar və icazələr haqqında” və “Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2021-ci il 27 may tarixli 337-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 iyul 2021-ci il*

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Milli Məclisin nümayəndə heyəti ilə görüşüb



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ankarada səfərdə olan Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərlik etdiyi parlament nümayəndə heyəti ilə Türkiyə Böyük Millət Məclisində (TBMM) görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan deputatlarını səmimi salamlayan Prezident Rəcəb Tayyib Ərdoğan onlarla xatirə şəkli çəkdirib.

Qeyd edək ki, Azərbaycanın parlament nümayəndə heyətinə deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Nəsib Məhəməliyev və Erkin Qədirli daxildir.

# Azərbaycanın parlament nümayəndə heyəti Ankarada Anıtqəbrini yad edib

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərliyi ilə deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Nəsib Məhəməliyev və Erkin Qədirlidən ibarət parlament nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.



AZƏRTAC xəbər verir ki, Azərbaycan parlamentariləri iyulun 14-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını - Anıtqəbri ziyarət ediblər.

Azərbaycan parlamenti adından Anıtqəbrin önünə əklil qoyulub.

Sonra burada yerləşən Qurtuluş Savaşı Muzeyi ilə tanışlıq olub. Milli Məclisin komitə sədri Səməd Seyidov Anıtqəbrin xatirə kitabına ürək sözlərini yazıb.

# Azərbaycanlı deputatlar Ankarada Ulu Öndər Heydər Əliyevin xatirəsini anıblar




Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərliyi ilə deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Nəsib Məhəməliyev və Erkin Qədirlidən ibarət parlament nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın parlament nümayəndə heyəti iyulun14-də Ankaradakı Heydər Əliyev Parkına gələrək Ulu Öndərin burada ucalan abidəsi önünə əklil qoyub, tər çiçəklər düzüblər.

Ümummilli Lider Heydər Əliyevin xatirəsi ehtiramla yad olunub.

Bu gün azərbaycanlı deputatlar TBMM-də fəaliyyət göstərən bir sıra komitələrdə və dostluq qrupunda həmkarları ilə görüşəcək, fikir mübadiləsi aparacaqlar.

Səfər iyulun 16-da başa çatacaq.

# Tbilisi şəhərinin meri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət edib

Gürcüstanın paytaxtı Tbilisi şəhərinin meri Kaxa Kaladzenin başçılıq etdiyi nümayəndə heyəti iyulun 14-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub. AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn qonaqlar Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.





# Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə və hərbi-mülki əlaqələndirmə məsələləri üzrə işçi qruplarının birgə iclası keçirilib









Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Minalardan və partlamamış hərbi sursatlardan təmizləmə və hərbi-mülki əlaqələndirmə məsələləri üzrə işçi qruplarının iyulun 14-də birgə iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları Füzuli-Zəngilan (Ağbənd) dəmir yolunun Cocuq Mərcanlı və Mehdili kəndlərinin ərazisindən keçən hissələrinin minalardan təmizlənməsi prosesi ilə tanış olublar.

Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin nümayəndəsi İdris İsmayılov bildirib ki, bu ərazidə, ümumilikdə, piyada və tank əleyhinə 1323 mina, 14 partlamamış hərbi sursat aşkarlanıb. Ərazilərin minalardan təmizlənməsi üç mərhələdə aparılır.

Füzuli rayonunun işğaldan azad olunmuş hissəsinin əkinaltı torpaqlarının və çoxillik əkmələrinin yerləşmə vəziyyəti barədə məlumat verən Müdafiə Nazirliyinin Mühəndis Qoşunları Baş İdarəsinin rəisi general-mayor Anar Kərimov bildirib ki, bu günədək 24 hektar sahə minalardan təmizlənib. Ümumilikdə, 293 hektar sahənin minalardan təmizlənməsi nəzərdə tutulur. Burada əsasən partlamamış sursat, mərmi qalıqları aşkar olunub. Bu günədək 15 mindən çox döyüş sursatı məhv edilib.

Sonra Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinə baxış keçirilib. Görülən işlərlə bağlı məlumat verən Füzuli Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi polkovnik Məhərrəm Məhərrəmov bildirib ki, indiyədək 178 yanğın hadisəsi baş verib. Yanğınlar dərhal söndürülüb və alovun daha böyük əraziyə yayılmasının qarşısı alınıb.

Sonra Əlaqələndirmə Qərargahının nəzdindəki "Minalardan və partlamamış hərbi sursatlardan təmizlənmə üzrə" və "Hərbi-mülki əlaqələndirmə məsələləri üzrə" işçi qruplarının birgə iclası keçirilib.

Qərargahın gördüyü işlər barədə məlumat verən Əlaqələndirmə Qərargahının nəzdindəki İdarələrarası Mərkəzin sədr müavini Nüsrət Süleymanov bildirib ki, istər minatəmizləmə sahəsində gündəlikdə duran məsələlər, istərsə də mülki əlaqələr üzrə qərarların qəbul edilməsi, həmçinin Prezident İlham Əliyev tərəfindən qərargahın qarşısında qoyulan tapşırıqlar barədə ətraflı fikir mübadiləsi aparılır. Bu cür iclasların keçirilməsində əsas məqsəd işçi qrupların və üzvlərinin ərazilərdə aparılan işlərlə yaxından, praktiki tanış olmasını, həmçinin işçi qrupların fəaliyyətinin daha səmərəli təşkilini təmin etməkdir.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.





# Zəngəzur dəhlizinin açılması türk dünyasının inteqrasiyasında tamamilə yeni mənzərə yaradacaq

Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərliyi ilə deputatlar Asim Mollazadə, Nigar Arpadarai, Nəsib Məhəməliyev və Erkin Qədirlidən ibarət parlament nümayəndə heyəti Ankarada Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərindən danışılıb, iki qardaş ölkənin inkişafı xoş sözlərlə ifadə edilib.

Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!" ifadəsini xatırladan TBMM-in Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıç Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoyulmasını tarixi hadisə kimi dəyərləndirib, bunun Türkiyədə tükənməz sevinc yaratdığını diqqətə çatdırıb.

Yüksək qonaqpərvərliyə görə təşəkkürünü ifadə edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov 2016-ci ilin 15 iyul hadisələrinə münasibət bildirərək vurğulayıb ki, tarixin ağır sınaqlarından hər zaman üzüağ çıxan Türkiyə xalqı Prezident Rəcəb Tayyib Ərdoğanın ətrafında sıx birləşərək, bu ağır terrorun, dövlət çevrilişi cəhdinin qarşısını mətinliklə alıb. Azərbaycan və Türkiyənin dövlətçilik tarixində paralellər aparan Milli Məclisinin komitə sədri 30 illik işğala son qoyulandan sonrakı vəziyyətdən bəhs edərək əminliklə bildirib ki, Zəngəzur dəhlizinin açılması iki qardaş ölkə, o cümlədən türk dünyasının inteqrasiyasında tamamilə yeni mənzərə yaradacaq.

Sonra tərəflər Azərbaycan və Türkiyə parlamentlərinin komitə və komissiyaları arasında, o cümlədən beynəlxalq təşkilatlar səviyyəsində əməkdaşlıq əlaqələrinin daha səmərəli davam etdirilməsi ilə bağlı fikir mübadiləsi aparıblar.

Diqqətə çatdırılıb ki, ölkələrimiz istər 15 iyul dövlət çevrilişi cəhdinin qarşısının alınmasında, istərsə də Qarabağ Zəfərinin qazanılmasında bütün dünyaya Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri mesajını verməklə birliyini nümayiş etdirib.

Görüşdə iştirak edən deputatlar da fikirlərini bölüşüblər.

Qeyd edək ki, Milli Məclisin nümayəndə heyətinin Ankaraya səfəri Türkiyə Böyük Millət Məclisinin (TBMM) Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın dəvəti əsasında həyata keçirilir.

Deputatlar səfər çərçivəsində 2016-cı il iyulun 15-də Türkiyədə baş vermiş dövlət çevrilişi cəhdinin beşinci ildönümü münasibətilə keçiriləcək tədbirlərə qatılacaq, 15 iyul şəhidlərinin xatirəsini anacaqlar.

Səfər iyulun 16-da başa çatacaq.

# Azərbaycan və Türkiyə parlamentləri arasında əməkdaşlıq yüksələn xətlə inkişaf edir

Ankarada səfərdə olan Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 14-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi qrupun üzvləri ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Səməd Seyidov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iyunun 15-də Azərbaycana səfərindən, Milli Məclisdəki çıxışından, Şuşa Bəyannaməsinin tarixi əhəmiyyətindən və qarşıya qoyduğu vəzifələrdən danışıb. Əminliklə bildirib ki, iki qardaş ölkənin birgə inkişafı sayəsində daha böyük uğurlar qazanılacaq. Qardaş ölkələrimizin münasibətlərinin möhkəm təməlinin formalaşmasında Ümummilli Lider Heydər Əliyevin tarixi missiyasını, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Vətən müharibəsində qazandığı böyük Zəfəri xatırladan komitə sədri vurğulayıb ki, 2016-cı il iyulun 15-də törədilən dövlət çevrilişi cəhdi Türkiyənin dövlət müstəqilliyinə qarşı qəsd idi. Azərbaycan xalqı bu cinayəti törədənləri qətiyyətlə pisləyir. S.Seyidov qeyd edib ki, 44 günlük Vətən savaşı və beş il əvvəl Türkiyədə dövlət çevrilişinin qarşısının alınması eyni ruhun təntənəsi olan qəhrəmanlıq dastanlarıdır.

Azərbaycanlı həmkarlarını səmimiyyətlə salamlayan TBMM-in Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusunun qazandığı tarixi Qələbəni Türkiyənin zəfəri kimi dəyərləndirib. Bildirib ki, Türkiyə ictimaiyyəti hər zaman olduğu kimi, müharibə günlərində də qardaşlıq mövqeyini ortaya qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətlərinin iki ölkə arasındakı tarixi bağları daha da möhkəmləndirdiyini vurğulayan Ş.Ayrım bildirib ki, parlamentlərimiz, eləcə də hakim Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası arasında əlaqələrin genişlənməsi mühüm əhəmiyyət daşıyır.

Görüşdə 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin regionda yaratdığı yeni vəziyyət barədə fikir mübadiləsi aparılıb, Azərbaycan və Türkiyənin artan gücünün bölgədə sülh və sabitliyə töhfəsi təhlil olunub. Vurğulanıb ki, qazanılmış Qələbə bizi arxayınlaşdıra bilməz. Bundan sonra daha sıx əməkdaşlıq etməli, birgə mübarizə aparmalı, xüsusilə təhlükə və təhdidləri birlikdə dəf etməliyik.

Qeyd edək ki, Milli Məclisin deputatları Asim Mollazadə, Nigar Arpadarai, Nəsib Məhəməliyev və Erkin Qədirlidən ibarət nümayəndə heyətinin Türkiyəyə səfəri iyulun 16-da başa çatacaq.

# Ümummilli Liderin 52 il əvvəl əsasını qoyduğu sosial siyasət bu gün Prezident tərəfindən uğurla davam etdirilir

İyulun 14-də parlament Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Milli Məclisdə müharibə iştirakçısı, bir qrup ictimai fəal, habelə idman sahəsində fəaliyyət göstərən şəxslərlə görüşüb.



AZƏRTAC xəbər verir ki, görüşdə Vətən müharibəsi qazisi Xankişi Yusifov, Təhsil RİM-in direktoru Natiq Lahıcov, arxa cəbhə fəalları - Rusiya Federasiyasının Arxangelsk vilayətindəki Azərbaycan diasporunun rəhbəri Tərlan Qasımov Abşeron Rayon İcra Hakimiyyəti başçısı yanında İctimai Şuranın sədri Elçin Quliyev, habelə tanımış jurnalistlər və ictimai fəallar Nuranə Gülər, Vüqar Rəhimov, Elnur Mustafayev və idmançı Amid Babayev iştirak ediblər.

Adil Əliyev görüşdə çıxış edərək Ümummilli Lider Heydər Əliyevin 1969-cu ilin bu günü ölkəmizdə siyasi rəhbərliyə gəlməsi ilə tariximizdə dönüşün yarandığını, bir sıra digər sahələr kimi, gənclər və idman sahələrinin də əsasının qoyulduğunu bildirib. Həmin dövrdə yaranmış müxtəlif çətinliklərə baxmayaraq, məhz Ulu Öndərin gərgin əməyi nəticəsində ölkəmizdə peşəkar hərbi kadrlar hazırlayan Cəmşid Naxçıvanski adına Hərbi Liseyin fəaliyyətə başladığını, idmanda kütləviliyin təmin edildiyini, gənclərimizin ali təhsil almaq məqsədilə o dövrün ən nüfuzlu ali məktəblərinə göndərildiyini vurğulayan Milli Məclis Sədrinin müavini həmin dövrün Azərbaycanın ictimai-siyasi, həmçinin iqtisadi həyatında intibah dövrü olduğunu bildirib. 1969-1982-ci illərdə ölkəmizdə təbii ehtiyatlardan, iqtisadi, təhsil, elm və digər sahələrin potensialından xalqın rifah halının yüksəldilməsi üçün istifadə edildiyi diqqətə çatdırılıb. Təəssüflə qeyd edilib ki, Ümummilli Liderin yaratdığı və formalaşdırdığı bu uğurlu siyasət modeli sonradan hakimiyyətə gələnlərin səriştəsizliyi ucbatından sıradan çıxdı, respublikamızda bütün sahələrdə tənəzzül yaşandı.

Komitə sədri habelə Ulu Öndərin 1993-cü ildən xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bütün sahələrin yeni inkişaf mərhələsinə qədəm qoyduğu, qısa müddətdə həyata keçirilən uğurlu islahatlar nəticəsində ölkəmizin məhv olmaq təhlükəsinin qarşısının alındığını bildirib.

“Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, Prezident, Müzəffər Ali Baş Komandan tərəfindən uğurla davam və inkişaf etdirilən ordu quruculuğu, gənclər və idman siyasəti də daxil olmaqla, bütün sahələrdə görülən işlər nəticəsində Azərbaycanda güclü dövlət və ordu formalaşdı. Hərbi sahəyə göstərilən diqqət və qayğı, bu sahədə görülən genişmiqyaslı işlər nəticəsində ordumuzun döyüş arsenalı müasirləşdirildi. Şanlı ordumuz müasir silahlarla təchiz edildi, hərbi qulluqçularımız yüksək döyüş hazırlığı qazanmaq üçün xarici ölkələrdə kurslara göndərildi, nəticədə peşəkar ordu formalaşdırıldı”, - deyə A.Əliyev qeyd edib.

Ermənistanın hərbi təxribatlarına toxunan Milli Məclis sədrinin müavini qeyd edib ki, düşmənin törətdiyi təxribata rəşadətli ordumuz tərəfindən layiqli cavab verilməsi, habelə əzəli və əbədi torpaqlarımız düşmən işğalından azad edilməsi məqsədilə Müzəffər Ali Baş komandan tərəfindən ötən il sentyabrın 27-də əkshücum əməliyyatları barədə əmr verildi. Vətən müharibəsi nəticəsində xalqımız tarixi Zəfər qazandı. Şanlı ordumuzun döyüş meydanında göstərdiyi şücaət, yüksək döyüş hazırlığı nəticəsində düşmənin məğlub olaraq kapitulyasiya aktına imza atması, tarixi torpaqlarımızın işğaldan azad edilməsi tariximizin ən əlamətdar hadisələrindən biridir.

Adil Əliyev müharibədən sonra ölkəmizdə əsas prioritetlərin Qarabağın dirçəlişi, şəhid ailələrinin və qazilərin qayğılarının həlli olduğunu bildirib. Deyib ki, həm dövlət başçısı, həm də Birinci vitse-prezident tərəfindən şəhid ailələrinin və qazilərin problemlərinin həlli ilə bağlı çoxsaylı tapşırıqlar verilib. Eyni zamanda şəhid ailələrinin və qazilərin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar ev, avtomobil ilə təmin edilir.

Milli Məclis Sədrinin müavini deyib ki, şəhid ailələrini və qaziləri narahat edən məsələlərin həllində hər bir vətəndaşımız üzərinə düşən vəzifələri könüllü olaraq icra etməlidir.

Eyni zamanda gənc nəslin vətənpərvər ruhda tərbiyə edilməsinə toxunan A.Əliyev gələcək nəsillərin sağlam, milli-mənəvi dəyərlərə uyğun olaraq yetişdirilməsinin vacibliyinə toxunub.

Səmimi qəbula görə təşəkkürlərini bildirən görüş iştirakçıları Vətən müharibəsində xalqımızın üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəldiyini bildiriblər. Dövlət başçısının ətrafında sıx birləşmiş xalqımızın bundan sonra da şəhid ailələrinin və qazilərin yanında olacağını, həqiqətlərimizin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün əllərindən gələni əsirgəməyəcəklərini bildirib, Vətən müharibəsində qazandığımız Zəfərin tariximizin ən parlaq səhifəsi, eyni zamanda xalqımızın qürur mənbəyi olduğunu qeyd ediblər.

# Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin fəaliyyətə başlamasından 23 il ötür

İyulun 14-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaradılmasının 23 ili tamam olur. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Konstitusiya Məhkəməsi 1998-ci il iyulun 14-də fəaliyyətə başlayıb.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əlamətdar gün münasibətilə sədr Fərhad Abdullayev, Konstitusiya Məhkəməsinin hakimləri və Aparatın məsul əməkdaşları pandemiya ilə əlaqədar məhdud sayda Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri qoyublar.

Sonra Konstitusiya Məhkəməsində hakimlər və Aparatın bir sıra məsul əməkdaşlarının iştirakı ilə xüsusi karantin rejiminin qaydalarına əməl olunmaqla tədbir keçirilib.

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tədbirdə çıxış edərək, konstitusiya nəzarəti orqanı olan Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin yaranması və keçən dövr ərzində fəaliyyəti haqqında danışıb.

Sədr qeyd edib ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra ölkənin hüquqi, ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, həmçinin dövlətin beynəlxalq əlaqələrində dönüş yaranıb, müstəqil dövlət quruculuğu prosesinin əsası qoyulub.

Vurğulanıb ki, Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və qəbul olunmuş Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təminatı olmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoyub. Azərbaycan Respublikasının ərazisinin vahid, toxunulmaz və bölünməz olduğunu bəyan edən Əsas Qanun bir çox mütərəqqi və demokratik prinsip və dəyəri özündə ehtiva edib.

Sədr vurğulayıb ki, bu gün Konstitusiyada təsbit edilmiş Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsində qazanılan tarixi Qələbə hər birimizi qürurlandırır, işlədiyimiz sahə üzrə fəaliyyətimizdə daha əzmlə çalışmağa sövq edir.

Bildirilib ki, otuz ilə yaxın davam etmiş işğala son qoyulmaqla, beynəlxalq hüquq normalarının aliliyi təmin edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının dərhal çıxarılmasına dair BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələri Ermənistan tərəfi icra etməkdən boyun qaçırsa da, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində öz şücaəti ilə bu qətnamələrin icrasını təmin edərək ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Vətənimizin torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğaldan azad edilməsi ölkəmizin Konstitusiyasında və bir çox beynəlxalq hüquq müqavilələrində təsbit edilmiş bir sıra əsas insan hüquq və azadlıqlarının təmin olunmasına imkan verdi.

Vurğulanıb ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz beynəlxalq aləmdə böyük nüfuza malik olmaqla, etibarlı tərəfdaş və beynəlxalq hüquq prinsiplərinə daim əməl edən müasir dövlət kimi qəbul edilir. Son illər isə ölkəmizin çoxsaylı beynəlxalq siyasi, mədəni, idman tədbirlərinə böyük uğurla evsahibliyi etməsi Azərbaycana beynəlxalq səviyyədə olan etimadın əyani göstəricisidir.

Tədbirə yekun vuran Fərhad Abdullayev qeyd edib ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi hər zaman olduğu kimi, insan hüquq və azadlıqlarının qorunması, müstəqil Azərbaycanın Əsas Qanunu olan Konstitusiyanın müddəalarının müdafiəsi, müstəqil dövlətimizin möhkəmlənməsi, xalqımızın maddi, mənəvi rifahının daha da yaxşılaşdırılması istiqamətində Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi fəaliyyətinə dəstək olaraq, üzərinə düşən vəzifələri bundan sonra da layiqincə yerinə yetirməyə çalışacaq.

Tədbirin sonunda Konstitusiya Məhkəməsinin yeni embleminin hazırlanması ilə əlaqədar keçirilmiş müsabiqənin qalibi elan olunub.

# “Xoşbəxt ailə” formuluna müasir baxış

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə “Xoşbəxt ailə formuluna müasir baxış” mövzusunda konfrans keçirilib.



Konfransı giriş sözü ilə açan YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova tədbirin çox əlamətdar günə təsadüf etdiyini önə çəkərək bildirib ki, ötən ilin iyul ayında Ermənistanın törətdiyi təxribat əməlinin - Tovuz hadisələrinin ildönümüdür: “2020-ci ilin iyul təxribatından ötən müddət ərzində Azərbaycanın həyatında baş verən hadisələr bütün mənalarda tarixi əhəmiyyət daşıyır. Uzun illərə, əsrlərə söykənən Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə Azərbaycan işğalçını yerinə oturtdu və xalqımızın Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsi ilə əldə olunan Qələbə nəticəsində bütün dünya Ermənistanın təcavüzkar simasının ifşa olunması faktına şahidlik etdi. Azərbaycan ərazi bütövlüyünü bərpa edərək vətəndaşlarının rahat yaşayışını təmin, müstəqil, suveren hüquqlarını bərpa etdi. Azərbaycan təkbaşına Prezidentinin qətiyyətinə, xalqının iradəsinə, Ordusunun gücünə, öz imkanlarına söykənərək erməni faşizmini məhv etdi”.

“Bu gün biz Heydər Əliyevin siyasi irsinin təbliğatçıları olaraq bu siyasətə bütün mənalarda əməl edirik”, - söyləyən komitə sədri vurğulayıb ki, ölkə Prezidenti İlham Əliyev, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva bütün beynəlxalq çağırışlara rəğmən, bu siyasəti ardıcıl olaraq irəli aparırlar: “Təsadüfi deyil ki, ölkə Prezidenti bir neçə dəfə çıxışlarında bu məsələyə toxunaraq qəti şəkildə vurğulamışdır ki, biz ənənələrə söykənən ölkəyik. Bizim üçün ailə dəyərləri, milli-mənəvi dəyərlər hər şeydən üstündür, müasir inkişaf tendensiyalarını qəbul edən və onu Azərbaycanın milli maraqlarına uyğun şəkildə siyasi istiqamətlərə yönəldən bir ölkəyik. Elə etməliyik ki, həm müasirlik davamlı nailiyyətimiz kimi çıxış etsin, həm də milli köklərə bağlılıq bizi heç zaman tərk etməsin. Odur ki, YAP üzvləri olaraq harada işləməyimizdən asılı olmayaraq, məhz siyasətin bu aspektini yaddan çıxarmamalıyıq. Azərbaycanın öz dəyərlərinə sadiq siyasi kurs müəyyənləşdirməsi Ulu Öndər Heydər Əliyevin tarixi xidməti və bizim bu siyasətə sadiqliyimiz kimi qəbul olunmalıdır”.

Diqqəti Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII Qurultayına yönəldən B.Muradova qeyd edib ki, həm cənab İlham Əliyevin nitqində, həm də qəbul olunan qərarlarda bu məsələ öndə saxlanıldı: “Ailə dəyərləri, milli-mənəvi dəyərlər, Azərbaycanda yaşayan xalqların multikultural dəyərlərin daşıyıcıları kimi indiyə qədər mövcud həyat tərzlərinin daha da inkişaf etdirilməsi istiqamətində çağırışlar bu məsələyə daha ciddi diqqət yetirməyə imkan yaradır”.

Mövzunun maraqlılığını, aktuallığını xüsusi vurğulayan komitə sədri bildirib ki, “Xoşbəxt ailə” modelinə hansı dövrdən baxsan, müasir baxış kimi dəyərləndirilir. Hər kəsin bu modelə yanaşma bucağı var.

Sonra cəmiyyətin müxtəlif təbəqələri arasında “Xoşbəxt ailə modeli necə olmalıdır” sualı əsasında keçirilən ictimai rəy sorğusunu özündə əks etdirən videoçarx nümayiş olunub, mövzu ətrafında çıxışlar dinlənilib və videoçarxda səslənən fikirlər ətrafında gənclərlə diskussiya keçirilib.

Konfransda çıxış edən YAP İdarə Heyətinin üzvü, partiyanın Veteranlar Şurasının sədri Arif Rəhimzadə ailə dəyərlərindən, ailə-dövlət münasibətlərindən söhbət açaraq, gənclərə öz tövsiyə və məsləhətlərini verib. Vurğulanıb ki, əgər ailə sağlam təməl, qarşılıqlı hörmət və məhəbbət üzərində qurulursa, hər bir ailə üzvünün hüququna anlayışla yanaşılırsa, əlbəttə ki, bu ailədə doğulan, təlim-tərbiyə alan insan əxlaqlı, savadlı, mədəni, qurucu olacaqdır. Belə insan ailəsinə və dövlətinə layiqli şəxsiyyət və vətəndaş olacaqdır.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Aynur Sofiyevanın sözlərinə görə, ailə hər bir cəmiyyətin, dövlətin özəyi olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərin daşıyıcısıdır. Azərbaycan dövləti ailə institutunun qorunması istiqamətində güclü qanunvericilik bazasına malikdir. Ölkəmizin iqtisadi imkanlarının artması isə ailələrin rihah halının yüksəlməsi istiqamətində mühüm dövlət proqramları, sosial layihələrin həyata keçirilməsinə şərait yaratmışdır. Sevindirici haldır ki, bu gün dünyada ailə dəyərlərinin aşınması fonunda ölkəmizdə ailə institutu tərəfindən özünün sosial təyinatı və milli-mənəvi missiyasının tam və dolğun şəkildə qorunub saxlanıldığını görürük. Buna görə də məqsədimiz bu sahədə görülən işləri sistemli və ardıcıl şəkildə davam etdirməklə yanaşı, eyni zamanda ailələrimizi qorumaq, ailədə rahat psixoloji iqlim mühiti yaratmaqdır.

Konfransda digər çıxış edənlər “Xoşbəxt ailə” modeli ilə bağlı düşüncələrini tədbir iştirakçıları ilə bölüşüblər. Daha sonra tədbir interaktiv şəkildə davam edib və gəncləri maraqlandırılan suallar cavablandırılıb.

***Ülkər XASPOLADOVA,***
***“Azərbaycan”***

# “Azərbaycanın milli təhlükəsizliyi: təhdidlər və onların qarşısının alınması üçün qarşıda duran vəzifələr” mövzusunda seminar keçirilib





İyulun 14-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında partiyanın Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində “Azərbaycanın milli təhlükəsizliyi: təhdidlər və onların qarşısının alınması üçün qarşıda duran vəzifələr” mövzusunda seminar keçirilib.

Yeni Azərbaycan Partiyasından AZƏRTAC-a bildiriblər ki, tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, 14 iyul təqvimi Azərbaycanın tarixində mühüm yer tutur. Belə ki, 14 iyul 1969-cu ildə Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda ilk dəfə hakimiyyətə gəlib. Onun sözlərinə görə, Ulu Öndərimiz hakimiyyətdə olduğu bütün dövrlərdə Azərbaycanın inkişafı naminə misilsiz, tarixi xidmətlər göstərib.

B.İslamov həmçinin Tovuz döyüşlərinin baş verməsindən bir il ötdüyünü xatırladaraq bu döyüşlərdə Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunu qeyd edib.

Tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Daha sonra Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov “Azərbaycanın milli təhlükəsizliyi: təhdidlər və onların qarşısının alınması üçün qarşıda duran vəzifələr” mövzusunda təqdimatla çıxış edib. O bildirib ki, Azərbaycanın milli təhlükəsizliyi ilə bağlı müvafiq normativ-hüquqi aktlar qəbul olunub. Bu, həm dövlət başçısının imzaladığı fərman və sərəncamlarda, həm də Milli Məclisin qəbul etdiyi qanunlarda özünün əksini tapır. “Milli təhlükəsizlik haqqında” Azərbaycan Respublikasının Qanunu, “Azərbaycan Respublikasının Hərbi Doktrinası” və digər sənədləri buna nümunə göstərmək olar.

Komitə sədri qeyd edib ki, milli təhlükəsizlik - dövlətin müstəqilliyinin, suverenliyinin, ərazi bütövlüyünün, konstitusiya quruluşunun, xalqın və ölkənin milli maraqlarının, cəmiyyətin və dövlətin hüquq və mənafelərinin daxili və xarici təhdidlərdən qorunmasının təmin edilməsidir: “Milli təhlükəsizliyimizin subyektləri isə insanların, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqlarının və tələbatlarının təmin edilməsi məqsədilə yaradılmış dövlət hakimiyyəti orqanlarıdır. Təhlükəsizliyimizin əsas prinsipləri arasında insan, cəmiyyət və dövlətin maraqları arasındakı tarazlığın saxlanılması və onların qarşılıqlı məsuliyyəti də vacib yer tutur”.

Ziyafət Əsgərov diqqətə çatdırıb ki, ölkəmizə qarşı təhdidlər hər zaman olub və bundan sonra da ola bilər: “Əsas məsələ ondan ibarətdir ki, bu təhdidlərin qarşısı alınır. Biz indiyə kimi siyasi, hərbi, iqtisadi, sosial, ekoloji və digər xarakterli təhdidlərlə qarşılaşmışıq. Onun sözlərinə görə, xüsusilə 1990-cı illərin əvvəllərində milli təhlükəsizliyimiz ciddi təhdidlərlə üz-üzə qalmışdı. Bir tərəfdən, Ermənistanın torpaqlarımızı işğal etməsi, digər tərəfdən, iqtisadi və s. xarakterli təhdidlər gələcəyimizi sual altına qoyurdu. Amma 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıtdıqdan sonra ölkədə təhlükəsizlik sistemi quruldu. Ulu Öndərimizin qətiyyətli siyasəti nəticəsində bütün daxili problemlər aradan qaldırıldı, ictimai-siyasi sabitlik bərpa olundu, iqtisadi təhlükəsizliyimizin təmin edilməsi, ordu quruculuğu istiqamətində mühüm tədbirlər həyata keçirilməyə başlandı”.

Bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən Ziyafət Əsgərovun sözlərinə görə, dövlət başçısının siyasəti nəticəsində Azərbaycan daha da inkişaf edib, güclənib və dünyada söz sahibi olan ölkələr sırasına çıxıb: “Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ilə əlaqədar BMT Təhlükəsizlik Şurası dörd qətnamə qəbul etsə də, bu sənədlər 30 ilə yaxın kağız üzərində qaldı. Beynəlxalq birlik Ermənistana heç bir təzyiq göstərmirdi. Halbuki beynəlxalq hüquq qarşısında bütün dövlətlər bərabər olmalıdır. Lakin reallıqlar başqadır. Beynəlxalq hüquqla yanaşı, güc amili də əsasdır. Ona görə də cənab Prezidentin siyasəti nəticəsində Azərbaycan ötən illər ərzində xeyli gücləndi və öz gücünə torpaqlarını işğaldan azad etdi”.

Milli Məclisin komitə sədri əlavə edib ki, milli təhlükəsizliyimizin təmin olunmasında müvafiq dövlət qurumları ilə yanaşı, hər bir vətəndaş da fəal iştirak etməlidir.

Ziyafət Əsgərov gənclərə yaxşı təhsil almağı, yüksək biliklərə sahib olmağı tövsiyə edib. Çünki savadlı, bilikli cəmiyyət həmişə güclü olur. Güclü xalq və güclü dövlət isə hər zaman təhdidlərin qarşısını almaq iqtidarındadır.

Sonda tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılıb.

# Peşə hazırlığı dövlət sifarişi ilə adambaşına maliyyələşdirmə prinsipi əsasında reallaşdırılacaq

“İşaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası”na dəyişiklik edilib. Yeni dəyişiklikdə peşə hazırlığının dövlət sifarişi ilə adambaşına maliyyələşdirmə prinsipi əsasında həyata keçirilməsi, peşə hazırlığını həyata keçirən müəssisələrin müsabiqə yolu ilə seçilməsi mexanizmi öz əksini tapıb.

Dövlət Məşğulluq Agentliyindən AZƏRTAC-a bildirilib ki, dəyişiklikdə əsas məqsəd peşə hazırlığı sisteminin təkmilləşdirilməsi və effektivliyinin artırılması, bu sahədə çevikliyin və rəqabətliliyin təmin olunması, eləcə də dövlət-özəl əməkdaşlığının genişləndirilməsidir. Dövlət orqanları, bələdiyyələr, hüquqi və fiziki şəxslərə məxsus əlavə təhsil həyata keçirən müəssisələr peşə hazırlığını həyata keçirə biləcəkləri ixtisası göstərməklə Dövlət Məşğulluq Agentliyinə müraciət edə bilərlər. Daha sonra müvafiq sahələr üzrə peşə hazırlığını həyata keçirəcək müəssisələrin seçimi həyata keçiriləcək.

Peşə hazırlığını həyata keçirəcək müəssisələrin seçiminin şəffaf və ədalətli aparılması məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Dövlət Məşğulluq Agentliyininin, Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin nümayəndələrindən ibarət müsabiqə komissiyasının yaradılması qərara alınıb. Komissiya peşə hazırlığının təşkili məqsədi ilə agentliyə müraciət edən müəssisələrin müəyyən olunmuş meyarlar üzrə qiymətləndirilməsini həyata keçirərək sifarişi icra edəcək müəssisələri müəyyənləşdirəcək.

Peşə hazırlığı kurslarında iştiraka maraqlı tərəflər (müəssisələr) https://forms.gle/i2bg2ab1RmCLQdfb6 linki vasitəsilə müraciət edib, qeydiyyatdan keçə bilərlər.

# Diplomatiya könüllüləri Müdafiə Nazirliyinin bəzi qurumlarında olublar





Xarici İşlər Nazirliyinin və ADA Universitetinin birgə təşkilatçılığı ilə keçirilən “Diplomatiya həftəsi” çərçivəsində Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən diplomatiya könüllüləri Müdafiə Nazirliyinin bəzi müəssisələrində olublar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, “44 günlük Vətən müharibəsi və müharibədən sonra Azərbaycanın xarici siyasəti” mövzusunda keçirilən “Diplomatiya həftəsi” çərçivəsində müxtəlif təhsil ocaqlarını təmsil edən gənclər Müdafiə Nazirliyinin Hərb Tarixi Muzeyini, Hərbi Nəşriyyatını, Sənədli və Tədris Filmləri Mərkəzini və “Azərbaycan Ordusu” qəzetinin redaksiyasını ziyarət ediblər. Azərbaycanda fəaliyyət göstərən könüllü təşkilatların və hərəkatların nümayəndələrinə Müdafiə Nazirliyinin həmin qurumlarının fəaliyyəti haqqında ətraflı məlumat verilib.

Səfər çərçivəsində gənclər Vətən müharibəsində iştirak etmiş bir qrup hərbi qulluqçu ilə də görüşüblər. Şanlı qələbəmizlə başa çatan müharibə barədə təəssüratlarını bölüşən döyüş iştirakçıları könüllüləri maraqlandıran sualları cavablandırıblar.

Könüllülərə Vətən müharibəsi dövründə yaşanmış hadisələrin bir hissəsini özündə əks etdirən qısametrajlı film nümayiş olunub.

Müdafiə Nazirliyinin rəsmiləri və Vətən müharibəsi iştirakçıları Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz tərəfindən qazanılmış tarixi Zəfər haqqında tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırıblar.

# Pandemiya və postpandemiya dövründə Azərbaycan Sahibkarlar Konfederasiyasının fəaliyyəti

Hər bir ölkənin ərazi toxunulmazlığı onun qürur yeridir və keçilməz qırmızı xəttidir. Bu gün beynəlxalq kürsülərdə Azərbaycan vətəndaşının, eləcə də sahibkarın qürurla çıxış etməsində "Qarabağ Azərbaycandır" nidasının reallığa çevrilməsi əsas amillərdən biridir. Milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan İlham Əliyevin komandanlığı ilə Müzəffər Azərbaycan Ordusu şanlı Zəfər çalaraq 30 illik işğala son qoydu, torpaqlarımızı düşmən tapdağından azad etdi.



Sentyabrın 27-dən başlayan və 44 gün davam edən Vətən müharibəsi dövründə bizim qələbəmizi şərtləndirən birnömrəli amil isə məhz iqtidar-xalq, İlham Əliyev-xalq, xalq-ordu birliyidir. Azərbaycan xalqı öz liderinin ətrafında bir yumruq kimi sıx birləşərək, Qarabağımızın azad olunması uğrunda bütün səylərini ortaya qoydu və öz qəhrəmanlığı ilə dünyanı yaxşı mənada təəccübləndirdi. Nəticədə Qarabağ məsələsində Azərbaycan xalqı siyasi, həlledici, qərarverici bir səviyyəyə yüksəldi.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında vətəndaşlarımız, ordumuz və onun ətrafında bir əsgər kimi birləşən sahibkarlarımız Zəfər tarixinin yazılmasında "Dəmir yumruğ"un bir parçasına çevrildilər. Koronavirus pandemiyasının iqtisadiyyata vurduğu zərərə baxmayaraq, Azərbaycan sahibkarları düşmənə qarşı aparılan antiterror əməliyyatlarında dövlətimizin yanında, onunla birlikdə oldu. Bu birlik ölkəmizin biznes elitasının dövlətçiliyimizə, tarixi missiyamıza sədaqəti və qarşısına qoyduğu mühüm tarixi hədəflərə çatması üçün ən dəyərli gücümüzdür.

Elə müharibənin ilk günlərindən Azərbaycan Sahibkarlar Konfederasiyasına daxil olan çoxsaylı müraciətlər əsasında Rəyasət Heyətinin təcili iclası keçirildi və sahibkarların, işəgötürənlərin iradəsini əks etdirən, Prezidentimizin ətrafında sıx birləşdiyini elan edən bəyanat qəbul edildi. Bəyanatda sahibkarlar qələbə naminə bütün imkanlarını səfərbər edəcəkləri barədə cəmiyyətə mesaj verdilər. Yüksək milli vətənpərvərlik nümayiş etdirən iş adamları torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərə yollanan Vətən övladlarının əmək haqlarının ödənişini həyata keçirməklə yanaşı, onların ailələrinin yanında oldular, ehtiyaclarını qarşıladılar. Konfederasiyanın rayon nümayəndələri öz imkanları daxilində şəhid və qazilərimizin ailələrinə dəstək verərək, çətin günlərdə onları tək qoymadılar.

Sahibkarlar tərəfindən göstərilən maliyyə yardımlarının operativ və vahid mərkəzdən idarə edilməsi məqsədilə 2020-ci il sentyabrın 30-da müraciət qəbul edildi. Bütün ölkə vətəndaşları kimi, qəlbi Qarabağda, ordumuzla birlikdə döyünən sahibkarlarımızın Silahlı Qüvvələrə Yardım Fonduna ianələri təşkilatlandırıldı və cəbhəyanı bölgəyə göstərilən yardımların vahid və sistemli şəkildə ünvana çatdırılması üçün müvafiq dövlət strukturları ilə əlaqələndirmə işləri aparıldı. Düşmənin mülki şəxslərin yaşadığı kənd və şəhərlərimizi bombalaması nəticəsində xeyli sayda vətəndaşlarımızın müvəqqəti sığınacaqlara yerləşdirilməsi ilə əlaqədar sahibkarlarımız yardım aksiyalarına başladılar. Azərbaycan Sahibkarlar Konfederasiyası həmin rayonlardakı nümayəndələrindən aldığı məlumatlar əsasında insanların gündəlik ehtiyaclarının təmin edilməsində yaxından iştirak etdilər. Sahibkarlar şirkətlərə məxsus avtomobilləri ordumuzun və müvafiq qurumların istifadəsinə verdi, evləri dağıdılmış ailələrin təminatlarının ödənilməsində dövlətlə yanaşı fəal iştirak etdilər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının vitse-prezidentləri Tərtər, Bərdə, Goranboy rayonlarında, həmçinin Gəncədə zərərçəkənlərlə görüşərək, sahibkarlarımızın ordumuzla və xalqımızla bir olduğunu göstərdilər.

Azərbaycan Sahibkarlar Konfederasiyası müharibənin informasiya cəbhəsində də dövlətimizin yanında oldu. Konfederasiya lobbiçilik fəaliyyəti göstərdiyi və üzvü olduğu bütün beynəlxalq biznes və işəgötürən təşkilatlara mövcud vəziyyət və Azərbaycanın antiterror əməliyyatları aparması ilə bağlı gerçəkləri bəyan etdi. Eyni zamanda xarici dövlətlərdəki nümayəndələrini səfərbər edərək, həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün onları məlumatlarla təmin etdi. Tez bir zamanda Azərbaycanın haqq işinin dəstəkləndiyini göstərən məktublar daxil olmağa başladı. Konfederasiyaya ilk belə məktub Türk Ticarət və Sənaye Palatasının üzvü, qardaş Türkiyə sahibkarlarının birləşdiyi ən böyük təşkilatlardan biri - Türkiyə Odalar və Borsalar Birliyindən və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasından gəldi. Bundan sonra Türkiyənin müxtəlif biznes birliklərindən, İtaliya- Azərbaycan Ticarət və Sənaye Palatasından və digər təşkilatlardan məktublar daxil oldu. Məktublarda Azərbaycanın ərazi bütövlüyünün tanındığı və haqqın qələbə çalması arzuları yer alırdı.

2020-ci il oktyabrın 11-də Azərbaycanın qədim şəhəri olan Gəncənin ballistik raketlərlə vurulması və nəticədə körpə uşaqlar da daxil olmaqla 10 nəfərin həlak olması, 40-dan çox insanın yaralanması ilə nəticələnən terror aktı sahibkarlarımızı da sarsıtdı. Konfederasiya bununla bağlı 60-dan çox beynəlxalq təşkilata məktublar göndərdi və eləcə də xarici nümayəndələrimiz öz sosial şəbəkə hesablarında xüsusi paylaşımlar etdilər, çalışdıqları ölkələrdə şəhidlərlə bağlı xüsusi anım guşəsinin yaradılmasında aktiv rol oynadılar.

Azərbaycan Sahibkarlar Konfederasiyası müharibənin çətin dövründə tədbir keçirərək Türk Ticarət və Sənaye Palatasının üzvlərinin növbədənkənar Bakı görüşünü reallaşdırdı. 2020-ci il noyabrın 2-də "Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda növbədənkənar görüşə Türk Ticarət və Sənaye Palatasının, Türkiyə Odalar və Borsalar Birliyinin (TOBB) prezidenti Rifat Hisarciklioğlu, Türk Şurasının Baş katibi Bağdad Amreyev, Qazaxıstan Sahibkarlarının Milli Palatasının (Atameken) sədri Ablay Mirzahmedov, Özbəkistan Ticarət və Sənaye Palatasının sədri Adxam İkramov, Qırğızıstan Ticarət və Sənaye Palatasının prezidenti Marat Şarşekeyev qatıldılar. Tədbir çərçivəsində növbədənkənar iclasda iştirak edən qonaqlar Prezident İlham Əliyev tərəfindən də qəbul edildilər. Tədbirin sonunda Türk Ticarət və Sənaye Palatasının növbədənkənar iclasının Yekun Bəyanatı qəbul olundu. Bəyanatda palata üzvləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində həll olunmasının vacibliyini bir daha vurğuladılar.

Eyni zamanda Türk Ticarət və Sənaye Palatası adından Azərbaycanın cəbhə bölgəsində yaşayan, Ermənistanın hərbi təcavüzü nəticəsində zərərçəkən mülki əhali üçün humanitar yardımın yola salınması təşkil olundu.

2020-ci ilin 10 noyabrında üçtərəfli Bəyanatdan keçən qısa müddətdən sonra, noyabrın 19-da Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyətinin geniştərkibli iclası oldu. Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrünə həsr edilən iclasda Zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərdə gələcək biznes imkanları müzakirə edildi. İclasda sahibkarların üzərinə böyük vəzifələr düşdüyü vurğulandı, Rəyasət Heyətinin imzası ilə Prezident İlham Əliyevə müraciət ünvanlandı.

İclasda həmçinin işğaldan azad olunmuş ərazilərdə biznes qurmaq istəyən sahibkarlardan biznes ideya və planların qəbul edilməsi məqsədilə xüsusi Komissiya yaradıldı. Qısa bir zamanda komissiyaya, ümumilikdə, 160-a qədər təklif daxil oldu və bu təkliflərin arasından seçilənlər hökumətə təqdim edildi.

Qələbəni xalqımıza bəxş edən, torpaqlarımızın azadlığı uğrunda şəhidlik zirvəsinə ucalan və döyüşlərdə yaralanan qazilərimizə qayğı göstərilməsi məqsədilə "YAŞAT" Fondunun yaradılması xüsusi sevinclə qarşılandı. Azərbaycan Sahibkarlar Konfederasiyasının Rəyasət Heyəti pərakəndə şəkildə göstərilən yardımları mərkəzləşdirərək, qayğıya ehtiyacı olan hər bir igidimizin diqqətdə saxlanılması üçün "YAŞAT" Fondu ilə sıx əməkdaşlığa başladı və bu əməkdaşlıq indi də davam edir. Eyni zamanda azad olunmuş ərazilərə böyük qayıdışa hazırlıq məqsədilə əsası qoyulan Qarabağ Dirçəliş Fonduna ianələr edən üzvlərimiz investisiyalar qoymaqla həmin torpaqlarımızda məşğulluğu təmin etmək üçün planlar üzərində işləyirlər. Əminik ki, bu planlar Qarabağın ümumi inkişaf planının bir hissəsi kimi realizə olunacaq və Azərbaycanın ümumi inkişafına təkan verəcək.

Azərbaycanın böyük Qarabağ zəfərinə nail olmasında əsas komponentlərdən biri iqtisadiyyatımızın inkişafıdır ki, bu konsepsiyanın da əsasını Ümummilli Lider Heydər Əliyev qoymuşdur. "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir", - deyən Ulu Öndər güclü ölkənin bünövrəsini qoyacaq iqtisadi islahatlara başlamış və böyük dövlətlərin Azərbaycanda iqtisadi maraqlarını balanslaşdıran "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmuşdur. Beləliklə, Azərbaycan Avropanın, Qərbin enerji təhlükəsizliyində söz sahibinə çevrilmiş və iqtisadi inkişafın, dövlət müstəqilliyinin möhkəm təminatının bünövrəsi qoyulmuşdur. Azərbaycanın bu uğurlarını davam etdirən Prezident İlham Əliyev peşəkar siyasətçi, diplomat kimi Ulu Öndər Heydər Əliyevin Qarabağı işğaldan azad etmək vəsiyyətini gerçəkləşdirmək üçün böyük daxili islahatlar apardı, ölkəmizin strateji müttəfiqi olan Türkiyə ilə bütün sahələrdə əlaqələri daha yüksəklərə daşıdı.

"Qarabağ Azərbaycandır" nidasını beynəlxalq kürsülərdən qürurla səsləndirən, qurucu, yaradıcı, torpağına azadlıq gətirən, Azərbaycan Ordusuna və xalqına arxalanan İlham Əliyev dövlət sərhədlərini bərpa edən, 30 illik işğal siyasətinə son qoyan, Qarabağa azadlıq, sülh, rifah gətirən Ali Baş Komandandır. Bu yolda onun həm ön cəbhədə yoldaşı, həm də mənəvi sirdaşı olan Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın da əməyi böyükdür. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən bir dövlət xadimi olmaqla yanaşı, milli dəyərlərə böyük sevgisi, humanizmi, nəcib xanımlığı ilə xalqımızın qəlbində dərin ehtiram qazanıb. Məhz Birinci vitse-prezidentin də yaxından iştirakı ilə işğaldan azad olunmuş torpaqlarımızda müasir yaşayış kompleksləri, infrastruktur qurulur, "ağıllı kənd", "ağıllı şəhər" layihələrinin uğurla icrasına başlanılıb. İlk mərhələdə Ağalı kəndində həyata keçiriləcək layihənin icrası 5 komponenti - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələrini əhatə edəcək. Əsas məqsəd isə elektron xidmətlərdən istifadənin genişləndirilməsi, kəndlərdə və regionun ucqar ərazilərində davamlı inkişafın təmin edilməsidir.

Hazırda bütün dünyada iqtisadi inkişaf zəifləyib. Bəzi böyük dövlətlərdə resessiyaların şahidi oluruq. Buna baxmayaraq, Azərbaycan 2021-ci ilə iqtisadi inkişaf hədəflərini açıqlayıb. Prezident tərəfindən qüdrətli dövlət və yüksək rifah cəmiyyəti naminə "Azərbaycan 2030: Milli Prioritetlər" təsdiq olunub. Prioritetlərə əsasən, dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

Bunun üçün iqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır.

Sözsüz ki, dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu böyük qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Bu günün çağırışlarından biri də şəhid ailələrinin, qazilərimizin məşğulluğunun təmin edilməsidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşəbbüsü ilə başlanan "Məşğulluq marafonu"nda iştirak edən üzvlərimiz müxtəlif peşələr üzrə vakansiyalar elan edirlər. Marafonda aktivliyin daha da artması üçün konfederasiyanın prezidenti də videoçağırışla sahibkarlara müraciət etmişdir.

Qarşımızda Qarabağ torpaqlarını yenidən dirçəltmək kimi şanlı missiya dayanır. Bu məqsədlə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti artıq müvafiq infrastruktur işlərinə başlayıb. Müharibə dövründə dövlət başçısının ətrafında sıx birləşərək "Dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəldilməsi naminə səylərini daha da gücləndirəcəklər. Bu məqsədlə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası da öz növbəsində üzv olduğu beynəlxalq təşkilatlar, xaricdə yaşayan azərbaycanlı iş adamları, eləcə də milli sahibkarlarımızın imkanlarından istifadə etmək məqsədilə geniş tədbirlər görür.

*Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq bu yeni tarixi mərhələdə qüdrətli və müdrik liderimiz İlham Əliyevin rəhbərliyi altında işğaldan azad olunan ərazilərimizin yenidən qurulması, Qarabağımıza böyük qayıdışın təmin edilməsi, dövlətimizin daha da güclənməsi və rəqabətə davamlı istehsalın genişləndirilməsi naminə bütün gücümüzü səfərbər edərək, əlverişli biznes mühitindən yararlanmaqla əhalinin rifah halının yaxşılaşdırılması kimi şanlı missiyanın həyata keçirilməsində bütün imkanlarımızı səfərbər edəcəyik.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

## Nazirlər Kabineti ictimai nəqliyyatın fəaliyyətinə dair qərar qəbul edib

Nazirlər Kabineti "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edib.

AZƏRTAC xəbər verir ki, Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında həftəsonları, o cümlədən 2021-ci il iyulun 17-də ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırılması müəyyən edilmişdi.

Məlum olduğu kimi, Nazirlər Kabinetinin 2021-ci il 1 iyul tarixli 194 nömrəli Qərarı ilə iş və istirahət günlərinin ardıcıllığını təmin etmək məqsədilə 2021-ci il 19 iyul iş günü ilə 17 iyul istirahət gününün yerləri dəyişdirilib və 18-21 iyul tarixləri qeyri-iş günü olaraq müəyyən edilib.

Bu baxımdan 17 iyul tarixinin iş günü olduğunu nəzərə alaraq, Nazirlər Kabineti tərəfindən həmin tarixdə ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin bərpa olunması barədə qərar qəbul edilib.

Digər dəyişikliyə əsasən, 18 iyul saat 00:00-dan 22 iyul saat 06:00-dək ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılacaq.

## Koronavirusun «Delta» ştammı ölkəmizdə də aşkarlanıb

### Dünyanı bürüyən COVID-19-un bütün növlərindən qorunmağın yeganə yolu vaksinasiyadır

*Əvvəli 1-ci səh.*

Dünyada və ölkəmizdə aparılan tədqiqatlardan əldə olunmuş nəticələrin təhlili bir daha göstərir ki, virusun yeni və sürətlə yayılan təhlükəli variantlarından da qorunmağın ən səmərəli yolu vaksinasiyadır. Bu gün ölkəmizdəki sabit epidemioloji vəziyyətə görə aparılan vaksinasiyaya borcluyuq. Buna görə də bütün vətəndaşlarımızın vaxt itirmədən vaksinasiya olunması çox vacibdir.

Unutmamalıyıq ki, vaksinasiya ilə yanaşı, fiziki məsafənin saxlanılması, maskalardan istifadə və əl təmizliyi kimi məsələləri, təyin olunmuş digər qaydalara əməl edilməsi, virusun variantından asılı olmayaraq, xəstəlikdən qorunmağın, dünyada və ölkəmizdə normal həyata qayıtmağın yeganə yoludur.

Aparılan araşdırmalara görə, "Delta"ya yoluxmalar ilkin olaraq mədə-bağırsaq pozulmaları ilə müşahidə edilir. Bu ştamma yoluxanlar, adətən, qarın ağrısından şikayətlənirlər. Qeyd edilən simptomlar eyni zamanda baş ağrısı, öskürək, halsızlıq, əzələ ağrıları ilə də özünü paralel göstərə bilir. Bunlardan başqa, qusma və hərarətin yüksəlməsi də "Delta"nın əlamətlərindən ola bilir.

ÜST-ün məlumatına görə, peyvənd olunanlar bu ştamma yoluxarlarsa belə xəstəliyi yüngül keçirirlər. Bundan başqa, vaksinasiyadan keçənlərin "Delta" ilə xəstəxanaya yerləşdirilənlərin faizlərinin də çox aşağı olduğu qeyd edilir. Üstəlik, peyvənd olunanların əksəriyyəti xəstəliyi yüngül assimatik keçirir.

ÜST-ün Azərbaycan nümayəndəliyinin rəhbəri Hande Harmanci mətbuata açıqlamasında vurğulayıb ki, koronavirusa yoluxma sayları azalsa da, ümumi vəziyyəti nəzarətdə saxlamaq lazımdır. Onun sözlərinə görə, qarşıdan gələn payız fəslində, daha doğrusu, sentyabr, oktyabr aylarında koronavirusa yoluxma saylarında yenidən artım olacağı istisna edilmir: "Başqa ştamlar da ola bilər. ÜST olaraq daim bunları monitorinq edirik. Pandemiya hələ bitməyib, amma hava düzəlib. Buna görə optimistik. Bununla belə, hamı özünü qorumalıdır".

ÜST-ün ölkəmizdəki rəsmisi həmçinin hər il hipertoniyadan minlərlə insanın öldüyünü də bildirir: "Düzgün müalicə olsalar, onlar həyatlarını itirməyə bilərlər. Bunlar gənc yaşda ölən insanlardır. Hər il təkcə hipertoniya xəstəliyi iqtisadiyyatda 600 milyon manat itkiyə səbəb olur. Təkcə Şamaxıda 19 min nəfər hipertoniya xəstəliyindən əziyyət çəkir. Onlardan yalnız 2400-ü xəstə olduğunu bilib, müalicə edilənlərdir. Digərləri ölüm riskinə aiddir".

Bütün bu kimi göstəricilər insanların öz sağlamlıqlarının qeydinə vaxtında qalmamasını təsdiqləyən faktlardır. ÜST rəsmisinin də bu məsələyə açıq münasibəti ondan irəli gəlir ki, pandemiya şəraitində digər xəstəliklərin müayinə və müalicəsi arxa plana keçir ki, bu da çox təhlükəlidir. Ona görə COVID-19-dan, eləcə də onun mutasiyalarından doğulan yeni ştamlardan xilas olmağın yolu öz əlimizdədir. Bir qayda olaraq, Nazirlər Kabineti yanında Operativ Qərargahın, Səhiyyə Nazirliyi ilə TƏBİB-in tələb və təkliflərinə, eləcə də tövsiyələrinə və digər təlimatlara əməl olunmalıdır. Bu kimi çox sadə üsullar isə belədir: sosial məsafəni gözləmək, tibbi maskalardan istifadə və gigiyenik qaydalara əməl etmək.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# İnsan amilinə xidmət edən mütərəqqi siyasət

## İcbari tibbi sığorta bütün ölkə üzrə uğurla tətbiq olunur

Sağlam ömür yaşamaq, xəstəliklərdən uzaq olmaq hər bir insan üçün həyatının əvəzolunmaz sərvətidir. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan dövləti bu məsələdə hər zaman vətəndaşının yanındadır və əhalinin sağlamlığının qorunması Prezident İlham Əliyevin xüsusi diqqət mərkəzindədir. Respublikamızda tibb sahəsində aparılan köklü islahatlar, səhiyyə sisteminin maddi-texniki bazasının gücləndirilməsi, müasirləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması buna bariz nümunədir.






### Məqsəd vətəndaşların sağlamlığıdır

Əhalinin sağlamlığının qorunmasına yönəlik və həmrəylik prinsipinə əsaslanan sosial layihə olan icbari tibbi sığortanın bu ildən etibarən respublikamızda tam tətbiqi də bir daha təsdiq edir ki, həyata keçirilən dövlət siyasətinin mərkəzində, ilk növbədə, insan amili dayanır. İcbari tibbi sığorta tibbi xidmətlərin vətəndaş tərəfindən tam ödənişsiz əldə olunması üçün tətbiq olunan sistemdir. Məqsədi tibbi xidmətləri vətəndaşlar üçün əlçatan etmək, əhalini sağlamlığı ilə bağlı maliyyə risklərindən qorumaq və səhiyyə sisteminin maliyyələşdirilməsini dayanıqlı iqtisadi əsaslarla təmin etməkdir. Bu, tibb sektorunun yeni maliyyələşmə metodudur. Ona görə icbari tibbi sığorta həm də səhiyyə sahəsinə ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsinə zəmin yaradır.

Xatırladaq ki, Prezident İlham Əliyevin fərmanlarına əsasən, Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında icbari tibbi sığorta pilot layihə kimi həyata keçirilib. 2017-2019-cu illər ərzində keçirilmiş layihənin nəticələri dövlət başçısı tərəfindən yüksək qiymətləndirilib və sistemin ölkənin digər ərazilərində mərhələli tətbiqinə dair qərar verilib. Bu il yanvarın 1-dən Azərbaycanda icbari tibbi sığortanın ikinci mərhələdə tətbiqinə başlanılıb. Ölkənin Gəncə, Şirvan, Qazax, Lənkəran, Salyan da daxil olmaqla, daha 36 şəhər və rayonu icbari tibbi sığorta sisteminə qoşulub. Aprelin 1-dən isə tibbi sığorta bütövlükdə ölkə ərazisini əhatə edib. Sonuncu - üçüncü mərhələdə Bakı, Sumqayıt, Abşeron, Xankəndi, Qubadlı, Zəngilan və Şuşa əhalisi icbari tibbi sığorta sisteminə cəlb olunublar. Beləliklə, 2021-ci ilin 1 aprel tarixindən isə icbari tibbi sığorta bütün ölkə ərazisini əhatə edir.

### 2550 sayda tibbi xidmət

İcbari tibbi sığorta çərçivəsində göstərilən tibbi xidmətlər "Xidmətlər Zərfi"ndə əks olunub. Hazırda "Xidmətlər Zərfi"nə 2550-yə yaxın tibbi xidmət daxildir. Vətəndaşlar 35 ilkin səhiyyə, 6 təcili və təxirəsalınmaz tibbi yardım, 508 ixtisaslaşdırılmış ambulator yardım, 731 laboratoriya, 26 fizioterapiya, 39 invaziv radiologiya və 1205 stasionar tibbi xidmətdən istifadə edə bilirlər.

İcbari tibbi sığortanın uğurlu tətbiqi üçün ilkin səhiyyə xidmətinin inkişafı və səmərəli təşkili əsas məsələdir. Bu xidmət sayəsində xəstəliklərin erkən aşkarlanması və xəstənin vaxtında müalicəsi mümkün olur. İcbari tibbi sığortada ilkin səhiyyə xidməti ailə həkimi (sahə-terapevti, sahə-pediatrı) tərəfindən göstərilir. Burada tibbi xidmət çərçivəsində ixtisaslaşdırılmış yardım tələb etməyən vəziyyətlərin, xəstəliklərin diaqnostikası və müalicəsi, ixtisaslı həkimlərə sığortaolunanların müayinə və müalicəsi üçün göndərişlərin verilməsi, tibbi profilaktik tədbirlər və tibbi-sanitar maarifləndirmə işinin aparılması, eyni zamanda qanın ümumi analizi üçün qan nümunəsinin alınması və s. xidmətlər qarşılanır.

"Xidmətlər Zərfi"ndə daha çox yer alan stasionar tibbi xidmət terapevtik və cərrahi növlərdən ibarətdir. Buraya ixtisaslı həkimin müayinəsi, stasionar müalicə önü tələb olunan müayinələr, instrumental və laborator müayinələrin aparılması, cərrahi əməliyyat, stasionar və ya reanimasiyada yatış və s. aiddir. Daha dəqiq ifadə etsək, stasionar tibbi xidmətlərə miokard infarktı, beyin insultu, ürəyin işemik xəstəliyi, ürək çatışmazlığı və digər qan dövranı sistemi xəstəlikləri, eləcə də mədə-bağırsaq xəstəliklərinin, uroloji xəstəliklərin, infeksion və parazitar xəstəliklərin müalicəsi, o cümlədən hamiləlik, doğuş və zahılıq dövründə xəstəliklərin müalicəsi, travmalar, yanıqlar, zəhərlənmələr zamanı müalicə və digər xəstəliklərin müalicəsi daxildir. Bu xidmətlər 3500-dən artıq diaqnozu əhatə edir.

"Xidmətlər Zərfi" ilə fizioterapiya xidmətləri də təminata alınır. Bunlara elektroforez, fonoforez, müalicəvi masaj, maqnitterapiya, vakum terapiya və s. xidmətlər daxildir. Fizioterapiya xidmətlərinə sığorta limiti tətbiq olunur. Belə ki, il ərzində hər bir fizioterapiya xidməti üzrə 10 prosedurdan artıq olmamaq şərtilə həkimin göndərişi əsasında sığortaolunana xidmət göstərilir.

### On min manata başa gələn ürək əməliyyatı artıq ödənişsizdir

Koxlear protez cihazının implantasiyası və ya dəyişdirilməsi, oynaqdaxili endoprotezlərin yerləşdirilməsi, açıq və qapalı ürək əməliyyatları - aorto-koronar şuntlama əməliyyatı, ürək qapaqlarında aparılan əməliyyatlar, anadangəlmə ürək qüsurlarının cərrahi müalicəsi, eləcə də minimal invaziv üsulla həyata keçirilən kardiocərrahiyyə əməliyyatları və s. kimi 950 sayda cərrahi əməliyyat "Xidmətlər Zərfi" ilə qarşılanır.

Vətəndaşlara icbari tibbi sığorta çərçivəsində tibbi xidmətlər Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində olan dövlət tibb müəssisələrində göstərilir. Vətəndaş qeydiyyatda olduğu ərazi üzrə dövlət tibb müəssisəsinə müraciət edir, həmin tibb müəssisəsində ona lazım olan tibbi xidmətin göstərilməsi mümkün olmursa, müqaviləli tibb müəssisələrində göndəriş əsasında tibbi xidmətlər göstərilir. Tibbi xidmətlərə göndəriş vərəqəsi TƏBİB-in tabeliyindəki tibb müəssisəsi tərəfindən verilir.

Müqaviləli tibb müəssisələrinə təkcə dövlət tibb müəssisələri deyil, özəl xəstəxanalar da aiddir. Elə xidmətlər var ki, onları dövlət xəstəxanası göstərə bilmir. Ona görə də özəl tibb müəssisələri ilə müqavilələr imzalanır. Özəl xəstəxanaların seçimi prosesində müəyyən meyarlar nəzərə alınır. Məsələn, belə müəssisələr daha geniş spektrda xidmət təklif edən xəstəxanalar olmalıdır ki, vətəndaş ona lazım olan ambulator və ya stasionar tibbi xidməti əldə edə bilsin.

Beləliklə, vətəndaş ödəniş etmədən həmin xidmətlərdən yararlana bilir. Məsələn, icbari tibbi sığorta tətbiq edilmədən öncə vətəndaş açıq ürək əməliyyatı üçün on min manata yaxın ödəniş etməli idi. Hazırda isə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi müqaviləli özəl tibb müəssisələrində bu xidmətləri ödənişsiz şəkildə təmin edir. Bunun üçün ilkin mərhələdə vətəndaşın tibbi müayinələrdən keçməsi lazımdır. Həmin müayinələr TƏBİB-in tabeliyində olan dövlət tibb müəssisələrində həyata keçirilir. Diaqnoz təsdiq olunduqdan sonra növbəti mərhələdə həmin şəxsin açıq və ya qapalı ürək əməliyyatına ehtiyacı varsa, bu xidməti göstərmək imkanına malik olan müqaviləli tibb müəssisəsinə göndəriş verilir.

Yatış və əməliyyat zamanı istifadə olunan dərman və tibbi sərf, koxlear implant sistemi, nitq prosessoru, stent, endoprotez və digər xüsusi tibbi sərflər də "Xidmətlər Zərfi" ilə təminata alınıb.

### Tibbi xidmətlərin sayı artacaq

"Xidmətlər Zərfi"nə rəsmi statistik göstəricilərə əsasən, son 5 il müddətində əhali arasında əlillik və ölüm faizi yüksək olan xəstəliklər, eləcə də sayında davamlı artım müşahidə olunan sağlamlığın pozulması ilə bağlı digər xəstəliklər daxil olunub. Bununla belə hər il İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi vətəndaşların tibb müəssisələrinə müraciətlərini araşdırır, ən çox rast gəlinən xəstəlikləri, ən çox müraciət edilən tibbi xidmətləri və "Xidmətlər Zərfi"nə daxil olmayan tibbi xidmətlərə ehtiyacları müəyyənləşdirir. Bütün bunların nəticəsində də "Xidmətlər Zərfi"nə dəyişikliklərin edilməsi ilə bağlı əsaslandırılmış təklifin təqdim olunması barədə qərar verilir. Hazırda "Xidmətlər Zərfi"ndə dəyişikliklərin edilməsi, tibbi xidmətlərin sayının və çeşidinin artırılması ilə bağlı layihə hazırlanıb və aidiyyəti qurumlara təqdim olunub. Dəyişikliyə əsasən 2800-dən çox tibbi xidmətin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərdə tutulur.

Məlum olduğu kimi, bir sıra xəstəliklərlə bağlı dövlət proqramları mövcuddur və bu səbəbdən onlar "Xidmətlər Zərfi"nə daxil edilməyib. Dövlət proqramlarının icra müddəti bitdikdən sonra həmin xəstəliklərin də müayinə və müalicəsi ilə bağlı xidmətlərin "Xidmətlər Zərfi"nə daxil edilməsi nəzərdə tutulur. Kosmetik prosedurlar və plastik cərrahiyyə, stomatoloji xidmətlər, orqan transplantasiyası, süni mayalanma və s. kimi tibbi xidmətlər icbari tibbi sığorta çərçivəsində təminata alınmır.

İstənilən sahədə islahatların uğurlarını şərtləndirən mühüm amillər var. Şəffaflığın təmin olunması, mütərəqqi idarəçilik və kadr potensialından düzgün istifadə istisnasız əsas şərtlər sırasında yer alır. İcbari tibbi sığorta sisteminin tətbiqi zamanı da qarşıya qoyulan hədəflərə uğurla çatmaq üçün düzgün həkim-kadr siyasətinin həyata keçirilməsi, vətəndaş müraciətlərinə çevik reaksiya göstərilməsi, tibbi sərfiyyatdan optimal istifadə, bu məqsədlə satınalmalar zamanı büdcə vəsaitlərinin səmərəli xərclənməsi vacibdir.

Bu baxımdan icbari sığorta sistemi yalnız tibb müəssisələrinin yeni strukturlarının yaradılması ilə bitmir. Vətəndaşlara keyfiyyətli tibbi xidmətin göstərilməsi üçün kadrlar düzgün seçilməli, zamanın tələbinə uyğun tibbi texnika ilə təminat həyata keçirilməlidir. Bu prosesdə şəffaflığın təmin olunması, sığorta haqlarının səmərəli istifadəsi icbari tibbi sığortanın daha da effektiv tətbiqinə, vətəndaşlarda icbari tibbi sığortaya etimadını daha da güclənməsinə və tibbi xidmətin zamanla daha yüksək səviyyəyə çatmasına yol açacaq.

*Azərbaycanda vətəndaşların keyfiyyətli tibbi xidmətlə təmin olunması Prezident İlham Əliyevin uzaqgörənliklə yürütdüyü sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu sahədə mühüm addımlardan biri olan icbari tibbi sığortanın tətbiq olunması isə özünü uğurla doğrultmaqdadır. Bu sistem tədricən daha da təkmilləşəcək və nəticədə həm əhalinin daha çox tibbi xidmətlərə əlçatanlığı artacaq, həm də tibb müəssisələrinin infrastrukturu yaxşılaşacaq.*

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı, parlamentin Səhiyyə komitəsinin üzvü***

# Musa Məmmədovun bu gün də yeri görünür

Musa müəllimlə tanışlığımın tarixçəsi cəmi 11 il olsa da, mənə elə gəlirdi ki, onu lap çoxdan tanıyıram və sanki bu ləyaqətli insanla uzun illər dostluq etmişəm, birlikdə çalışmışam. Bunun sadə bir səbəbi var. Musa müəllim tələbəlik-gənclik dövründən üzü bəri həyatının bütün mərhələlərini, keçdiyi həyat yolunu, elmi, pedaqoji, dövlət orqanlarındakı xidməti fəaliyyəti ilə bağlı ən mühüm məqamları mənə danışar və mən də çox böyük həvəslə onun söhbətlərini dinləyərdim. Ona görə də mənə elə gəlirdi ki, Musa müəllimi elə onun gənclik illərindən tanıyıram.



Həyat və tale elə gətirdi ki, mən 2008-ci ildən aqrar siyasət məsələləri ilə məşğul olmağa başladım. Musa müəllimlə tanışlığımız da həmin ilə təsadüf etdi. O, Nazirlər Kabinetində Baş nazirin aqrar məsələlər üzrə müşaviri idi. Aqrar sahənin ağsaqqalı hesab etdiyimiz Musa müəllimin həmin dövrdən etibarən həm mənəvi, həm də sahənin mükəmməl bilicisi kimi peşəkar dəstəyini gördüm. Rəsmi və xidməti əməkdaşlığımız az sonra səmimi münasibətə çevrildi. Gündə 2-3 dəfə danışırdıq, sual doğuran məsələləri onunla məsləhətləşirdim. Kənd təsərrüfatının özəlliklərini, aqrar bilikləri Musa müəllimdən öyrəndiyim üçün onu həm də bu sahədə böyük müəllimim hesab edirdim.

Musa Məmmədov Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə aqrar sahə ilə bağlı dövlət qurumlarında mühüm və məsul vəzifələr tutub. O, həmişə 70-80-ci illərdə Azərbaycanda aqrar-sənaye kompleksinin inkişafı sahəsində Heydər Əliyevin tarixi xidmətlərindən, həmin dövrdə kənd təsərrüfatında əldə edilmiş uğurlu nəticələrdən həvəslə və qürurla söhbət açırdı.

O, aqrar sahənin mövcud vəziyyətinə və inkişaf perspektivlərinə çox geniş rakursdan baxır, təhlil edir və doğru nəticələrə gəlirdi. Həm təcrübəli dövlət məmuru, həm də kənd təsərrüfatının ən xırda incəliklərini və sirlərini bilən aqronom alim kimi Musa müəllimin məsələlərə özünəməxsus münasibəti vardı. O, kənd təsərrüfatının inkişafında aqrar elmin əhəmiyyətini, rolunu yüksək dəyərləndirirdi və bunu sübut edirdi.

Musa müəllim olduqca ədalətli, dürüst, vicdanlı, səmimi və ləyaqətli bir insan idi. Bu cəhətlər alim və müəllim, məmur və dövlət xadimi, ağsaqqal və dəyərli bir insan, etibarlı dost və nümunəvi ailə başçısı kimi xarakterini və təbiətini səciyyələndirməklə ona kamil şəxsiyyət keyfiyyəti qazandırmışdır. Elə bu səbəbdən istənilən gənc mütəxəssis və ya məmur Musa müəllimdən dəyərli keyfiyyətlər əxz edirdi. Ondakı alicənablıq, kübarlıq, əməksevərlik, prinsipiallıq, səbir və təmkin, təvazökarlıq yaşından asılı olmayaraq hər kəs üçün nümunə idi.

Bizim birlikdə bir neçə dəfə kənd təsərrüfatı məsələləri ilə bağlı rayonlara səfərlərimiz olub. O, hər bir rayonun aqrar sahədə xüsusiyyətlərini, problemlərini, potensialını, ixtisaslaşma məsələlərini çox mükəmməl bilirdi. Hər bir rayonun 70-80-ci illərdə müxtəlif kənd təsərrüfatı məhsulları üzrə hansı istehsal, əkin sahəsi, məhsuldarlıq göstəricilərinə bələd idi. Elə bu üzdən ölkədə aqrar sahə üzrə fəallığın artdığı bir vaxtda rayon rəhbərləri pambıqçılıq, tütünçülük, taxılçılıq və s. bu kimi məsələlərlə bağlı Musa müəllimə müraciət edir, onunla məsləhətləşirdilər.

Musa müəllim aqrar sahənin mükəmməl bilicisi olmaqla yanaşı, onda sahə ilə bağlı çox güclü təəssübkeşlik hissi də vardı. Rayonlara səfərlərimiz vaxtı o yolboyu sahələrdə gedən becərmə işlərini diqqətlə izləyir, aqrotexniki qaydaları gözləməyən fermerlərə, sahibkarlara iradlarını bildirir, tövsiyə və məsləhətlərini verir, eyni zamanda şumu, səpini, suvarmanı, gübrələnməni vaxtında aparmayan rayonların rəhbərlərini ərkyana tənbeh edirdi.

Torpaqdan səmərəli istifadə, kəndin inkişafı, regionlarda məşğulluq, fermerlərin istehsal etdikləri məhsulların satış problemləri, bitkiçiliyin bəzi sahələrində aşağı məhsuldarlıq, bir çox hallarda əkinçilik mədəniyyətinə əməl edilməməsi, emal sənayesinin mövcud durumu, ölkəmizin taxıl məhsulları ilə etibarlı təminatı, ərzaq təhlükəsizliyi və s. bu kimi məsələlər Musa müəllimi həmişə düşündürür və qayğılandırırdı.

Musa müəllim ömrünün son on ili ərzində Prezident İlham Əliyevin aqrar sahədə müəyyən etdiyi dövlət siyasətinin müxtəlif istiqamətlərinin hazırlanmasında və həyata keçirilməsində yaxından iştirak etmişdir. 2016-cı ildən başlayaraq dövlət başçısının ümumi rəhbərliyi ilə ölkəmizdə kənd təsərrüfatının mövcud potensialının hərəkətə gətirilməsi və bu sahədə imkanların səfərbər edilməsi istiqamətində genişmiqyaslı tədbirlərə start verəndə Musa müəllimin dəyərli məsləhət və tövsiyələri köməyə gəlirdi. Kənd təsərrüfatının müxtəlif məsələləri ilə bağlı qərarlar, dövlət proqramları hazırlanarkən, müvafiq qurumların rəhbərlərinin iştirakı ilə müzakirələr aparılarkən Musa müəllim də dəvət edilir, onun məsləhət və tövsiyələri dinlənilirdi. Təsadüfi deyil ki, Musa Məmmədov aqrar sahədəki çoxillik fəaliyyətinə və xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülmüşdür. O, dövlət başçısının aqrar sahədə qarşıya qoyduğu vəzifələrin vacibliyini, strateji əhəmiyyətini həssaslıqla hiss edir, çox yüksək qiymətləndirir və onların icrası üçün fədakarlıqla çalışırdı, özü də qətiyyətli mövqe və prinsipiallıqla. Çünki Musa müəllimin sahəyə rəhbərlik etmiş dövlət məmuru kimi həm çoxillik təcrübəsi, həm də aqronom alim kimi məsələlərə elmi yanaşması vardı. O, yaxşı bilirdi ki, kənd təsərrüfatının hər bir məsələsi aqrar elmi yanaşma tələb edir və burada subyektivliyə və özfəaliyyətə yol verilə bilməz.

İlk baxışdan elə təsəvvür yarana bilər ki, Musa müəllim qayğısız, yalnız uğur və nailiyyətlərlə, karyera yüksəlişləri ilə yadda qalan bir həyat yolu keçib. Əslində isə o, həyatın ən çətin və ağır sınaqları ilə üz-üzə gəlmişdi. Amma nə qədər çətin olsa da, mətinliyini və dəyanətini itirməmiş, sınmamış, ən ağır dərdə belə sinə gərə bilmişdi.

Bu gün də aqrar məsələlərlə bağlı müzakirələrdə həmkarlarımız tez-tez Musa müəllimin fikirlərinə, tövsiyələrinə istinad edirlər. Danmırıq - aqrar sahədə dövlət siyasətininin istər hazırlanması, istərsə də həyata keçirilməsi prosesində Musa müəllimin yeri çox görünür.

**Azər ƏMİRASLANOV,**
***Azərbaycan Respublikası Nazirlər Kabineti İqtisadiyyat şöbəsinin müdiri***

# Qafqaz Müsəlmanları İdarəsi Qurban bayramı ilə bağlı tövsiyələrini açıqlayıb

Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Qurban bayramı ilə bağlı tövsiyələrini açıqlayıb. AZƏRTAC QMİ-nin Mətbuat xidmətinə istinadla tövsiyələri təqdim edir:

*"İslam aləminin ən əziz və müqəddəs günlərindən biri - "Eyd-ül-Əzha" - Həzrət İbrahim əleyhissəlamın adı ilə bağlı olan Qurban bayramı müqəddəs Qurani-Kərimdə Uca Allah tərəfindən müsəlman ümmətinin böyük sevinc, birlik və fərəh vardır. Ayeyi-şərifdə buyurulur ki: "Rəbbin üçün namaz qıl və qurban kəs!" ("əl-Kövsər" surəsi, 2). Müqəddəs Qurban bayramı əsrlərboyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına və imanlarının kamilləşməsinə xidmət edir. Allah-Təalanın müsəlmanlara bəxş etdiyi müqəddəs Qurban bayramı münasibətilə Qafqaz Müsəlmanları İdarəsi Azərbaycan xalqını və bütün müsəlmanları təbrik edir, Uca Yaradandan hamıya mərhəmət və məğfirət diləyir.*

*AMEA Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən, Azərbaycan üfüqündə Hilalın görünməsinə uyğun olaraq Qurban bayramı Zül-hiccənin 10-na - Miladi təqvimlə 20 iyul tarixinə təsadüf edəcək. Azərbaycanda Qurban bayramı günləri dövlət tərəfindən qeyri-iş günü elan edilmişdir. Bununla bağlı, milli-mənəvi dəyərlərimizin hamısı dövlətimizin başçısı İlham Əliyevi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanı bayram münasibətilə təbrik edir, onlara dindarlarımızın xeyir-dualarını yetirir, dövlət-din münasibətlərinin yüksək səviyyədə inkişafı naminə xeyirxah əməllərinə görə minnətdarlığımızı bildiririk.*

*Bu il Qurban bayramını xalqımız Zəfər ab-havasında qarşılayır. Həmd olsun Allaha ki, Azərbaycan xalqı müdrik dövlət öndəri İlham Əliyevin rəhbərliyi ilə 30 illik erməni təcavüzünə son qoyaraq tarixi ədaləti, Azərbaycanın ərazi bütövlüyünü bərpa edib. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyilə Vətən müharibəsində qəhrəman əsgərlərimizin şücaəti, Silahlı Qüvvələrimizin 44 günlük müharibə zamanı rəşadətlə həyata keçirdiyi əməliyyatlar Haqq işimizdə qələbəni bizlərə nəsib edib. Vətəni sevmək imandandır. Peyğəmbərimizin (s) hədisi-şəriflərdə buyurduğu kimi, haqq yolunda, Vətən torpağı uğrunda şəhid olanlar, imanın, mənəviyyatın ən yüksək zirvəsinə ucalmışlar. Allah Vətən uğrunda, bu şanlı zəfər yolunda canlarından keçmiş, uca şəhidlik məqamına yüksəlmiş övladlarımıza rəhmət eləsin, qəhrəman qazilərimizə şəfa bəxş etsin! Uca Allah Azərbaycan dövlətini və xalqını, onun müdrik rəhbərini hər zaman müzəffər etsin! Amin!*

*Builki Qurban bayramını dünyada hələ də davam edən pandemiya şəraitində qarşılayırıq. Müqəddəs Həcc ziyarəti bu il də təxirə salınıb. Dualar edirik ki, pandemiya tezliklə başa çatsın, bütün niyyətində olanlar müqəddəs məkanları ziyarət edə bilsinlər, inşallah.*

*Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası Qurban bayramına dair aşağıdakı tövsiyələrini çatdırır. Bildiririk ki, qurban kəsmək, əsasən, Məkkədə zəvvarlara vacibdir. Digər yerlərdə isə imkanı olan adamların qurban kəsmələri sünnət əməl hesab olunur. Qurban ətini fəqir və kasıb ailələrə paylamaq böyük savabdır.*

*Şəriət qaydalarına görə, qurban kəsilən heyvan sağlam və kəsimə yararlı olmalıdır. Xəstə, arıq və qüsurlu heyvanlar qurbanlığa münasib sayılmır. Qurban qoyun, keçi, öküz, inək və dəvə ola bilər. Adətən, müəyyən yaş həddinə çatmış heyvanlar kəsilir. Keçi və qoyunun yaşı bir ilə yaxın, öküz və inək bir və ya iki ildən artıq, dəvənin isə beş ili tamam olmalıdır.*

*Qurbanlıq, əsasən, üç hissəyə bölünür: bir hissəni qurban sahibi özünə götürə bilər, digər hissə fəqir və kasıb ailələrə, üçüncü hissəsinin isə hədiyyə kimi qohum-əqrəbaya paylanması tövsiyə olunur.*

*Şəriətə görə, heyvanın üzü qibləyə uzadılaraq, Qurban niyyəti ilə Allahın adı çəkilərək kəsilməsi vacibdir. Tövsiyə edərdik ki, bu müqəddəs bayram günlərində kəsilən qurbanlıqları baytarlıq və sanitariya qayda-qanunlarına ciddi əməl olunmaqla münasib, dövlət tərəfindən xüsusi ayrılmış yerlərdə icra edəsiniz. Qurban kəsimləri Qida Təhlükəsizliyi Agentliyinin paytaxt Bakı və onun ətrafı, habelə ölkə bölgələri üzrə xüsusi ayırdığı məkanlarda şəriət qaydalarına uyğun şəkildə Qafqaz Müsəlmanları İdarəsinin din xadimlərinin nəzarəti ilə həyata keçiriləcək. Kəsim məntəqələrində şəriət qaydaları ilə ələqədar ortaya çıxa biləcək hər hansı məsələlərlə bağlı QMİ-nin yerlərdəki nümayəndələrinə müraciət oluna bilər. Həmin məkanlarda fərdi qaydada Qurban kəsmək istəyənlər üçün də şərait yaradılacaq.*

*Bununla bağlı, dini mərkəz olaraq, bizə ən çox ünvanlanan suallara aydınlıq gətirmək istərdik. Sualların böyük qismi Qurban bayramında qurbanlıq heyvanların sifariş olunma və kəsilmə yerləri ilə bağlıdır. Vətəndaşlar qurbanlıq heyvanları xüsusi ayrılmış kəsim məntəqələrində əldə edə və oradaca kəsimini həyata keçirə bilərlər.*

*Qurbanlıqların əvvəlcədən sifariş edilməklə satış şəbəkəsindən alınması ilə bağlı suallara cavab olaraq bildiririk ki, müvafiq infrastruktura malik olan satış şəbəkələrinin belə sifarişləri qəbul etməsi nəzərdə tutulur. Sifarişlər onlayn qaydada da həyata keçirilə bilər. Qurban bayramı günü sifarişçilərin istəyinə uyğun olaraq qurbanlıq heyvanların sifariş yerində birbaşa təhvil almaları və yaxud kəsilmiş heyvanların sifarişçinin ünvanına çatdırılması nəzərdə tutulur. Bildiririk ki, bu, şəriət qaydalarına zidd deyildir. Belə ki, sifariş və satış məntəqələrindən asılı olmayaraq bütün heyvanlar baytar nəzarəti altında kəsiləcək.*

*Əziz həmvətənlər! İnsanı öz Yaradanına yaxın edən Qurban bayramının sevincini ehtiyacı olan soydaşlarımıza yaşatmaq, özəlliklə pandemiya şəraitində maddi sıxıntı çəkən insanlara yardım etmək Allaha xoş gedən əməllərdəndir. Qurban kəsməyə imkanı olmayanların Qurban bayramı günü ibadət və duaları Allah-Təala yanında savab əməllərdəndir. Bu tövsiyələr pandemiya dövründə yaranmış xüsusi karantin qaydalarına əməl olunması və insanların sağlamlığının qorunması məqsədilə təqdim olunur. Şəriətə uyğun olaraq Qurban kəsimi 20 iyul tarixindən başlayaraq 3 gün davam edə bilər. İyul ayının 20 və 21-də məscidlərimizdə birgə Bayram namazları qılınacaqdır, inşallah.*

*Bir daha xalqımızı bu bayram münasibətilə təbrik edirik. Allah-Təala insanların mənən saflaşması və həmrəyliyinə nail olması məqsədilə qərar verdiyi bu bayram günlərində kəsdiyiniz qurbanları qəbul etsin, Uca Yaradan xalqımızı, dövlətimizi, bütün bəşəriyyəti bəla və xəstəliklərdən hifz etsin! Amin!"*

# Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisində qanunsuz erməni silahlı dəstələri tərəfindən iyulun 13-də saat 21:34-də və saat 21:45-də Şuşa şəhəri ətrafındakı Azərbaycan Ordusunun mövqeləri pulemyot və avtomatlardan atəşə tutulub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bölmələrimizin şəxsi heyəti arasında həlak olan və yaralanan yoxdur.

# Ermənistan silahlı qüvvələri Naxçıvan istiqamətində mövqelərimizi atəşə tutub

İyulun 14-ü saat 10:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini müxtəlif çaplı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəticədə Azərbaycan Ordusunun hərbi qulluqçusu Mərdanlı İbadulla Məhsud oğlu yaralanıb. Yaralıya ilkin tibbi yardım göstərilib və o, tibb müəssisəsinə təxliyə olunub.

Cavab atəşi ilə düşmən susdurulub. Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

# Ermənistanın Azərbaycanın mövqelərini atəşə tutaraq bölgədəki kövrək sülhü pozmaq cəhdlərini qətiyyətlə qınayırıq

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi Ermənistan silahlı qüvvələrinin dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutması ilə bağlı məlumat yayıb.

AZƏRTAC məlumatı təqdim edir: "Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumat verdiyi kimi, 2021-ci il iyulun 14-də Ermənistan silahlı qüvvələri Ermənistan-Azərbaycan dövlət sərhədinin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonu istiqamətində Azərbaycan Ordusunun mövqelərini atəşə tutub və nəticədə bir hərbi qulluqçumuz yaralanıb.

Son günlər Ermənistan tərəfinin ardıcıl şəkildə Azərbaycanın mövqelərini atəşə tutaraq, bölgədəki kövrək sülhü pozmaq cəhdlərini qətiyyətlə qınayırıq.

Azərbaycanın bölgədə sülh, əməkdaşlıq və dayanıqlı inkişafı təmin etmək istiqamətində addımlar atdığı bir vaxtda Ermənistanın bu kimi destruktiv yanaşma nümayiş etdirməsi qəbuledilməzdir. Bölgədə vəziyyətin bu şəkildə inkişafının bütün məsuliyyəti Ermənistanın üzərindədir".

◆Qarabağ dirçəliş yolundadır

Nə xoşbəxtsiniz, arılar?!.
Neçə ildir intizarında olduğumuz o sevincli anlara ilk qovuşan siz oldunuz...
Xəyallarımızın şah taxtı, təbiətin möcüzəsi Kəlbəcərin ilk mehmanı siz oldunuz...
Binələri çadır-çadır dağlarına, sərin, ılıq yaylaqlarına, yaşıl çəmənlərinə ilk azadə qanad açan siz oldunuz...
Sevinclə uçaraq güldən-gülə qondunuz, Kəlbəcərin cənnət ətirli çiçəklərini bağrınıza basıb qoxusunu könlünüzə, qəlbinizə hopdurdunuz, ürəyinizdəki qəm-qüssə, özləm, həsrət, intizara bir andaca son qoydunuz...
Kaş, yerinizə olaydım...
Bəli, bəli, qibtə edirəm sizə, arılar...





# Yaylağa çıxırıq...

## Bir qərinəlik həsrətin sonunda Kəlbəcər dağları ilk sakinlərinə qucaq açmağın bəxtəvərliyini yaşayır

Köhnə, vərəqləri saralmış, qalın cildli bir kitab var evimizdə...

Kəlbəcərdən, Sınıqkilsədən (indi Hacıkənd) köçkün düşən zaman lazımi sənədlərimizi onun içinə qoyub gətirmişdik. Sonradan həmin kitabı vərəqləyəndə bizi kövrəldən bir xəzinə ilə rastlaşmışdıq...

Kəlbəcər çəmənlərindən dərilən üç gül çıxmışdı qarşımıza: nərgiz, bənövşə, maralgülü...

Demək olar ki, bu illər ərzində Kəlbəcərin, onun yaylaqlarının ətrini, çoxdan təravətini də, qoxusunu da, rəngini də itirən bu üç solğun çiçəkdən almağa çalışardıq...

Gözlərimizi yumar, xəyalən o ulu dağlara, o zümrüd meşələrə, o büllur bulaqlara, o ucsuz-bucaqsız çəmənlərə səyahət edər, yenə yaylağa çıxardıq...

❖ ❖ ❖

Qəfildən, günün günorta çağı yaylaqda Günəş yoxa çıxar və səmada toqquşan nəhəng buludların qəzəb qılıncları parlayaraq dağların zirvəsinə, şiş qayalara hücuma keçərdi. İldırımın nəriltisi bir andaca coşub-daşan dağ çaylarının şaqqıltısına qoşulub dərələrdə, yarğanlarda dəhşətli əks-səda verərdi...

Göydəki qovğadan can qurtararaq Yer üzünə can atan iri yağış damlaları qatarlanmış alaçıqların çadırlarını döyəcləməyə, dirəklərin üstü ilə yaşıl çəmənlərin köksünə süzülməyə başlayardı. Yaş torpağın cənnət qoxusu isə gülxətminin, qantəpərin rayihəsinə qarışaraq burum-burum dərə-təpələrə, yaylaqlara yayılardı...

Və cəmi bir neçə dəqiqədən sonra sanki göylərin hirs-hikkəsi soyuyar, qaş-qabağı açılar və Günəşin üzünə tutduğu rübəndi açaraq yerlərə şölə saçmasına icazə verərdi...

Yay yağışından canına sərinlik, təravət hopan yaylaqlarda yenidən həyat qaynamağa başlayardı. Bir andaca bəyaz papaqlı göbələklər yaşıl çəmənləri bürüyərdi... Çiçəklər, güllər, otlar inci kimi üzərlərində sıralanan damlalarla Günəşin şəfəqləri altında bərq vurar, al-əlvan kəpənəklərsə onların başına dolanardı. Quşların şən avazı aləmi başına götürər, uzaqda, sıldırım qayaların baş-başa çatdığı yerdə isə "Fatma nənə al-əlvan hənasını qurub" intizarla "arzular körpüsü"nün altından keçməyə gələnləri gözləməyə başlayardı...

O zaman alaçıqlara sığınaraq yağışın bitməsini səbirsizliklə gözləyən uşaqların arasında mən də olardım. Və biz sevinclə özümüzü çölə ataraq quzuları da qabağımıza qatıb dağların döşünə qaçardıq. Yay yağışından sonra çayların daşaraq az qala dağların zirvəsinə qədər qalxan köpüklü selinə tamaşa etməyə tələsərdik...

Kəlbəcər elinin ən gözəl dövrü, yaylaqlarda yaşam ərəfəsi olardı...

Biz buna "dağa köçmək" deyərdik...

❖ ❖ ❖






Təbiətən sərt, çətin relyefə malik Kəlbəcərin ən mərhəmətli, yumşaq, həlim dövrü yay fəsli olurdu desək, yəqin ki, yanılmarıq. Çünki ilin digər fəsillərində leysan yağışları, şaxtası, qarı, sazağı ilə insanları sınağa çəkən Kəlbəcər sanki bütün məharətini, cah-cəlalını yay fəsli üçün qoruyub saxlayardı...

Və yaylaqları gül-çiçəyi, durna gözlü bulaqları çağlayan şəlalələri, başı qarlı zirvələri ilə kəlbəcərlilərin pişvazına elə hazırlaşardı ki, bir andaca şaxta da, iliklərinə qədər işləyən sazaq da canlarından çıxar, əzəmətli dağlardan əsən ılıq mehlə sovrulub gedərdi...

Kəlbəcərdə hər kəndin bir və ya bir neçə yaylağı vardı. Məktəblər bağlanıb yay tətili gələndə Sınıqkilsənin sakinləri də Qoç daş yaylağına çıxardı. Həm özləri dincələr, həm də qış ehtiyatı tutardılar. Yaylağa çox şey aparılmazdı, ancaq zəruri əşyalar qovğarılıb yük maşınına yığılardı.

Biz uşaqlarsa maşına minməyi xoşlamaz, elə pay-piyada mal-qara, qoyun-quzu, çoban itlərinin hay-küylü köçünə qoşulub üzü dağlara qalxardıq. Kəndimizin ortasından iri bir çay keçərdi və evlər hər iki tərəfdə dağların döşündə sıralanmışdı. Başdan-başa meşəlik idi, amma biz yaylağa qalxdıqca meşəlik azalar, ağaclar yavaş-yavaş öz yerini az qala elə ağac hündürlüyünə qalxmış otlara verərdi. Bu cür hündür otları birtəhər yara-yara irəliləyərdik.

Yaylağa çatanda görərdik ki, artıq alaçıqlar qurulmağa başlanıb. Kişilər əvvəlcə alaçığın dirəklərini basdırar, sonra tavan hissəsini çubuqlarla hörər, ən sonda ağ çadırı çəkərdilər...

Onlar bu işləri görən ərəfədə isə qadınlar ocaq qalayar, qazan asardılar. Uzaqdan baxanda bütün ağ çadırların ətrafından uzanaraq buludlara qovuşan tüstü burumları görünərdi...

Uşaqlar ucsuz-bucaqsız çəmənlərə yollanar, ətri adamı bihuş edən gül-çiçəkdən çələng hörər, kəpənəklərlə rəqs edər, çöl arılarının arxasınca düşüb sıldırım qayalara dırmaşar, onların Kəlbəcərin min bir çiçəyindən çəkib hazırladıqları şəffaf baldan ləzzətlə dadardı...

Daha sonra qəzəbli arıların əlindən qurtulmaq üçün qaçaraq yenidən çəmənlərə üz tutardı...

Axşamlar yumşaq otun üzərinə uzanıb göy üzünə baxmaq isə təsvirəgəlməz bir macəra olardı. Yaylaqlar çox hündürlükdə yerləşdiyi üçün adamda elə bir hiss yaranardı ki, sanki yerlə-göyün qovuşduğu yerdəsən və əl uzatsan o ulduzlara, aya toxuna bilərsən...

❖ ❖ ❖

Səhər ala-qaranlıqda lap uzaqlardan, haradansa çoban tütəyinin yanıqlı səsi dağ-daşda əks-səda verərdi. Səbəbini bilmirəm, amma bu səsi eşitmək hər zaman məndə qüssəli hisslər oyadardı...

Heç zaman o tütəyi çalan şəxsi görməz, kimliyini bilməzdik... Sanki bu, təbiətin öz səsi, öz sehrli musiqisi idi qulaqlarımızda səslənərdi...

Elə bu ecazkar çağırışdan sonra arxaclardan buraxılan mal-qara otlağa yollanar, yenicə doğulan quzular, buzovlar onların arxasınca yanıqlı-yanıqlı mələşərdilər. Axşamüstü naxır, qoyun sürüsü örüşdən qayıdanda isə ana və balaların qovuşması əsnasında bütün yaylağı elə bir səs-küy bürüyərdi ki, qulaq tutulardı...

Analar süd vedrələrini götürüb arxaca yollanar, uşaqlarsa qoyunların başından bir-bir tutub saxlayardılar ki, onlar südü rahatlıqla sağa bilsinlər. Az keçməmiş qıjıltı ilə vedrəyə axan ağ köpüklü südün ləzzətli ətri ətrafı bürüyərdi.

Daha sonra ocaqlar çatılar, sağılan südlər bişirilərdi. Kimisi süddən qatıq çalar, kimisi pendir tutar, kimisi də çiyə çəkərdi...

Bir də görərdin ki, dərələrdən sürünə-sürünə gələn duman alaçıqların ətrafını bürüdü, göz-gözü görmədi. Yadımdadır, belə olanda uşaqlar bir-birimizə qoşulub dumanda azan buzovları axtarmağa gedərdik.

Bir dəfə avqust ayında qar yağması isə yaylaqla bağlı yaddan çıxmaz xatirələrimdəndir...

Sanki qış qayıtmışdı, birdən-birə hava buz kəsmiş, lopa-lopa qar yağmış, hər tərəf ucsuz-bucaqsız bəyaza bürünmüşdü. O zaman çırtaçırtla yanan sobaların ətrafına yığışaraq təbiətin bu şıltaqlığına heyrətlə tamaşa etmişdik...

❖ ❖ ❖

Kəlbəcər yaylaqlarının mehmanları da çox olardı...

Bulaqların başı qonaq-qara ilə dolub-daşar, saz-söz məclisləri düzənlənərdi. Sacda xamıralı bişirilər, qırxbuğum kətəsi salınar, nehrələr çalxanar, buz kimi ayran ürəklərə sərinlik gətirərdi...

Samovarlar pıqqapıq qaynayar, kəklikotulu çay dəmlənər, əmlik quzulardan kabab çəkilər, yarpızlı dovğanın ətri aləmi bürüyərdi...

Bəli, bütün bunlar illər əvvəl baş verərdi...

Amma şükür Tanrıya ki, düz 28 ildən sonra Kəlbəcər yaylaqları yenidən əziz qonaqlarını eyni təntənə ilə qarşılayır...

Yenə də çəmənlərini xalı kimi sərib, soyuğu ilik sızladan bulaqları şövqlə çağlayır, gülləri-çiçəkləri min bir rayihə saçır.

Artıq qoyunçuluq və arıçılıq təsərrüfatları işğaldan azad edilmiş Kəlbəcər rayonunun yaylaqlarına köçürülüb...

*O gün də uzaqda deyil ki, tezliklə bütün Kəlbəcər eli öz doğma yurduna qayıdacaq, od-ocağını qalayacaq, toy-büsatını quracaq, təbiətin ahənginə qoşulub yayda yaylaqlarına, payızda binələrinə köçəcək...*

*Bəli, Kəlbəcər xoşbəxtdir...*

*Yaylaqları sevinir, çünki illərdir həsrətlə yolunu gözlədiyi doğma eli, doğma sakinləri, əziz qonaqları qoynuna qayıdır...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycanı "Tokio-2020" Yay Olimpiya Oyunlarında 44 idmançı təmsil edəcək

*Əvvəli 1-ci səh.*

Qeyd edək ki, Azərbaycanın "Tokio-2020"yə qazandığı vəsiqələrdən 9-u cüdo, 7-si güləş, 5-i bədii gimnastikanın qrup hərəkətləri üzrə komanda, 1-i fərdi çöxnövçülük, 5-i boks, 3-ü karate, 2-si atletika, 2-si üzgüçülük, 2-si taekvondo, 2-si idman gimnastikası, 1-i güllə atıcılığı, 1-i şose velosipedi, 1-i qılıncoynatma, 1-i badminton, 1-i triatlon, 1-i stend atıcılığı (vald-kart) növlərində qazanılıb. Həmin vəsiqələrin sahiblərini təqdim edirik:

1. Anna Skidan (Atletika - çəkicatma)
2. Maksim Şemberev (Üzgüçülük - 400 m qarışıq)
3. Mariya Stadnik (Qadın güləşi - 50 kq)
4. Şərif Şərifov (Sərbəst güləş - 97 kq)
5. Zöhrə Ağamirova (Bədii gimnastika - çoxnövçülük)
6. Yelizaveta Luzan (Bədii gimnastika - qrup çoxnövçülük)
7. Darya Sorokina (Bədii gimnastika - qrup çoxnövçülük)
8. Məryam Səfərova (Bədii gimnastika - qrup çoxnövçülük)
9. Ləman Əlimuradova (Bədii gimnastika - qrup çoxnövçülük)
10. Zeynab Hummatova (Bədii gimnastika - qrup çoxnövçülük)
11. Marina Nekrasova (İdman gimnastikası - qadınlar çoxnövçülük)
12. İvan Tixonov (İdman gimnastikası - kişilər çoxnövçülük)
13. Ruslan Lunyov (Güllə atıcılığı - 25 m məsafəyə kiçikçaplı tapançadan atəş açma)
14. Elçin Əsədov (Velosiped idmanı - şose)
15. Milad Beigi Hərçəqani (Taekvondo - 80 kq)
16. Nazim Babayev (Atletika - üç təkanla tullanma)
17. Tayfur Əliyev (Boks - 57 kq)
18. Hacı Əliyev (Sərbəst güləş - 65 kq)
19. Hacımurad Hacıyev (Sərbəst güləş - 74 kq)
20. İslam Abbasov (Yunan-Roma güləşi - 87 kq)
21. Anna Başta (Qılıncoynatma - sablya)
22. Elis Manolova (Qadın güləşi - 68 kq)
23. Rafiq Hüseynov (Yunan-Roma güləşi - 77 kq)
24. Fəridə Əzizova (Taekvondo - 67 kq)
25. Rafael Ağayev (Karate - 75 kq)
26. İrina Zaretska (Karate - +61 kq)
27. Edi Reski Dviçayo (Badminton)
28. Kəramət Hüseynov (Cüdo - 60 kq)
29. Orxan Səfərov (Cüdo - 66 kq)
30. Rüstəm Orucov (Cüdo - 73 kq)
31. Murad Fətiyev (Cüdo - 81 kq)
32. Məmmədəli Mehdiyev (Cüdo - 90 kq)
33. Zelim Kotsoyev (Cüdo - 100 kq)
34. Uşangi Kokauri (Cüdo - +100 kq)
35. Aişə Qurbanlı (Cüdo - 48 kq)
36. İrina Kindzerska (Cüdo - +78 kq)
37. Rostislav Pevtsov (Triatlon)
38. Cavid Çələbiyev (Boks - 63 kq)
39. Lorenso Sotomayor (Boks - 69 kq)
40. Alfonso Dominges (Boks - 81 kq)
41. Məhəmməd Abdullayev (Boks - +91 kq)
42. Firdovsi Farzaliyev (Karate - 67 kq)
43. Emin Cəfərov (Stend atıcılığı) - vald kart
44. Məryəm Şeyxəlizadə Xanqan (Üzgüçülük) - universal vəsiqə.

## Paralimpiya Oyunlarına isə hələlik 34 idmançımızın qatılacağı məlumdur

Azərbaycan Milli Paralimpiya Komitəsindən (AMPK) verilən məlumata görə, paralimpiyaçılarımız Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına daha iki lisenziya qazanıblar. Bununla da lisenziyalarımızın sayı 34-ə çatıb.

Qazanılan son iki lisenziyanın sahibləri Lamiyə Vəliyeva və Yuliya Yanovskaya olub. Hər iki atletimiz bunu reytinq xarakterli yarışlarda yüksək nəticə göstərməklə əldə edib. AMPK-dən aldığımız məlumata görə, qazanılan 34 lisenziyadan 11-i cüdo, 10-u atletika, 4-ü parataekvondo, 4-ü pauerliftinq, 3-ü üzgüçülük və 2-si güllə atıcılığı növündəndir. Qeyd edək ki, 30 iyul tarixinə qədər Milli Paralimpiya komandasının lisenziya gözləntiləri var və onlar tədricən elan ediləcəklər.

Xatırladaq ki, "Rio-2016" XV Yay Paralimpiya Oyunlarına Azərbaycan milli komandasının 22 üzvü lisenziya qazanmışdı.

## "Tokio-2020"də Azərbaycan komandasının idman geyiminin təqdimatı olub

"Tokio-2020" Yay Olimpiya Oyunlarında Azərbaycan komandasının istifadə edəcəyi idman geyiminin təqdimatı olub. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında təşkil olunan tədbirdə Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov, Akademiyanın rektoru Fuad Hacıyev, Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada və idman ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Əvvəlcə "Tokio-2020" Yay Olimpiya Oyunlarından bəhs edən videoçarx yayımlanıb.

Ç.Hüseynzadə, İ.İsmayılov və F.Hacıyev mərasimdə çıxış edərək komandamızın Olimpiadaya tam hazır olduğunu bildiriblər.




Çıxışlarda Azərbaycanın "Tokio-2020"yə qalib ölkə kimi qatıldığı, idmançılarımızın qələbə qazanacaqları təqdirdə "Zəfər günləri" tədbirinin təşkil olunacağı, yığmamızın ilk dəfə iştirak etdiyi Atlanta Yay Olimpiya Oyunlarının 25 illiyi münasibətilə filmin hazırlandığı da vurğulanıb. Səfir C.Vada Yaponiyanın Olimpiya Oyunlarına tam hazır olduğunu deyib, Azərbaycanda idmanın inkişafından danışıb və milli komandamızın Olimpiadada uğurla çıxış edəcəyinə əminliyini bildirib.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam edib. Sonda Azərbaycanın Olimpiya komandasının idman geyiminin təqdimatı olub. Azərbaycanın milli-mənəvi dəyərlərinə əsasən hazırlanan dəstdə milli ornament olan şəbəkədən istifadə edilib. Geyimi modellərlə yanaşı, komandamızın bayraqdarları cüdoçu Rüstəm Orucov və taekvondoçu Fəridə Əzizova da təqdim ediblər.

Xatırladaq ki, Tokioda 2020-ci ilin yayında keçirilməli olan Yay Olimpiya və Paralimpiya oyunları koronavirus pandemiyası ilə əlaqədar cari ilə təxirə salınıb. Olimpiya Oyunları iyulun 23-dən avqustun 8-dək, Paralimpiya Oyunları isə avqustun 24-dən sentyabrın 5-dək keçiriləcək.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***



## Ukraynanın daxili işlər naziri istefa verib

Ukraynanın daxili işlər naziri Arsen Avakov istefa ərizəsi yazıb. Bu barədə "Vesti.ua" portalı "Xalqın xidmətçisi" Partiyasının Ali Radadakı fraksiyasının başçısı David Araxamiyaya istinadən məlumat yayıb.

Bildirilir ki, Ukrayna parlamenti iyulun 15-də keçiriləcək iclasda daxili işlər nazirinin istefa ərizəsinə baxacaq. Ukrayna Daxili İşlər Nazirliyi məlumatı təsdiqləyib.

Xatırladaq ki, Arsen Avakov 2014-cü ildən Ukraynanın daxili işlər naziridir. Ona hökumətdə başqa bir vəzifə təklif olunacağı istisna edilmir.

# Beynəlxalq aləm

## Təslim olmuş 22 əfqan hərbçisini taliblər qətlə yetirib

CNN telekanalının xəbərinə görə, Əfqanıstanın Fəryab əyalətinin Dövlət Abad şəhərində xüsusi təyinatlılar taliblərlə döyüşə girmişlər.



Hərbçilərin döyüş sursatları qurtardıqdan sonra onlar mühasirəyə düşmüş və təslim olmuşlar. Lakin terrorçular atəş açaraq əfqan hərbçilərini qətlə yetirmişlər.

Ötən ayın 16-da baş vermiş hadisənin bir neçə videoyazısı telekanalın əlinə keçmişdir. Məlumatı Beynəlxalq Qırmızı Xaç Komitəsində və Əfqanıstanın Müdafiə Nazirliyində təsdiq etmişlər. Ancaq taliblər bildirirlər ki, xüsusi təyinatlıların edam videosu "hökumət təbliğatıdır" və guya hərbçilər hələ sağdır. Lakin bununla bağlı taliblər heç bir sübut təqdim etməmişlər.

## Kubada iğtişaşlar zamanı aksiya iştirakçısı güllələnib

Kubada baş verən iğtişaşlar zamanı 36 yaşlı kişi həlak olub. Bu barədə ölkə KİV-i xəbər verir.

Məlumata əsasən, sözügedən şəxs paytaxt Havananın Arroyo-Naranho rayonunda polis əməkdaşlarına edilən hücum zamanı ölümcül yaralanıb.

Bildirilir ki, toqquşmalardan sonra etiraz aksiyasının bir neçə iştirakçısı saxlanılıb.

Qeyd edək ki, Kubada iyulun 11-dən hökumətə qarşı etiraz aksiyaları başlayıb.



## Ceki Çan kommunist olmaq istəyir

Ceki Çan Çin Kommunist Partiyasına (ÇKP) üzv olmaq istədiyini açıqlayıb. Bunu 67 yaşlı aktyor və prodüser bunu "Çinfilm" Assosiasiyasının təşkil etdiyi simpoziumda çıxış edərkən deyib. Bu barədə "South China Morning Post" qəzeti xəbər verir. "Düşünürəm ki, ÇKP-nin dedikləri, vəd etdikləri hər şey onilliklər ərzində mütləq gerçəkləşəcək. ÇKP üzvü olmaq istərdim", - deyə Ceki Çan bildirib.

## Özbəkistanda 8 nəfəri sel aparıb

Özbəkistanda leysan yağışları nəticəsində baş vermiş sel insan tələfatına səbəb olub. "RİA Novosti" agentliyinin verdiyi xəbərə görə, ölkənin Qırğızıstanla həmsərhəd olan Namanqan vilayətində baş vermiş daşqın nəticəsində 8 nəfər ölüb, 6 nəfər xəsarət alıb.



Özbəkistan Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, Qırğızıstanın Cəlal-Abad bölgəsində yağan güclü yağışlar səbəbindən Namanqan vilayətində Kasansay çayı daşıb.

Ərazidə axtarış və xilasetmə işləri davam edir.

## Çində binanın çökməsi nəticəsində ölənlərin sayı 17-yə çatıb

Çinin Tszyansu əyalətində mehmanxana binasının çökməsi nəticəsində ölənlərin sayı artıb. TASS agentliyinin verdiyi xəbərə görə, bu barədə Suçjou şəhərinin Utszyan rayonunun rəhbərliyinin "WeChat" sosial şəbəkəsindəki rəsmi səhifəsində məlumat verilir.



Bildirilir ki, bina çökən zaman mehmanxanada 23 nəfər olub. Hadisə nəticəsində 17 nəfər ölüb, 5 nəfər yaralanıb, 1 nəfər isə xəsarət almayıb.

Qeyd edək ki, mehmanxana binasının çökməsi iyulun 12-si baş verib.

Qəzanın səbəbi araşdırılır.

## "Azərenerji" ASC
## "Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu" MMC
## 2021-ci il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir

"Azərenerji" ASC-nin Azərbaycan Elmi-Tədqiqat və Layihə-Axtarış Energetika İnstitutu Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 129 №-li 01 iyul 2010-cu il tarixli qərarı ilə təsdiq edilmiş "Doktoranturanın yaradılması və doktoranturaya qəbul Qaydalarına" uyğun olaraq aşağıdakı ixtisaslar üzrə qəbul aparacaqdır:

3340.01 - Elektrotexniki sistemlər və komplekslər;
3341.01 - Elektrik stansiyaları (elektrik hissəsi) və elektroenergetik sistemlər;
3342.01 - İstilik elektrik stansiyaları (istilik hissəsi);
3338.01 - Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi;
5312.01 - Sahə iqtisadiyyatı.

"Fəlsəfə doktoru" proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ***ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);***
- ***kadrların şəxsi-qeydiyyat vərəqi;***
- ***tərcümeyi-hal;***
- ***iş yerindən xasiyyətnamə;***
- ***3 ədəd fotoşəkil ( 3x4 sm ölçüdə);***
- ***iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;***
- ***çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;***
- ***ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikası vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);***
- ***şəxsiyyəti təsdiq edən sənədin surəti.***

**"Elmlər doktoru" proqramı üzrə doktoranturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan Azərbaycan Respublikasının vətəndaşları qəbul edilirlər.**

"Elmlər doktoru" proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ***ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına);***
- ***kadrların şəxsi-qeydiyyat vərəqi;***
- ***tərcümeyi-hal;***
- ***3 ədəd fotoşəkil ( 3x4 sm ölçüdə);***
- ***iş yerindən xasiyyətnamə;***
- ***əmək kitabçasından çıxarış;***
- ***çap olunmuş elmi işlərin siyahısı;***
- ***"Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;***
- ***ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti;***
- ***şəxsiyyəti təsdiq edən sənədin surəti.***

**Qeyd:** Xarici dil (ingilis, alman və fransız dillərindən biri) fənnindən imtahan Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilir. Doktorantura və ya dissertanturaya sənədlərin qəbulu elan dərc olunduğu tarixdən 2021-ci il iyulun 30-dək aparılacaqdır.

***Ünvan:*** *AZ1012, Zərdabi pr.,94* *Əlaqə telefonu: 050 228-84-48*

## Lənkəran Dövlət Universiteti
## *açıq tender (e-tender) elan edir*

LOT-1. LDU-nun 2 saylı tədris korpusun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi işləri.

Lənkəran Dövlət Universiteti büdcədənkənar vəsaiti hesabına açıq tender metodu tətbiq etməklə elektron satınalma vasitəsilə "LDU-nun 2 saylı tədris korpusun həyətində 5 mərtəbəli yeni tədris korpusunun tikintisi" işlərinin satın alınmasını həyata keçirir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun öz tender təkliflərini https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. Müqavilənin yerinə yetirilməsi üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

İddiaçılar aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN ödəniş" sistemi ilə köçürdükdən sonra Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 1800 (bir min səkkiz yüz) manat.

**Lənkəran Dövlət Universiteti**
**Hesab №: AZ97AIIB33080019443870045138**
**VÖEN: 2600135481**
**Kapital Bank ASC Lənkəran filialı**
**Kod: 200383**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddətdə fəaliyyət göstəribsə, bütün fəaliyyət dövründəki) maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayışı;*
- *nizamnaməsi;*
- *qeydiyyatdan keçdiyi ölkə;*
- *rekvizitləri.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 06 avqust 2021-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə 16 avqust 2021-ci il saat 17:00-a qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı 17 avqust 2021-ci il saat 17:00-da dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 500 mini keçib

İyulun 14-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 41 min 696 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 18 min 222, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 23 min 474 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 4 milyon 200 min 994-ə bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 512 min 773, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 688 min 221 nəfərdir.







## Son sutkada koronavirus infeksiyasından həyatını itirən olmayıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 73 nəfər müalicə olunaraq sağalıb, 146 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırkı dövrədək ölkəmizdə 337 min 602 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 946 nəfər müalicə olunaraq sağalıb, 4988 nəfər vəfat edib. Aktiv xəstə sayı 1668 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 876 min 962 test aparılıb. Dünənki test sayı isə 9046-dır.


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat
6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat
3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə 16.07.2021-ci il tarixdə gecə saatlarında aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar bəzi xidmətlərin istifadəsi zamanı müvəqqəti çətinliklərin yaranması mümkündür.

## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhərində və onun qəsəbələrində təhsil müəssisələrinin tikintisi və təmiri işlərinin davam etdirilməsi məqsədilə
## *təkliflər sorğusu elan edir*

LOT - 1. Sabunçu rayonu, Zabrat qəsəbəsində 71 saylı tam orta məktəb üçün əlavə 30 sinif otağının tikintisinin davam etdirilməsi.
LOT - 2. Sabunçu rayonu, Zabrat qəsəbəsi 71 saylı tam orta məktəbin əsaslı təmiri.
LOT - 3. Sabunçu rayonu, Zabrat qəsəbəsində 307 saylı tam orta məktəb üçün əlavə 15 sinif otaqlı korpusun tikintisinin davam etdirilməsi.
LOT - 4. Sabunçu rayonu, Zabrat qəsəbəsində 307 saylı tam orta məktəbin əsaslı təmiri.
LOT - 5. Suraxanı rayonu, Əmircan qəsəbəsi 87 saylı tam orta məktəbin köhnə korpusunun sökülərək 1752 şagird yerlik yeni korpusların tikintisinin davam etdirilməsi.
LOT - 6. Xətai rayonu, 263 nömrəli tam orta məktəbin ikimərtəbəli korpusunun və birmərtəbəli keçidlərin sökülərək yeni korpusların (idman və akt zalı ilə) inşasının davam etdirilməsi
LOT - 7. Nəsimi rayonu, 35 nömrəli tam orta məktəbin köhnə korpusunun sökülüb yenidən inşasının davam etdirilməsi

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, öz təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün prosedur iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Təkliflər sorğusunda iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər. Əlaqələndirici şəxs: Əhməd Məmmədov, 496-52-05.

İştirak haqqı hər LOT üçün - 500,00 manat

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/h: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İştirakçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *təkliflər sorğusunda iştirak etmək üçün ərizə;*
- *təkliflər sorğusunda iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *təkliflər sorğusunda təklifi (zərfin açıldığı tarixdən sonra azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *təkliflər sorğusunda təklifi qiymətlərin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *dövlət satınalmaları müsabiqəsində iştirak etmiş oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surəti (təsdiqli formada);*
- *tikinti işlərinin həyata keçirilməsi ilə bağlı müvafiq lisenziya.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan təkliflər sorğusu sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar təkliflər sorğusu ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun hazırlamalı, təkliflər sorğusunda iştirak üçün sənədləri qapalı, ayrı-ayrı möhürlənib imzalanmış ikiqat zərflərdə 29 iyul 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanına (əlaqələndirici şəxs - Əhməd Məmmədov, telefon: (012) 496-52-05) təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 30 iyul 2021-ci il saat 11:00-da Bakı şəhəri, Xətai rayonu, Nəcəfqulu Rəfiyev, 17 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 14 iyul 2021-ci il tarixli qərarı ilə Bunyatov Pərviz Mürşüd oğluna sığorta agenti fəaliyyətinə verilmiş 27 yanvar 2015-ci il tarixli, 080650 nömrəli lisenziya ləğv edilmişdir.

Azərbaycan Dövlət Dəniz Akademiyası tərəfindən 2012-ci il tarixdə Ruslan Feyruz oğlu Əbdüləzimovun adına verilmiş BC 245568 nömrəli (qeydiyyat № 1515) diplom itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağdamdan Vaqif Həsənov Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədova atası

**SƏYYAD MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qambay Muradov, Cavid Əsədov, Abid Əliyev, Ayaz və Əlikram Qasımovlar, Müasir Abdullayev, Elxan İlyasov və Rafiq Hüseynov istefada olan polkovnik Hacı Ağaməmməd Məmmədova bacısı

**XURAMAN İBRAHİM QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 4203
Sifariş 1253
Qiyməti 40 qəpik